**NAĞI**

# QARABAĞ MÜHARİBƏSİ

**(Qısa tarix)**

**Bakı-2009**

**Qarabağ Azadlıq Təşkilatı**
**Akif Nağı. Qarabağ müharibəsi. (Qısa tarix),**
**Bakı, «MBM-R», 2009.-112 səh.**

**Bu kitabda Qarabağ müharibəsinin kökləri, səbəbləri, gedişi, müharibənin nəticələrinin aradan qaldırılması ilə bağlı məsələlər populyar şəkildə şərh olunur, işğalçı Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi vəhşiliklər, talanlar, terror hərəkətləri konkret faktlar əsasında göstərilir. Kitabda şərh edilən faktlar qədim dövrdən bu günə qədərki erməni xisləti, qəsbkarlığı və işğalçılığına qarşı Azərbaycan xalqının mübarizə yolunu əhatə edir.**

**Kitab geniş oxucu dairəsi üçün nəzərdə tutulmuşdur.**

**ISBN: 078-9952-29-045-3**

**© A.Nağı Bakı,**
**«MBM-R»**

# ÖN SÖZ

***Allah... sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. (Qurani-Kərim, əl-Mumtəhinə surəsi, ayə 9)***

Ermənilərin Dağlıq Qarabağı ələ keçirmək cəhdləri gəlmə və torpaqsız xalqın ərazi iddialarının təkib hissəsidir. Müxtəlif ölkələr gəlmə xalqların bu cür iddiaları ilə dəfələrlə rastlaşmışlar. Bu tarix üçün yeni bir hadisə deyildir. Ermənilər də Cənubi Qafqazda, o cümlədən Azərbaycanda yaşamamış, bu ərazilərə sonradan və tədricən başqa ölkələrdən gəlmiş və yaxud gətirilmişlər. Qarabağda həmişə Azərbaycan tayfaları yaşamış və bu ərazi Azərbaycan dövlətlərinin təkibində olmuşdur. Qarabağ hər dövrdə bütöv ərazi vahidi olmuşdur. "Dağlıq Qarabağ" ifadəsi isə XX yüzillikdə Sovet Rusiyasının rəhbərliyi tərəfindən uydurulmuşdur. Qarabağ əraziləri qədim dövrdə "Arsax" adı ilə ("Arsax" sözü qədim türk tayfası olan sakların adı ilə bağlıdır və "igid sak", "ər sak", "sak kişisi" mənalarını verir). Albaniya dövlətinin (e.ə.lV-e.VIII əsrlər) təkibində olmuşdur. Albaniya dövləti müasir Azərbaycan Respublikasının ərazisi də daxil olmaqla daha geniş torpaqlara malik idi. Albaniyanın qərb sərhədləri Göyçə gölündən keçməklə indiki Ermənistan deyilən ərazilərin böyük hissəsini əhatə edirdi. O dövrdə bu ərazilərdə erməni elementləri yox idi. Arsax-Qarabağ əraziləri daha sonra Ərəb Xilafətinin, bu dövlətin süquta uğramasından sonra isə Azərbaycan dövlətlərinin-Sacilər, Rəvvadilər, Eldəgizlər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilərin və Qarabağ xanlığının təkibində olmuşdur. Qarabağ xanlığı 1805-ci il may ayında Rusiya imperiyası tərəfindən işğal edilmişdir. Bu işğal kiçik fasilə ilə (1918-1920-ci illər Azərbaycan Demokratik Respublikası dövrü istisna olmaqla) 1991-ci ilə qədər davam etmişdir. 1918-ci ildə yaranmış Azərbaycan Demokratik Respublikasının müstəqilliyi, Qarabağ da daxil olmaqla ərazi bütövlüyü və süverenliyi dünya birliyi, konkret olaraq, Paris Sülh Konfransı tərəfindən tanınmışdır. O dövrdə Qarabağ bəzi mübahisəli ərazilərin içərisinə daxil olmamışdır. Həmin vaxt Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan qərb sərhədləri 2300 il əvvəl Albaniya dövlətinin dönəmində olduğu kimi yenə də Göyçə gölündən keçirdi. İndi ermənilər Azərbaycanın tarixi torpaqlarını zəbt edərək Göyçəni daxili göllərinə çevirmiş, adını da dəyişərək "Sevan" qoymuşlar.

Ermənilərin Cənubi Qafqaza gətirilməsi tədricən baş vermiş və Kiçik Asiyadan keçmişdir. İlk erməni (onlar özlərini hay adlandırırlar) dəstələri e.ə.VII-VI əsrlərdə Balkanlardan Kiçik Asiyaya, müasir Türkiyənin şərq vilayətlərindən birinə az miqdarda gətirilmiş və onlardan bir sıra təsərrüfat

işlərində, əsasən də tikintidə qul kimi istifadə olunmuşdur. Tanınmış ermənişünas alim H.Adons yazırdı: "Kimmeri tayfaları b.e.ə. VIII əsrdə Balkanlara, Frakiya vilayətinə gəldilər. Burada onlar ermənilərin əcdadları ilə rastlaşdılar və özləri ilə götürüb Kiçik Asiyaya apardılar". Tədricən çoxalan ermənilər həmin ərazilərdə bir neçə dəfə xırda dövlət qurumları yaratmağa cəhd etmiş, lakin davamlı bir qurum yarada bilməmişlər. Ermənilər nisbətən yaxın və uzaq ərazilərdə Manna, Urartu, Midiya, Assuriya kimi dövlətləri görür, onlara uyğun bir qurum yaratmağa çalışır, lakin heç nəyə nail ola bilmirdilər. Ermənilərin gəlilə məskunlaşdığı ərazilər müxtəlif vaxtlarda həmin dövlətlərin bu və ya digərinin təkibinə daxil edilirdi. Azərbaycan Albaniyası və Atropatena dövlətlərinin meydana gəlməsindən (e.ə. IV əsr) xeyli sonra, e.ə. II əsrdə ermənilər də Kiçik Asiyada, Van gölünün sahillərində özlərinin kiçik bir dövlətlərini qura bildilər. Bu dövlət heç bir ciddi rola malik olmamış, yalnız e.ə. I əsrin 80-ci illərində güclənmiş və bir sıra qonşu əraziləri, o cümlədən, Atropatenanı və Azərbaycan Albaniyasının bir hissəsini zəbt etmişdir. Bu vəziyyət təxminən 10 il davam etmişdir. Bu erməni dövləti e.ə. 66-cı ildə Roma qoşunlarının zərbələri altında darmadağın oldu. Ermənilər zəbt etdikləri əraziləri tərk edərək yenidən Van gölünün ətrafına qayıtdılar. Sonradan ermənilər bu on illik işğal mərhələsini "Böyük Ermənistan" dövrü adlandırmağa başladılar. Bu məntiqlə Azərbaycan varisi olduğu Manna, Midiya, Albaniya, Atropatena dövlətlərinin on il yox, yüzillərlə əldə saxladığı geniş ərazilərə indi iddia irəli sürə bilər. Və yaxud həmin dövrdə dövlətləri olan hər hansı xalq da bu cür iddialarla çıxış edə bilər. Xoşbəxtlikdən xəstə təxəyyüllü ermənilərdən başqa bu heç kəsin ağlına gəlmir. Bu hadisələrdən sonra ermənilərin öz dövlətlərini yaratmaq cəhdlərinə son qoyulur. Ermənilərin yaşadıqları ərazilər bu və ya digər dövlətlərin nəzarəti altında olur. Lakin bu müharibələrin digər nəticəsi olaraq erməni tayfaları qonşu ərazilərə yayılmağa və həmin yerlərdə məskunlaşmağa başlayırlar. Konkret tarixi faktlar olmasa da, istisna deyil ki, həmin dövrlərdə az sayda erməni ünsürləri Azərbaycanda da məskunlaşmışlar. Yerli türk əhalisi onlardan inşaat və digər işlərdə istifadə edirdilər.

Ərəb Xilafəti dövrünə, İslamın Azərbaycana gəlişinə qədər Arsax-Qarabağ ərazilərində yalnız yerli əhali-Alban-Azərbaycan tayfaları yaşamışlar. VII əsrdə Arsax-Qarabağ əhalisinin böyük əksəriyyəti islamı qəbul etmişdir. O vaxta qədər burada xristianlıq və atəşpərəstlik mövcud idi. Xristian əhalisinin cüzi bir hissəsi dağlara çəkilərək öz dinini saxlamışdır. Onlar alban və digər tayfaların nümayəndələri idilər. Həmin dövrdə erməni dövləti mövcud deyildi, lakin xristianlığın qriqorian məzhəbində olan erməni kilsəsi fəaliyyətini davam etdirirdi. Arsax-Qarabağın dağlara çəkilmiş yerli alban-xristian əhalisi ilk vaxtlar yalnız öz kilsələrində iləadət edir, dini baxımdan alban kilsə ənənələrini davam etdirirdilər. Lakin qonşu xristian gürcülərlə məzhəb fərqləri olduğuna və

bütövlükdə xristian dünyası ilə əlaqələri kəsildiyinə görə bu Azərbaycan-alban tayfaları tədricən erməni kilsəsinin təsiri altına düşür, əvvəl qriqorianlaşır, sonra isə erməniləşirlər. Bütün bunlara baxmayaraq, Qarabağın dağlıq hissəsinə çəkilmiş Azərbaycan-alban tayfaları uzun müddət özlərinin etnik mənsubiyyətini, dini müstəqilliyini qoruyub saxlamış və XIX əsrin ortalarına qədər rəsmi sənədlərdə özlərini alban milləti və alban kilsəsinin nümayəndələri kimi təqdim etmişlər. Arsax-Qarabağ (XIII əsrdən Qarabağ adı işlədilir) əhalisinin böyük əksəriyyəti yerli türklərdən ibarət olmuş və müxtəlif Azərbaycan dövlətlərinin təkibində bu əyalət yerli nəsillərə mənsub hakimlər tərəfindən idarə olunmuşdur. Dağlara çəkilmiş xristian əhali isə həmişə bu hakimlərə tabe olmuş, lakin dini əlahəddəliklərini qoruyub saxlamaq üçün müəyyən özünüidarə qurumlarına malik olmağa çalışmışlar. Azərbaycanın Sacilər və Atabəylər dövlətləri IX-XIII əsrin əvvəllərində faktiki olaraq ölkəni siyasi cəhətdən birləşdirmişdilər. Lakin eyni zamanda xristian albanlara öz dini fərqlərini qoruyub saxlamaq üçün özünü idarə qurumları yaratmağa da imkan verirdilər. Bu vaxt ərzində xristian albanların yaratdıqları qurumlar alban Mehranilər nəslindən olan Həsən Cəlalın (müsəlman ölkəsində yaşadıqlarına və bir çox müsəlman adətlərini qəbul etdiklərinə görə, onlar xristian olmalarına baxmayaraq müsəlman adları da götürürdülər) dövründə (1215-1261-ci illər) daha yüksək inkişaf həddinə çatdı. Xaçın knyazlığı adlandırılan bu qurum mərkəzi Azərbaycan hakimiyyətinə tabe idi. Həsən Cəlalın nəsli Azərbaycan hakimiyyətinə həmişə sədaqətlə xidmət etmişdir. Bu xidmətlərinə görə Azərbaycan Qaraqoyunlu hökmdarı Cahan şah onlara "məlik" (türk dilində "mülk sahibi" deməkdir) titulu vermişdir. Azərbaycan Səfəvi dövlətinin dövründə (1501-1736-cı illər) yerli özünüidarə qurumları ləğv edilmiş, bəylərbəylik inzibati-ərazi sistemi yaradılmışdır. Belə ərazi vahidlərindən biri Qarabağ bəylərbəyliyi adlanırdı. Qarabağ bəylərbəyliyi 7 sancaq və 36 nahiyədən ibarət idi, yəni hər hansı özünü idarəetmə qurumu nəzərdə tutulmurdu. Bu vəziyyət XVIII əsrin birinci yarısına qədər davam etmişdir. Bu dövrdən başlayaraq Rusiya hökuməti Azərbaycanda yaşayan xristian əhalidən öz məqsədləri üçün istifadə etməyə başlayır. Bu siyasətin əsasını işğalçı niyyətlərini gizlətməyən I Pyotr qoyur və ondan sonra həmin siyasət davam etdirilir. Rusiya hökmdarları Qarabağın dağlıq hissəsindəki qriqorianlaşmış albanları erməni kimi təqdim etməyə çalışır və onları bu adı öz üzərlərinə götürməyə şirnikləndirirdi. Lakin bu qədim Azərbaycan əhalisi öz adını dəyişməyə həvəs göstərmirdi.

Səfəvi dövlətinin süqutundan (1736-cı il) və Nadir şahın qısa müddətli hakimiyyətindən sonra Azərbaycanda gərgin və mürəkkəb siyasi vəziyyət yarandı. Nadir şah özü siyasi məqsədlər üçün alban məliklərindən istifadə etməyə başladı. Qarabağın dağlıq hissəsindəki özünüidarə qurumlarının fəaliyyəti yenidən

canlandırıldı. Vaxtilə Həsən Cəlalın nəslinin davam etdirdiyi Xaçın knyazlığının yerində 5 yeni özünüidarə qurumu-məlikliklər yaradıldı. Nadir şah Qarabağın tanınmış türk nəsillərinin nüfuzunu zəiflətmək və onu şah kimi tanımaq istəməyənlərin müqavimətini sındırmaq üçün bu məliklərdən istifadə etmək istəyirdi. Bu beş yeni özünüidarə qurumlarından Dizaq məlikliyi indiki Ermənistan ərazisindən gəlmiş Məlik Yeqanın, Vərəndə indiki Ermənistan deyilən ərazilərdən gəlmiş Məlik Şahnəzərin, Xaçın yerli alban olan Həsən Cəlalın, Çiləbörd yenə də indiki Ermənistan deyilən ərazidən gəlmiş Məlik Allahqulunun və Talış Şirvandan, indiki Qəbələ rayonunun Nic kəndindən (hazırda həmin kənddə alban-udinlər yaşayırlar) gəlmiş Məlik Usubun nəsilləri tərəfindən yaradılmışdır. Bu məliklərdən yalnız Xaçının yaradıcıları yerli alban nəslinə mənsub idilər, qalanları Qarabağa kənardan gəlmişdilər. Kənardan gələnlərin də heç biri erməni deyildi, alban idilər. Onların heç biri erməni deyil, müsəlman adları daşıyır, yalnız müsəlman-türk mühiti ilə qaynayıb-qarışır və çoxlu sayda müsəlman-türk adət və ənənələrinə riayət edirdilər.

Nadir şahın vəfatından sonra məlikliklərin fəaliyyəti xeyli zəiflədi. Lakin bir sıra xarici və daxili qüvvələr onlardan yenə də Qarabağ hakimi Pənah xana, ondan sonra isə İbrahim xana qarşı istifadə etməyə başladı. Rusiya hökumətinin Tiflisdə oturan nümayəndələri məlikləri oraya çağırır, onlara Qarabağ xanlığını zəiflətmək üçün təlimatlar və tapşırıqlar verirdilər. Rusiya hökuməti məlikləri guya onların alban-türk deyil, erməni-xristian olmalarına inandırmaq üçün bütün vasitələrdən istifadə edirdi. Rusiya məliklərin əli ilə Qarabağın xristianlaşdırılması və burada xristian dövlət qurumunun yaradılması məqsədlərini də güdürdü. Bu ideya məliklər üçün də cəlbedici idi, ona görə də rusların tapşırıqlarını həvəslə yerinə yetirirdilər. Onlar bir neçə dəfə İbrahim xana qarşı sui-qəsd də təşkil etdilər, lakin məqsədlərinə nail ola bilmədilər. İbrahim xan məliklərin hamısını və onların katolikosunu həbs etdirməyə məcbur oldu. Sonradan onların bəziləri həbsxanadan qaçaraq Tiflisə getdilər və Qarabağ xanlığına qarşı açıq düşmənçilik mübarizəsinə başladılar.

Beləliklə, XVIII əsrin əvvəllərindən etibarən bir tərəfdən Qarabağın dağlıq hissəsindəki qriqorianlaşdırılmış albanların öz dinlərinə uyğun güclü himayədar axtarmaq istəkləri, digər tərəfdən isə, Rusiyanın Cənubi Qafqaz regionunu ələ keçirmək planları üst-üstə düşürdü. Rusiya Azərbaycan, Türkiyə və İrana qarşı istifadə etmək məqsədilə Qarabağın bir hissəsində kiçik də olsa xristian dövləti, forpost yaratmaq niyyətini gizlətmirdi. Özlərinin müstəqil qurumlarına malik olmaq perspektivi isə Qarabağ məliklərini şirnikləndirir və onların separatçı meyllərini gücləndirirdi. Əslində isə burada hər hansı müstəqil qurumun yaradılması real deyildi. Ona görə də Rusiya məliklərə yalnız vədlər verməklə kifayətlənir və onların separatçı hərəkətlərindən Qarabağ xanlığının mövqelərinin

zəifləndilməsi, müqavimətinin sındırılması və sonda nəzarətə götürülməsi, zəbt edilməsi üçün istifadə edirdi. Həmin dövrdə erməni kilsəsi xeyli fəallaşaraq Avropa və Rusiya saraylarına nümayəndələrini göndərir, ayrı-ayrı dövlət başçılarının diqqətini "erməni məsələsi"nə yönəltməyə, Türkiyə ərazilərində, yaxud Cənubi Qafqazda hər hansı erməni qurumunun yaradılması üçün onların dəstəklərini qazanmağa çalışırdı. Rusiya ermənilərin müraciətlərinə daha çox maraq göstərərək, "erməni məsələsi"ni özünün Şərq siyasətində əsas alətlərdən birinə çevirdi. Rusiya II Ekaterinanın vaxtında Cənubi Qafqazda erməni qurumu yaratmaq üçün ilk dəfə ciddi cəhd göstərdi. Qarabağda qriqorianlaşmış alban məliklərinin daha çox fəallıq göstərməsi diqqəti bu əraziyə çəkirdi. II Ekaterina alban məliklərini erməni toplumuna aid edir və bu məliklərin əli ilə Qarabağda erməni vilayəti yaratmaqla digər yerlərdən erməniləri buraya cəlb etməyə çalışırdı. Qarabağda ermənilərin və qriqorianlaşmış albanların sayı həddindən artıq az olduğuna görə buraya kənardan ermənilərin axınını təşkil etmədən hər hansı erməni qurumunun yaradılması mümkün deyildi. II Ekaterinanın sevimlisi və Qafqaz siyasətinin ideoloqu Q.A.Potyomkin Rusiyanın Cənubi Qafqazdakı qoşun başçılarına göndərdiyi 6 aprel 1783-cü il tarixli təlimatda rus hökümətinin antiazərbaycan siyasətini açıq şəkildə nümayiş etdirirdi: "Şuşalı İbrahim xan mütləq hakimiyyətdən devrilməli, bundan sonra Qarabağ yalnız Rusiyadan asılı olan erməni vilayətinə çevrilməlidir. Bu yeni vilayətin təşkili üçün bütün imkanlardan istifadə etməlisiniz. Bununla Ermənilər digər yerlərdən buraya axışıb gələcəklər". İbrahim xanın ağıllı siyasəti nəticəsində Rusiya məkrli niyyətlərinə nail ola bilmədi. II Ekaterina Cənubi Qafqazı ələ keçirmək, bir sıra niyyətlərini, o cümlədən bəzi vilayətləri erməniləşdirmək istəklərini həyata keçirmək üçün sonuncu dəfə 1796-cı ilin yazında cəhd göstərdi. General V.Zubovun başçılığı altında Cənubi Qafqaza yeni yürüş təşkil edildi. Bu yürüş zamanı V.Zubovun yaxın müşavirlərindən biri erməni keşişi İosif idi. II Ekaterinanın qəfil ölməsi ilə yürüş dayandırıldı.

Rusiya öz işini asanlaşdırmaq məqsədi ilə Qarabağın dağlıq hissəsindəki xristianlaşmış (qriqorianlaşmış) albanlara da "erməni məsələsi"nin tərkib hissəsi kimi baxırdı. Qarabağ məlikləri uzun müddət bu prosesə, onların erməni kimi qəbul olunmasına müqavimət göstərirdilər. Təsadüfi deyil ki, Xaçın knyazı Həsən Cəlal Gəncəsar məbədinin üstündə "Mən, Həsən Cəlal bu kilsəni öz Aqvank xalqım üçün tikdim" sözlərini yazdırmışdı, digər bütün mənbələrdə, sənədlərdə də onlar özlərini alban, aqvan kimi təqdim edirdilər. Lakin sonda, xüsusilə də Rusiya hökumətinin İran və Türkiyədən erməniləri kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürməsindən sonra bu ideoloji xəttin qarşısında təslim oldular və "erməni" adını öz üzərlərinə götürməyə qismən razılaşdılar. Rusiya Azərbaycanda öz mövqelərini möhkəmləndirdikcə Qarabağa daha çox

erməni köçürməyə çalışırdı. Azərbaycana qarşı işğalçılıq müharibəsində rus ordusunun erməni əsilli zabitlərindən geniş şəkildə istifadə olunurdu. Rus ordusunun təkibində hərbi əməliyyatlarda iştirak edən erməni zabitləri Qarabağda ermənilərin mövqelərini gücləndirmək üçün bütün vasitələrdən istifadə edirdilər. İran-Rusiya müharibələri (1804-1813, 1826-1828-ci illər) və Türkiyə-Rusiya müharibələri (1806-1812, 1828-1829-cu illər) ermənilərin Qarabağa köçürülməsində həlledici rol oynadılar. Həmin müharibələrin gedişində Türkiyə və İranda yaşayan ermənilər öz dövlətlərinə xəyanət edərək, rus qoşunlarının tərəfinə keçdilər. Onlar arxa cəbhədə dəstələr yaradaraq, rus hərbi komandanlığının tapşırıqlarını yerinə yetirir, İran və türk ordularına arxadan zərbələr vurur, qiyamlar təşkil edir, müdafiəsiz qalmış dinc əhaliyə divan tuturdular. Bu erməni dəstələrini rus ordusu silahlandırırdı. Ermənilərin rəhbərləri bu hərəkətləri ilə Rusiyanın rəğbətini qazanacaqlarına və onun köməyi ilə Türkiyə, yaxud İranın ərazisində özlərinin hər hansı muxtar, ya da müstəqil dövlət qurumlarını yaradacaqlarına ümid edirdilər. Lakin onların niyyətləri özünü doğrultmadı. Onlar Türkiyə və İranda etdikləri xəyanətlərə görə cəzalanacaqlarından ehtiyat edərək müharibələr qurtardıqdan sonra Rusiya imperiyasının ərazilərinə köçmək istəklərini bəyan etdilər. Bu, Rusiyanın da maraqlarına uyğun idi. Rusiya yenicə zəbt etdiyi Cənubi Qafqaza, o cümlədən Azərbaycana erməniləri köçürüb yerləşdirməklə özünə ciddi dayaq yaratmaq məqsədini güdürdü. Rusiyanın İranla bağladığı 1828-ci il Türkmənçay müqaviləsi və Türkiyə ilə imzaladığı 1829-cu il Ədirnə müqaviləsi İran və Türkiyədən ermənilərin Azərbaycana köçürülməsini hüquqi cəhətdən rəsmiləşdirdi. Ermənilərin kütləvi surətdə Azərbaycana, o cümlədən Qarabağa köçürülməsinə başlanıldı. Qarabağın yerli əhalisi ermənilərin, ən yaxşı yerlərdə yerləşdirilməsinə, ümumiyyətlə, erməni köçünə qarşı müqavimət göstərməyə çalışır, lakin ciddi nəticələrə nail ola bilmirdilər. Rus qoşunları hər hansı müqaviməti amansızlıqla yatırırdı. Qarabağın yerli əhalisinin nümayəndələri Rusiyanın İrandakı səfiri A.S.Qriboyedova dəfələrlə müraciət edərək erməni köçlərinin qarşısının alınmasını tələb edirdilər. Erməni köçlərinə rəhbərlik edən rus səfiri hər dəfə onları arxayınlaşdırırdı ki, bu köçlər müvəqqətidir və ermənilər burada dayanmayıb Rusiyanın içərilərinə köçürüləcəklər. Digər tərəfdən isə, A.S.Qriboyedov erməniləri yaxşı tanıdığına görə Rusiya imperatoruna yazırdı ki, "Əlahəzrət, olmaya mərkəzi rus torpaqlarında ermənilərin məskunlaşmasına icazə verəsiniz. Onlar elə tayfadırlar ki, bir neçə il yaşadıqdan sonra dünyaya car çəkəcəklər ki, bura bizim qədim əcdadlarımızın torpaqlarıdır". Rusiya hökuməti ermənilərin xislətini yaxşı bilir, onların bu xislətindən Azərbaycan türklərinə və qonşu gürcülərə qarşı uzun müddətli planlarında məharətlə istifadə edirdi.

Rusiya hökuməti XIX əsrin əvvəllərində İran və Türkiyədən ermənilərin Qarabağa ilkin köçlərini təşkil edirdi. Bunun nəticəsi olaraq rusların tərtib etdikləri

ilk statistik məlumatlara qriqorianlaşmış albanlarla yanaşı artıq ermənilər də daxil edilirdi. Rus hərbi komandanlığının 1823-cü ildə tərtib etdiyi statistik topluda bu hal özünü ilk dəfə göstərdi. Bu sənədə görə həmin dövrdə indiki Dağlıq Qarabağ ərazisində yaşayan 18563 ailədən yalnız 1559-u erməni və qriqorianlaşmış alban idi. Rəqəmlər bir daha təsdiq edir ki, ermənilərin "böyük köçü" ərəfəsində bu ərazilərdə əhalinin böyük əksəriyyətini Azərbaycan türkləri təşkil edirdi. Bu statistik məlumatların qeydə alındığı vaxtdan az sonra Rusiya hökuməti erməniləri Azərbaycana, o cümlədən Qarabağa kütləvi şəkildə köçürməyə başladı. Rəsmi məlumatlara görə, 1828-1830-cu illərdə, yəni cəmi 2 il ərzində, Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Türkiyədən 84 min erməni köçürülmüşdür. Bu, yalnız rəsmi məlumatlardır. O dövrün müxtəlif mənbələrində ermənilərin qeyri-rəsmi qaydada, gizli şəkildə köçmələri haqda da kifayət qədər məlumatlar vardır. Mütəxəssislərin hesablamalarına görə, həmin 2 il ərzində 200 mindən artıq erməni Azərbaycan ərazilərinə keçmişdir. Qarabağa ermənilər əsasən İrandan köçüb gəlirdilər. Bu, sərhədin bilavasitə yaxınlığı və o qədər də ciddi qorunmaması ilə bağlı idi. Digər tərəfdən sərhəd də olan rus hərbçiləri qeyri-rəsmi qaydada köçüb gələn ermənilərə ciddi maneə törətmirdilər. Ermənilər çox vaxt bütöv kəndlərlə gəlir və yeni məskunlaşdıqları yerlərə İrandakı kəndlərinin adlarını verirdilər. Sonradan "səhv" lərini düzəltməyə çalışsalar da, yenə bir sıra kəndlərinin adları onların İrandan köçdüklərinə şahidlik edir.

Ermənilərin Qarabağa köçürülməsi qədimdən burada yaşayan xristian albanların erməniləşdirilməsini sürətləndirdi və dönməz prosesə çevirdi. O vaxta qədər müstəqil fəaliyyət göstərən alban kilsəsi də 1836-cı ildə Rusiya hökumətinin qərarı ilə erməni kilsəsinə tabe etdirildi. Rusiya bir sıra məntəqələrdə, o cümlədən Qarabağın dağlıq hissəsində erməni-xristian mövqelərini gücləndirmək üçün bütün XIX əsr ərzində köçürmə siyasətini davam etdirmişdir. XIX əsrin sonunda Cənubi Qafqazda ermənilərin sayı artıq 1 milyon 300 min nəfərə çatmışdı. Rusiyanın rəsmi mənbələrinin etiraf etdiyinə görə, onlardan 1 milyon nəfər "erməni köçü" nəticəsində gələnlər idi. Bu cür kütləvi axına baxmayaraq, Rusiya yenə də Qarabağ əyalətində ermənilərin çoxluğuna nail ola bilməmişdir. Ermənilər hələ də azlıqda qalırdılar.

XIX əsrin ikinci yarısında dünyada ciddi hadisələr baş verir, dövlətlər bir-birinə qarşı ərazi iddiaları qaldırır, dövlətlərarası ittifaqlar yaranırdı. Bu şəraitdə dövlətlər müxtəlif məsələləri ortaya ataraq, öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. "Erməni məsələsi" deyilən amil də ortaya bu dövrdə Rusiya və İngiltərə tərəfindən atılmışdır. Erməni kilsəsinin təşkilatçılığı ilə müxtəlif erməni heyətləri Avropa dövlətlərinə səfərlər edir, müxtəlif səviyyələrdə görüşlər keçirir, Türkiyə ərazisində hər hansı statusda qurumlarının yaradılması üçün dəstək qazanmağa çalışırdılar Maraqlısı odur ki, onlar Türkiyənin heç bir vilayətində

əksəriyyət təşkil etmədikləri halda belə bir istəyə düşmüşdülər. İlk olaraq Rusiya və İngiltərə "erməni məsələsi"ndən istifadə etməyə başladılar və faktiki olaraq "erməni məsələsi"nin müəllifləri də onlar oldular. Böyük dövlətlərin Berlin konqresində (1878-ci il), İngiltərə və Rusiyanın təşəbbüsü ilə "erməni məsələsi" gündəmə gətirildi və Türkiyənin üzərinə ermənilər yaşayan ərazilərdə islahatların keçirilməsi, onların kürdlər və çərkəzlərin hücumlarından müdafiə olunması ilə bağlı öhdəliklər qoyuldu. Ermənilərin öz məsələlərini hansı həyasızlıqla gündəmə gətirdikləri haqda təsəvvür yaranması üçün iki epizodu diqqətə çatdırmalıyıq. Berlin konqresinin gedişində erməni heyəti dəfələrlə ən müxtəlif, şərəfsiz vasitələrdən istifadə etdikdən sonra konqresə sədrlik edən Almaniya kansleri Otto Bismarkın qəbuluna düşürlər. Bismark onların təkidli cəhdlərindən yorularaq qəbul etməyə razılıq verir. O, qəbul zamanı onların çox danışmasına imkan vermir və sonda onların hərbi köməklə bağlı xahişlərini rədd edərək bildirir: "Pomeranlı tək bir əsgərin sümüyünü bütün ermənilərə dəyişmərəm". İkinci epizod ermənilərin Bismarkdan sərt cavab aldıqdan sonra Almaniya imperatoru və yaxud onun xanımı ilə görüşmək cəhdi ilə bağlıdır. Nümayəndələrdən biri Minas Çeraz bu cəhdi belə təsvir edir: "Olduqca ciddi təlaş içində imperatriçaya müraciət etmək istəyirdik... Qapının ağzında bizi rəsmi geyimli yekəpər bir kişi qarşıladı. Dedik ki, imperatriçanı görmək istəyirik. O zorba kişi bunu eşidən kimi bizi söyməyə başladı. Yaxınlaşıb Mkrtıç Xrimyana bir şillə çəkdi... Ümüdlərimiz üzülmüş halda qayıdıb Konstantinopola gəldik". Ermənilər bu cür həyasızlıqla istədiklərinə nail olmağa çalışırdılar.

Berlin konqresindən sonra İngiltərə və Rusiyanın rəsmi dairələri "erməni məsələsi"ndən geniş şəkildə yararlanmağa, Türkiyənin zəiflədilməsi üçün bir alət kimi istifadə etməyə başladılar. Onların planlarına uyğun olaraq ermənilər Türkiyənin içərisində təşkilatlar qurur, üsyanlar təşkil edirdilər. "Hnçak" və "Daşnaksütyun" erməni terrorçu təşkilatlarının yaradılması və ilk qanlı olaylar törətmələri bu dövrə təsadüf edir. Onlar İngiltərə, Rusiya hökümətləri tərəfindən silahlandırılır və Türkiyənin müxtəlif vilayətlərində üsyanlar təşkil edir, yerli dinc əhaliyə divan tuturdular. XIX əsrin sonlarında Fransa da erməniləri fəal müdafiə kompaniyasına qoşuldu. Böyük dövlətlər "erməni məsələsi"ndən kifayət qədər yararlandılar, ermənilər isə heç nəyə nail ola bilmədilər. Türkiyə hökuməti milli maraqlarını müdafiə edərək erməni niyyətlərinin həyata keçirilməsinə imkan vermədi, bütün üsyanlar yatırıldı, günahkarlar cəzalandırıldı. Türkiyə hökumətinin ciddi müqaviməti ilə rastlaşan erməni kilsəsi və terrorçu təşkilatları nəzərlərini Cənubi Qafqaza, Azərbaycana, o cümlədən Qarabağa yönəltdilər. Bir az əvvəl buralara köçürülmüş erməni əhalisi artıq ərazi iddiaları üçün zəmin ola bilərdi. Bu vaxta qədər yerli əhali ilə dinc şəraitdə yaşayan, "qonaq statusu"na riayət edən,

gəlmə olduqlarını bildiklərinə görə dillərini qısa edən ermənilər birdən-birə sərt və barışmaz sifətlərini göstərərək, iddialı tərəfə çevrildilər.

### *Ermənilərin ilk ərazi iddiaları*

Rusiya hökuməti Azərbaycan türklərinin tarixi torpaqlarında, ayrı-ayrı yaşayış məntəqələrində, o cümlədən Bakıda, İrəvanda, Zəngəzurda, Qarabağda ermənilərin sayını artırmağa, onların hakim mövqeyini təmin etməyə çalışırdı. Bu siyasət onsuz da müstəmləkə əsarətində olan azərbaycanlıların gələcəkdə hər hansı müstəqillik meyllərinin qarşısının alınması və yerli əhalinin sıxışdırılıb çıxarılaraq yerində erməni-xristian bölgəsinin yaradılmasına yönəlmişdi. Ona görə də ermənilərin təşkilatlanması və silahlanmasına hərtərəfli yardım göstərilir, onların Azərbaycan türklərinə qarşı təcavüzkar hərəkətlərinə dəstək verilirdi. XX əsrin əvvəllərində ermənilər ilk dəfə Azərbaycanın tarixi torpaqlarından yerli əhalini sıxışdırıb çıxartmağa başladılar. Bu məqsədlə ermənilərin Azərbaycanda fəaliyyət göstərən terror təşkilatları 1905-ci ildə Bakıda, İrəvanda, Zəngəzurda, Qarabağda və digər yerlərdə kütləvi qırğınlar törətdilər. 1905-ci ilin fevralında Bakıda başlayan qırğınlar 1906-cı ilə qədər davam etdi. Bu qırğınlar nəticəsində 50 mindən artıq azərbaycanlı qətlə yetirildi, yüzlərlə yaşayış məntəqəsi dağıldı. Təkcə Qarabağ və Zəngəzurda 200-dən artıq kənd yandırılıb məhv edilmişdi. Bu kəndlərin yarıdan çoxu sonralar da dağıdılmış vəziyyətdə qaldı, az bir hissəsinə azərbaycanlılar qayıda bildilər, qalanlarında isə ermənilər məskunlaşdılar. Bu, azərbaycanlıları yaşayış məntəqələrinin davamlı şəkildə ələ keçirilməsi xətti idi. Ermənilər Şuşa şəhəri ilə bağlı xüsusi planlar qurur, azərbaycanlıları oradan tamamilə çıxarmaq istəyirdilər. Erməni silahlı dəstələri 1905-ci ilin avqustunda Şuşada azərbaycanlıların yaşadıqları məhəllələrə hücuma keçdilər. Elə bir ciddi silahı olmayan azərbaycanlılar ermənilərin hücumlarını çətinliklə dəf edə bildilər. Bu hücum zamanı 100-ə qədər azərbaycanlı öldürüldü, 20-dək ev yandırıldı. Ermənilərin Şuşaya ikinci hücumu 1906-cı ilin yayında baş verdi. Beş gün davam edən döyüşlərdə ermənilər şəhəri ələ keçirə bilmədilər, lakin Şuşa böyük dağıntılara məruz qaldı. 1905-1906-cı il qırğınları zamanı Ermənilər qismən öz məqsədlərinə nail oldular. Belə ki, 100-ə qədər yaşayış məntəqəsini ələ keçirərək məskunlaşdılar, bəzi yaşayış məntəqələrində, o cümlədən, İrəvan va Bakıda azərbaycanlıların sayının azalmasına nail oldular. Bu azalma əhalinin bir hissəsinin qətlə yetirilməsi, bəzilərinin isə yeni qırğınlar təhlükəsi qarşısında köçüb getmələri ilə əldə olunmuşdu. Ermənilərin məkrli niyyətlərinin daha geniş miqyasda reallaşmasına Əhməd bəy Ağaoğlunun başçılığı altında "Difai" (Müdafiə) təşkilatının yaradılması mane oldu. 1905-ci ilin sonu 1906-cı ilin əvvəlində az vaxt ərzində formalaşan "Difai" təşkilatı erməni silahlı dəstələrinin

qarşısını ala, müqaviməti təşkil edə bildi. Ermənilər müvəqqəti geri çəkilərək təşkilatlarını gücləndirməyə, daha radikal təşkilatlar yaratmağa, dəstələrini daha geniş miqyasda silahlandırmağa, yeni hücumlara hazırlaşmağa başladılar. Azərbaycanlılar isə erməni hücumlarının bir daha təkrar olunacağına inanmayaraq arxayınlaşdılar, tələsik yaranmış silahlı dəstələri ləğv etdilər, "Difai" təşkilatını buraxdılar və ermənilərlə əvvəlki xoş münasibətləri bərpa etdilər.

"Balkan böhranı"nın yaranması, Birinci Dünya müharibəsinin başlanması ilə erməni terror təşkilatları yenidən nəzərlərini Türkiyə ərazilərinə yönəltdilər. Onlar Türkiyədə pozuculuq fəaliyyətinə, silahlı qiyamlara, dinc əhaliyə qarşı qırğınlara başladılar. Ermənilər Türkiyənin içərilərində yeni hərəkata başlayarkən həm öz planlarını həyata keçirməyə, burada özlərinin "dövlət qurumu"nu yaratmağa çalışır, həm də Rusiya, İngiltərə, az sonra isə ABŞ-ın maraqlarına xidmət göstərirdilər. Erməni silahlı dəstələrinin "fəaliyyəti" nəticəsində 200 mindən artıq dinc əhali qətlə yetirildi, ölkənin bir sıra əyalətlərində gərgin qarşıdurma və vətəndaş itaətsizliyi vəziyyəti yarandı, mərkəzdən qaçma meylləri gücləndi. Türkiyə hökuməti vəziyyətdən çıxış yolu olaraq, 1915-ci ilin aprelində erməni silahlı dəstələri və terror təşkilatlarının, qızışdırıcı fəaliyyətlə məşğul olan bəzi din xadimlərinin həbsi ilə, az sonra isə erməni əhalisinin ölkənin digər ərazilərinə köçürülməsi ilə bağlı qərarlar verməli oldu. Bu qətiyyətli addımlarla Ermənilərin pozucu və xəyanətkar hərəkətlərinə son qoyuldu. Türkiyə hökumətinin qəti mövqeyi ilə üzləşən erməni terror təşkilatları öz niyyətlərinə nail ola bilmədilər. Onların qazandıqları saxta "erməni soyqırım"ı deyilən məsələ oldu. Bu məsələdən də bu günə qədər yararlanmağa çalışır, lakin ciddi nəticələrə nail ola bilmirlər. Ermənilərin saxta "soyqırım"ı dünyada tanıtdırmaq cəhdləri artıq bayağı təbliğat kompaniyasına çevrilmişdir və heç bir dövlət tərəfindən ciddi qarşılanmır. Son 40 il ərzində bu məsələ vaxtaşırı ayrı-ayrı dövlətlər tərəfindən gündəmə gətirilir, ötəri maraqlar üçün istifadə olunur, sonra da yenidən unudulur. Xəstə erməni düşüncəsi hələ də bu həqiqəti dərk edib başa düşə bilmir. Öz həyatında baş vermiş hər hansı kədərli hadisəni dünyanın ümumi istifadəsinə vermiş ikinci bir xalqı tarix tanımır.

Birinci dünya müharibəsinin sonlarına doğru erməni terror təşkilatları Cənubi Qafqazda və ilk növbədə Azərbaycanda yenidən fəallaşdılar. Rusiya imperiyasının dərin siyasi və iqtisadi böhran içərisində olması, hər yerdə, xüsusi ilə də ucqarlarda hərc-mərcliyin hökm sürməsi ermənilərin əl-qol açmasına, qanlı olaylar törətməsinə şərait yaradırdı. Rusiyada hakimiyyət uğrunda mübarizə aparan siyasi qüvvələrin hamısı xristian amilini əsas götürərək ermənilərə siyasi və hərbi dəstək verirdilər. Yaxşı silahlanmış erməni terror təşkilatları bir sıra ərazilərdə, xüsusilə də Bakı, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvanda türk-müsəlman əhalisini sıxışdırıb çıxartmağa, həmin əraziləri nəzarətə götürməyə

çalışırdılar. Məqsəd bu əraziləri dünya birliyinə guya erməni yaşayış məntəqələri kimi təqdim etmək idi. Onlar böyük dövlətlərin köməyi ilə həmin yerlərdə "erməni dövləti" yaratmaq ümidində idilər. Rusiya bolşevikləri Bakı erməni daşnaklarına arxalanırdılar. 1917-ci ilin noyabr-dekabr aylarında burada bolşevik-daşnak ittifaqı yarandı. Bu ittifaq V.Lenin tərəfindən Qafqaza fövqəladə komissar kimi göndərilmiş S.Şaumyan rəhbərlik edirdi. Erməni silahlı dəstələri 1918-ci ilin əvvəlində türk-müsəlman əhalisinə qarşı kütləvi qırğınlara başladılar. Demək olar ki, heç bir silahı, mütəşəkkil qüvvəsi olmayan dinc əhali onlara ciddi müqavimət göstərə bilmirdi. Ermənilər bütün yerlərdə eyni taktikadan istifadə edirdilər. Türkiyədəki Amerika silahlı qüvvələrinin rəhbəri admiral Mark Bristol sonralar yazırdı: "Mən general Dro (erməni terror dəstələrindən birinin rəhbəri-müəllif) ilə birlikdə xidmət etmiş öz zabitlərinin məlumatlarına əsasən bilirəm ki, müdafiəsiz kəndlər əvvəlcə bombalanır, sonra zəbt edilir, qaçıb gedə bilməyən sakinlər vəhşiliklə öldürülür, kənd talan edilir, bütün mal-qara aparılır və sonra isə kənd yandırılırdı. Müsəlmanlardan yaxa qurtarmaq üçün bütün bunlar sistematik şəkildə həyata keçirilirdi". Vahid mərkəzdən idarə olunan erməni silahlı dəstələri hər yerdə eyni ssenarini həyata keçirir, eyni vəhşilikləri törədirdilər. 1917-ci ilin dekabrında Qafqazda döyüşən rus ordusu buraxıldı. Ermənilər dərhal bu vəziyyətdən istifadə edərək rus ordusunda qulluq edən həmsoylarından ibarət 3 piyada diviziyası, bir süvari briqadası, habelə ərazi alayları yaratdılar. Azərbaycan türkləri Rusiya hakimiyyəti tərəfindən etibar edilib orduya çağırılımadıqlarına görə yaranmış şəraitdən istifadə edib öz silahlı qüvvələrini yarada bilmədilər. Nəticədə Azərbaycanın dinc əhalisi yalnız terror təşkilatları ilə deyil, həm də nizami erməni ordusu ilə üz-üzə qaldı.

Erməni silahlı dəstələri o vaxta qədərki ən böyük qırğınları 1918-ci ilin mart ayında törətdilər. 1918-ci il martın 18-də 20 minlik erməni-bolşevik silahlı qüvvələri Şamaxıya daxil oldular və dinc əhaliyə divan tutdular. Həmin ayın axırına qədər davam edən qırğın nəticəsində 12 min Azərbaycanlı qətlə yetirildi. Bakıda martın 30-dan aprelin 2-nə qədər erməni silahlıları tərəfindən aparılan soyqırım nəticəsində 18 min dinc əhali məhv edildi. Eyni vaxtda Quba qəzasına daxil olan quldurlar 3 minə yaxın qubalını öldürdülər. Bir neçə gün ərzində erməni bolşevik terror dəstələri Bakıda, Şamaxıda, Qubada, İrəvanda, Zəngəzurda, Naxçıvanda, Qarabağda və digər yerlərdə 50 min nəfərdən artıq dinc əhalini qətlə yetirdilər. Ermənilərin törətdikləri kütləvi qırğınlar bununla kifayətlənmirdi. 1919-cu ilin avqust ayında Ermənistan hökuməti Qərb dövlətlərinin təzyiqləri qarşısında bəzi cinayətləri etiraf etməli oldu. Ermənistan hökuməti rəsmi bəyanatla Andronik, Manukyan, Saakyan, Kaçaznuninin fəaliyyəti nəticəsində 1918-ci il ərzində Qafqazda 400 min nəfər azərbaycanlının, 120 min gürcünün, 15 min kürdün və 22

min ləzginin öldürülməsi faktını təsdiq edərək, müqəssirlərin cəzalandırılacağına dair öz üzərinə öhdəlik götürdü.

1918-ci ilin may ayında Cənubi Qafqazda Azərbaycan türkləri və gürcülərlə yanaşı ermənilər də öz müstəqilliklərini elan etdilər. Şərqdə ilk demokratik respublika yaratmış Azərbaycan xalqı müstəqil dövlətçiliyini möhkəmlətməklə yanaşı ermənilərin sonsuz ərazi iddialarını da dəf etməli oldu. Ermənilər öz müstəqilliklərini Tiflisdə elan etmişdilər, lakin müstəqil dövlət qurmaq üçün nə əraziləri, nə də siyasi mərkəzləri var idi. Nəyin bahasına olursa olsun Cənubi Qafqazda erməni dövləti yaratmaq istəyən Antanta dövlətləri-İngiltərə, ABŞ, Fransa və digərlərinin təkidli xahişləri və təzyiqləri qarşısında Azərbaycan Xalq Cümhuriyyəti güzəştə getməli oldu. Azərbaycan Milli Şurasının (parlamentinin) 29 may 1918-ci il tarixli qərarı ilə İrəvan şəhəri ətraf əraziləri ilə birlikdə öz dövlətlərini yaratmaq üçün ermənilərə verildi. Həmin qərarda bu xoşməramlı addımın müqabilində ermənilərin əsassız ərazi iddialarından imtina etməsi ilə bağlı şərt qoyulmuşdu. Erməni hökuməti də bu şərtlə razılaşmışdı. Az sonra Türkiyə hökuməti də həmin ərazilərdə erməni dövlətinin yaradılmasına öz razılığını verdi. Qədim Azərbaycan torpaqlarında erməni dövləti belə meydana gəldi. Həmin vaxt onun ərazisi 9 min kv.km., əhalisi isə 324 min nəfər idi. Ermənistan hökuməti Azərbaycan Xalq Cümhuriyyətinin xoşməramlı addımına ermənisayağı minnətdarlıqla cavab verdi. Onlar bir neçə il ərzində qonşu Azərbaycan torpaqları hesabına ərazilərini 30 min kv.km-ə çatdırdılar. 1918-1920-ci illərdə indi Ermənistan adlandırılan ərazilərdən 565 min nəfər Azərbaycan türkü zorla deportasiya edildi. 1922-ci il məlumatlarına görə, həmin ərazilərdə yalnız 10 min nəfər azərbaycanlı qalmışdı. Deportasiya edilmiş azərbaycanlıların bir hissəsi sonradan geri qayıda bildilər. Daşnakların hakimiyyətdə olduğu 2 il yarımlıq dövr ərzində 489 min nəfər azərbaycanlı qətlə yetirildi, 157 kənd tamamilə, 67 kənd qismən azərbaycanlılardan "təmizləndi". Beləliklə, 1828-ci ildən başlayan proses 1920-ci ildə indi Ermənistan deyilən ərazilərdə 738 türk-müsəlman kəndindən yerli qədim əhalinin qovulması və həmin yaşayış məntəqələrinin tam erməniləşdirilməsi ilə yekunlaşdı. 1918-1920-ci illərdə Ermənistan hökuməti ələ keçirdiyi Azərbaycan torpaqları ilə kifayətlənmir, digər ərazilərə, o cümlədən Qarabağ, Naxçıvan, Zəngəzura iddialar irəli sürür, qoşun yeridirdi. 1918-ci ilin ortalarında erməni silahlı dəstələri Andronik, Dro, Njdenin başçılığı altında Qarabağ, Zəngəzur, Naxçıvana soxularaq kütləvi qırğınlar törətdilər. 1918-ci ilin martında 10 minlik erməni ordusu Naxçıvanın Düşün, Vənənd, Xanağa, Ağrı və digər kəndlərinin üzərinə hücuma keçdilər. Az sonra onlar Ordubad üzərinə yeridilər. Düşmən müqavimətlə rastlaşaraq geri çəkilməli oldu. Həmin vaxt onların Zəngəzura hücumları da uğursuzluqla nəticələndi. Andronikin quldur dəstələri 1918-ci ilin may-avqust aylarında irəliləyə bildilər.

Onlar Sisyan bölgəsini ələ keçirdilər və Şuşaya yaxınlaşdılar. Zəngəzurun qəza rəisi 1918-ci ilin sentyabrında Azərbaycan hökumətinə göndərdiyi hesabatda bildirirdi ki, Andronikin quldur dəstələri tez-tez kəndlərə hücum edir, dinc əhalini qətlə yetirirlər. Azərbaycanlıların erməni quldurlarına qarşı mübarizəsinə yardım etmək məqsədi ilə Türkiyə hökuməti 1918-ci ilin payızında Qarabağa, o cümlədən Şuşaya 400, Xankəndinə 2 min nəfərlik hərbi qüvvə göndərdi. Həmin dövrdə Qarabağda böyük dövlətlərin də maraqları kəsişirdi. 1918-ci ilin dekabrında iki zirehli maşın və bir neçə bölükdən ibarət ingilis hərbi qüvvələri Şuşaya gəldi. Şuşada eyni zamanda ingilis hərbi missiyası yerləşdirilmişdi. Bir qədər sonra Şuşada "Yaxın Şərqə Amerika Köməyi Komitəsi"nin də şöbəsi yaradıldı. Bu şöbə regionda Amerika təsirini gücləndirməyə çalışırdı. Erməni quldur dəstələrinin aramsız hücumları ilə yanaşı böyük dövlətlərin də Qarabağda hadisələrin gedişinə müdaxilə etmələri Azərbaycan hökumətinin işini daha da çətinləşdirdi. Bu şəraitdə Azərbaycan hökuməti düzgün qərar qəbul edərək ayrıca ərazi-inzibati vahid-Qarabağ general qubernatorluğu yaratdı. Bu qərar 1919-cu il yanvarın 29-da verildi və mərkəzi Şuşa şəhəri olmaqla general-qubernatorluğa Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları daxil edildi. Xosrov bəy Sultanov general-qubernator təyin edildi. Xosrov bəy Sultanovun səyləri nəticəsində ermənilərin aramsız hücumlarının, terror aktlarının qarşısı alındı. Xosrov bəyin təşkil etdiyi müdafiə dəstələri erməniləri bir neçə istiqamətdə məğlubiyyətə uğratdılar və ermənilər Zəngəzura doğru geri çəkilməli oldular. Ermənistanın nizami ordusu və yerli ermənilərdən təşkil olunmuş dəstələr 1919-cu il ərzində Azərbaycanın hərbi hissələrinin ciddi müqaviməti ilə rastlaşaraq heç bir nəticəyə nail ola bilmədilər. Azərbaycan ordusunun əsas hərbi qüvvələri Xankəndi, Şuşa, Xocalı, Əsgəran, Cəbrayıl, Ağdam və bir sıra digər yerlərdə yerləşdirilmişdi. Ermənilər vaxtaşırı hərbi hissələrin olmadığı yaşayış məntəqələrinə quldur basqınları edir, dinc əhalini qətlə yetirir, var-dövlətlərini talan edirdilər.

Azərbaycan hökumətinin daxildə və xaricdə apardığı uğurlu siyasət, həm hərbi, həm də diplomatiya sahələrində əldə etdiyi nəticələr ermənilərin məkrli niyyətlərini həyata keçirməsinə imkan vermədi. Azərbaycan ərazi bütövlüyünü qorumağa qadir olduğunu nümayiş etdirdi. Dünya birliyi isə öz müstəqilliyini qorumağa qadir olan dövlətin iradəsi ilə hesablaşmalı oldu. 1920-ci il yanvarın 11-də dünyanın yeni xəritəsinin müəyyən edildiyi Paris sülh konfransında Azərbaycanın ərazi bütövlüyü, süveren hüquqları, müstəqilliyi tanındı. Ermənistanın əsassız iddialarının qurbanına çevrilmiş Qarabağ, Naxçıvan, Zəngəzur dünya birliyi tərəfindən Azərbaycanın ayrılmaz əraziləri kimi tanındılar. Azərbaycanın qərb sərhədləri 2300 il əvvəl olduğu kimi yenə də indi Ermənistan deyilən ərazilərin mərkəzində yerləşən Göyçə gölünün üzərindən keçirdi.

1920-ci ilin əvvəlində ermənilər yenidən fəallaşdılar. Bu, birinci növbədə Sovet Rusiyasının regiona doğru irimiqyaslı yürüşlərinin bərpa edilməsi ilə bağlı idi. Rusiya Azərbaycanı, xüsusilə də Bakı neft rayonunu az vaxt ərzində ələ keçirmək niyyətlərini gizlətmirdi. Azərbaycan ciddi təhlükə qarşısında idi. Ermənistan höküməti Rusiyanın yalnız Azərbaycan və Bakı nefti ilə kifayətlənəcəyinə ümid edərək yaranmış gərgin vəziyyətdən yararlanmaq qərarına gəldi və növbəti dəfə region xalqlarına qarşı xəyanət etdi. Rusiya və Ermənistan Azərbaycana qarşı eyni vaxta müharibəyə başlama haqda razılığa gəldilər. Bu razılaşmaya əsasən Ermənistan silahlı qüvvələri 1920-ci il martın 22-də Zəngəzur, Naxçıvan və Qarabağ istiqamətində işğalçı yürüşə başladılar. Eyni zamanda yerli ermənilər Şuşada silahlı qiyam təşkil etdilər. Qiyam tədricən digər ərazilərə də yayıldı. Qarabağ general-qubernatorluğunun hərbi qüvvələri Şuşada və digər yerlərdə qiyamı yatırdılar. Yalnız Əsgəran qalasını Ermənilər ələ keçirə bildilər. Ermənistanın silahlı qüvvələrinin bölgəyə daxil olması ilə vəziyyət təhlükəli həddə çatırdı. Azərbaycan hököməti erməni işğalını dəf etmək üçün 40 minlik silahlı qüvvələrinin 85-90%-ni Qarabağa göndərmək məcburiyyətində qaldı. Qarabağda bir ay ərzində davam edən qanlı döyüşlərdən sonra erməni işğalçıları tam məğlub edildi və Azərbaycanın sərhədlərindən kənara qovuldular. Lakin ermənilərin bu yürüşləri həm də Rusiyanın sifarişi ilə həyata keçirilmişdi. Rusiya qoşunları Azərbaycan Ordusunun əsas hissəsinin Qarabağda döyüşlərdə olmasından istifadə edərək 1920-ci il aprelin 27-də şimaldan Azərbaycan sərhədlərini keçdi, sürətlə Bakıya doğru irəlilədi və ertəsi gün Bakı XI Qırmızı Ordu tərəfindən zəbt edildi. Bununla Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğuna son qoyuldu.

## *Erməni iddialarının "Sovet dövrü"*

Cənubi Qafqazın yenidən Rusiyanın nəzarəti altına qayıtması regionda siyasi vəziyyəti dəyişdirdi. Yeni şərait aldadıcı ad altında Rusiya imperiyasının bərpa olunması, müstəqillik atributlarının aradan qaldırılması ilə səciyyələnirdi. Moskva rəhbərliyi Cənubi Qafqaz respublikalarını formal muxtariyyət hüququ ilə imperiyanın tərkibinə daxil edirdi. Bu şəraitdə "müttəfiq respublikalar" üçün daha çox ərazinin faktiki nəzarətdə saxlanılması mühüm əhəmiyyət kəsb edirdi. Rusiya Cənubi Qafqazda xristian Ermənistan və Gürcüstanın daha çox ərazilərə nəzarət etməsində, həmin ərazilərin erməniləşdirilməsi və gürcüləşdirilməsində maraqlı idi. Ona görə də Rusiya regionda möhkəmləndikdən sonra Azərbaycan-Ermənistan və Azərbaycan-Gürcüstan arasındakı "mübahisəli ərazilər" deyilən məsələləri dərhal ikincilərin xeyrinə həll etdi. Beləki əhalisi yalnız Azərbaycan türklərindən

ibarət olan Dərələyəz, Göyçə, Zəngibasar mahalları Ermənistana, Borçalı mahalı isə Gürcüstana verildi.

Ermənistan bununla kifayətlənməyərək yaranmış vəziyyətdən, Rusiyanın uyğun mövqeyindən daha geniş şəkildə yararlanmağa çalışırdı. Ermənistan sovet rəhbərliyi tərəfindən Azərbaycanın Qarabağ, Naxçıvan, Zəngəzur bölgələrinə iddialar irəli sürüdü.

Moskva dərhal bu iddiaları dəstəklədi və Azərbaycanın kommunist rəhbərlərinə təzyiqləri güclənirdi. Azərbaycan rəhbərliyi Moskvanın təzyiqləri qarşısında davam gətirməyərək 1920-ci il noyabrın 30-da və dekabrın 1-də Zəngəzurun Ermənistana verilməsi haqda bəyanatlarla çıxış etdi. Moskva Azərbaycanı güzəştlərə məcbur etmək üçün "proletar beynəlmiləlçiliyi" deyilən gülünc təbliğat vasitələrindən istifadə edirdi. Azərbaycan rəhbərliyində Zəngəzurun Ermənistana verilməsinə qarşı çıxan xeyli qüvvə var idi. Bu məsələ bir neçə dəfə müxtəlif səviyələrdə müzakirə olundu. Lakin bu bölgəni xilas etmək mümkün olmadı. Zəngəzur mahalı iki hissəyə bölünərək, 4505 kv.km ərazisi Ermənistana verildi. Başdan-başa Azərbaycanlıların yaşadığı Naxçıvanla Azərbaycanın digər ərazilərinin arasında yalnız azərbaycanlıların yaşadığı Zəngəzur Ermənistan ərazisi elan olundu. Bu, tarixdə görünməmiş absurd bir qərar idi. Digər tərəfdən isə, ermənilər Zəngəzurdan sonra Naxçıvanı da ələ keçirəcəklərinə ümid edirdilər. Naxçıvanın da taleyi ciddi təhlükə qarşısında idi. Rusiya Naxçıvanın Ermənistana verilməsini təkidlə tələb edirdi. Azərbaycan Zəngəzuru güzəştə getdikdən sonra Naxçıvana erməni iddialarını qəti şəkildə rədd etdi. Ermənistan Zəngəzur məsələsi ətrafında hələ də mübahisələrin davam etdiyini nəzərə alaraq Naxçıvanla bağlı ilkin mərhələdə təkid etmədi və 1920-ci il dekabrın 28-də Naxçıvana heç bir iddiasının olmaması ilə əlaqədar rəsmi bəyanat verdi. Lakin ermənilər az sonra Naxçıvan məsələsini yenidən gündəmə gətirdilər. Yalnız işə Türkiyənin qarışması ilə məsələ ədalətli həllini tapdı. 1921-ci ildə Türkiyə, Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış dördtərəfli Moskva və Qars müqavilələri ilə Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı.

Qarabağın dağlıq hissəsi ilə bağlı daha kəskin mübarizə getdi. Moskva yenə "proletar beynəlmiləlçiliyi" prinsipini işə salaraq "millətlərarası sülh" naminə "daş-kəsəkdən" ibarət kiçik bir ərazinin Ermənistana verilməsinə nail olmağa çalışır, Azərbaycana təzyiqlər edirdi. Sovet imperiyasının "Qafqaz bürosu" deyilən qurumu hətta 1921-ci il iyulun 4-də Dağlıq Qarabağın Ermənistana verilməsi haqda qərar qəbul etdi. Lakin Azərbaycan rəhbərliyinin qəti etirazından sonra səhərisi gün həmin qurum tərəfindən məsələyə yenidən baxıldı, Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması qərara alındı. Digər tərəfdən, ermənilərin iddialarının qismən ödənilməsi məqsədi ilə həmin ərazidə erməni muxtariyyatının yaradılması təklif olundu. Azərbaycan bu təklifi də etirazla

qarşıladı. Qarabağın iki hissəyə bölünməsi, süni şəkildə ermənilərin və yaxud azərbaycanlılarla ermənilərin birgə yaşadıqları məntəqələrin hansısa ərazi vahidi şəklində ayrılması, Azərbaycanın ərazisində yaşayan digər azsaylı xalqlarla müqayisədə ermənilərin bu şəkildə fərqləndirilməsi heç bir məntiqə sığmırdı. Həmin dövrdə Qarabağın dağlıq hissəsində cəmi 128 min nəfər erməni yaşayırdı, onların da böyük əksəriyyəti XIX-XX əsrin əvvəllərində buraya köçürülmüşdü. Dünya praktikasında muxtariyyət adətən yerli və həmin ərazidə qədimdən yaşayan xalqlara və yaxud hər hansı diskriminasiyalara məruz qalan xalqlara, milli azlıqlara şamil edilir. Bu baxımdan muxtariyyat minillərlə yaşadıqları ərazilərlə birlikdə Ermənistanın tərkibinə daxil edilmiş 250 mindən artıq Azərbaycan türkünə verilməli idi. Təəssüf ki, o vaxt bu məsələ heç kəs tərəfindən qaldırılmadı.

Azərbaycan rəhbərliyi Dağlıq Qarabağa qondarma muxtariyyətin verilməsinə qarşı 1923-cü ilə qədər müqavimət göstərdi. Moskva dəfələrlə yerli kommunistlərdən Qarabağ məsələsini sürətləndirməyi tələb edir, hətta hədələyirdi. Sovet imperiyasının "Zaqafqaziya ölkə komitəsi" deyilən qurumu 1923-cü ilin iyununda muxtariyyət məsələsinin həll olunması ilə bağlı Azərbaycan rəhbərliyinin qarşısında tələb qoydu. Bu təkidli tələblərdən sonra "Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi" deyilən qurum 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret verdi. Həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olunurdu. Az sonra şəhər Azərbaycanlılara qarşı soyqırımın təşkilatçılarından biri olan Stepan Şaumyanın adı ilə "Stepanakert" adlandırıldı. Bu qərardan on gün sonra Şuşa şəhəri də vilayətin tərkibinə daxil edildi.

Ermənilərin bu istəyi də yerinə yetirildi. Onlar Şuşanı erməniləşdirmək niyyətində idilər. Ona görə də Azərbaycan rəhbərliyi Şuşanın vilayətə daxil edilməsini istəmirdi, lakin sonda razılaşmalı oldu. Muxtar vilayətin yaradılması yanlış, qeyri-legitim və heç nə ilə əsaslandırılmayan bir qərar idi. Hətta Moskvanın Azərbaycana göndərdiyi canişinlərin özləri də bu qərarın düzgünlüyünü dərhal şübhə altına almağa başladılar. Bəzi məlumatlara görə həmin qərarın ləğv edilməsi ilə bağlı ötən əsrin 20-30-cu illərində bir neçə dəfə məsələ qaldırılmışdı.

Beləliklə, bu dövrdə Rusiya rəhbərliyi tərəfindən yürüdülən siyasət nəticəsində həmişə tam olmuş Qarabağ bir neçə yerə parçalandı. Onun bir hissəsi ayrılaraq Ermənistana verildi. Digər bir hissəsində isə "Dağlıq Qarabağ Muxtar Vilayəti" deyilən qondarma qurum yaradıldı. Qarabağın tarixi torpaqlarından Azərbaycana Dağlıq Qarabağ Muxtar Vilayəti də daxil olmaqla 16 min kv.km ərazi qaldı. Qarabağın tarixi torpaqlarına aid olan Zəngəzur qəzasının Azərbaycana qalmış hissəsində az sonra Zəngilan, Qubadlı, Laçın rayonları yaradıldı. Ağdam və Cəbrayıl qəzalarının ərazisində isə Ağdam, Cəbrayıl, Bərdə, Tərtər, Ağcabədi rayonları təşkil edildi. Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi yaradılarkən 4.160 kv.km (sonradan bəzi inzibati

dəyişikliklər etməklə vilayətin ərazisini 4.400 kv.km çatdırmışlar) olmuşdur. Vilayətə Cavanşir, Cəbrayıl, Qubadlı qəzalarının kəndləri daxil edilmişdir. İlk dövrdə beş rayondan-Dizaq (48 kənd), Vərəndə (46 kənd), Şuşa (12 kənd), Xaçın (53 kənd), Ceraberd (53 kənd) rayonlarından ibarət olmuşdur. 1930-cu illərdə ermənilər rayonların adlarını dəyişdirdilər: Vərəndə Martuni, Ceraberd Mardakert, Dizaq Hadrut adlandırılır, Xaçın rayonu ləğv edilir, onun əraziləri Stepanakert rayonuna daxil edilir. 1963-cü ildə Şuşa rayonu ləğv edilir, onun ərazisi Stepanakert rayonuna verilir. Lakin 2 il sonra Şuşa rayonu yenidən bərpa olunur. 1978-ci ildə Stepanakert rayonu əsasında Əsgəran rayonu yaradılır.

Qarabağın 2 hissəyə bölünməsi və onun Dağlıq hissəsinə erməni muxtariyyətinin verilməsi Ermənistanın, erməni diasporası və terror təşkilatlarının qəsbkarlıq və ilhaqçılıq siyasətinin tərkib hissəsi idi. Ermənilər muxtariyyət statusunun ardınca bu ərazini tamamilə zəbt etmək planlarını gizlətmirdilər. Məsələnin mahiyyətini bilməyən xarici ölkə tədqiqatçıları hərdən belə bir fikir səsləndirirlər ki, ermənilər Azərbaycanın bu və ya digər ərazisinə davamlı şəkildə iddialarını irəli sürürlərsə, bəlkə buna onların doğrudan da haqqı var. Burada məlum fəlsəfi həqiqətin praktikada təsdiqini tapdığını görürük: dəfələrlə və təkidlə təkrar olunan yalan müəyyən müddətdən sonra ətrafdakılar və hətta yalanı deyənin özü üçün həqiqət kimi görünür. Ermənilərin iddialarını tərbiyəli uşağın əlindəki oyuncağı almaq istəyən tərbiyəsiz uşağın hərəkəti ilə də müqayisə etmək olar; onun inadlı çığır-bağırından sonra istəyini yerinə yetirirlər ki, səsini kəssin, insanların baş-beynini xarab etməsin. Erməni iddialarının və bu iddiaların, o o cümlədən ərazi və qondarma "soyqırım"la bağlı iddialarının vaxtaşırı bu və ya digər formalarda təmin edilməsinin mümkün izahlarından biri də budur.

Ermənistan Sovet imperiyası dövründə də öz niyyətlərindən gerı çəkilmədi və Moskva rəhbərliyindəki erməni əsilli şəxslərin köməyi ilə ilhaqçı siyasətini davam etdirdi. 1922-ci ildə Göyçə və Dilican əraziləri, 1923-cü ildə Naxçıvanın 9 kəndi, 1929-cu ildə Mehri. 1938-ci ildə Sədərək və Kərki kəndlərinin bir hissəsi, 1969-cu ildə Laçın rayonunun Qaragöl yaylağının, Qubadlı rayonunun Çayzəmi ərazilərinin, Qazax rayonunun Kəmərli kənd ərazisinin, Kəlbəcər ayonunun Zod qızıl yatağı ərazisinin bir hissəsi, 1982-ci ildə Qazax rayonunun İncədərə yaylağı, Kəmərli, Aslanbəyli və Qayınaqlı kəndlərinin ərazilərinin hissələri, 1986-cı ildə Qazax rayonunun 2500 hektarlıq otlaq əraziləri Ermənistan tərəfindən müxtəlif adlar altında zəbt edilmişdir. Hər dəfə azərbaycanlıların etiraz etmək cəhdlərinin qarşısı Moskva rəhbərliyi tərəfindən qəti şəkildə alınmışdır. Torpaqlarını müdafiə etməyə çalışan azərbaycanlıları millətçilikdə, "proletar beynəlmilləlçilyi"nə zidd olmaqda ittiham edir, bir dövlətin tərkibində, yeni Sovet imperiyasının sərhədləri daxilində ərazilərin kimin nəzarətində olmasının əhəmiyyət kəsb etmədiyini bildirirdilər. Bu, çar Rusiyasının açıq şəkildə apardığı

"erməniləşmə və xristianlaşma" siyasətinin "proletar beynəlmiləlçiliyi" adı altında davam etdirilməsi idi.

1920-1930-cu illərdə ermənilər Dağlıq Qarabağda ehtiyatlı davranır, qıcıqlandırıcı addımlar atmaqdan çəkinirdilər. Çünki "Dağlıq Qarabağın muxtariyyəti" məsələsi hələ də cəmiyyət tərəfindən qəbul olunmur, bu qərarın düzgülüyü hətta Azərbaycanın kommunist rəhbərliyi tərəfindən vaxtaşırı şübhə altına alınırdı. Ona görə də ermənilər bu dövrdə baş vermiş "muxtariyyət faktı"nın, bu əsassız qərarın ictimai rəydə möhkəmləndirilməsinə daha çox fikir verir, həmçinin erməni əhalisinin sayının artırmağa çalışırdılar. 30-cu illərin əvvəllərində Moskva rəhbərliyi xaricdən, birinci növbədə Yaxın Şərq və Balkanlardan ermənilərin Cənubi Qafqaza köçüb gəlməsinə şərait yaratmışdı. Erməni diaspor təşkilatları bu köçləri təşkil edir və ermənilərin bu ərazilərdə toplum şəklində cəmləşmələrinə çalışırdılar. Moskva isə bu kompaniyadan təbliğat vasitəsi kimi istifadə edirdi. Bu köç o qədər də geniş miqyas almadı və bir neçə on min nəfərlə məhdudlaşdı. Onların bir hissəsi Azərbaycana, o cümlədən Qarabağa gələrək məskunlaşdılar. Xaricdən gələn ermənilər Dağlıq Qarabağda separatçı meylləri gücləndirir və geniş təşkilati işlər aparırdılar.

Dağlıq Qarabağla bağlı ermənilər İkinci dünya müharibəsindən sonra yenidən fəallaşdılar. Uzun fasilədən sonra erməni kilsəsi təşəbbüsü ələ götürdü. 1945-ci ilin iyun ayında Eçmiədzində (qədim Azərbaycan yaşayış məntəqəsi Üç kilsə) dünyanın bir çox ölkələrindən gəlmiş din xadimləri, iş adamları, sənətçilərin iştirakı ilə kilsə məclisi keçirildi. Moskva erməni kilsəsindən öz məqsədləri üçün istifadə etmək niyyətində idi. Konkret olaraq bu məclisdə Sovet Ermənistanı ilə "Türkiyə Ermənistanı"nın birləşdirilməsi məsələsi də qoyulmuşdu. Ermənilər daha ciddi maraqlar güdür, həmişə erməni iddialarının ideya rəhbəri və təşkilatçısı olmuş kilsənin fəaliyyətini tam şəkildə bərpa etməyə çalışırdılar. Onlar bu məqsədlərinə nail oldular. Həmin məclisdə bütün dünyadakı ermənilərin fəaliyyətini əlaqələndirən mərkəz yarandı, kilsənin hesabına dərhal iri məbləğdə pullar keçirildi və bu proses sonralar da davam etdirildi. Bu dövrdən etibarən ermənilərin ərazi iddiaları, qondarma "soyqırım"la bağlı proseslərə Eçmiədzin kilsəsi rəhbərlik edirdi. Erməni kilsəsinin fəaliyyətinin canlandırılmasından az sonra Ermənistanın kommunist rəhbərliyinin Dağlıq Qarabağa ərazi iddiası ilə çıxış etməsi təsadüfi deyildi.

Ermənistan rəhbərliyi eyni vaxtda Türkiyənin Qars və Ərdahan vilayətlərinə, həmçinin Azərbaycanın Dağlıq Qarabağ vilayətinə ərazi iddiaları irəli sürdü. 1945-ci il noyabr ayının 28-də Ermənistanın kommunist rəhbəri Q.Arutinov Moskva rəhbərliyin Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi təklifi ilə müraciət göndərdi. Stalinin hakimiyyəti dövründə belə bir müraciəti əvvəlcədən razılaşdırılmadan ortaya çıxması mümkünsüz idi. Azərbaycan

rəhbərliyinin qəti mövqeyi bu razılaşdırılmış planı həyata keçirilməsinə mane oldu. Azərbaycanın kommunist rəhbəri M.C.Bağırovun məsələyə münasibəti və cavabı birmənalı oldu. Moskvaya göndərilən cavab məktubunda bildirilirdi ki, erməniləri iddialarının təmin edilməsi mümkün deyil, bu ərazi qədim zamanlardan Azərbaycanın tərkibində olmuşdur. M.C.Bağırov digər tərəfdən əsaslandırılmış iddialar irəli sürərək, Şuşa istisna olmaqla Dağlıq Qarabağın Ermənistana verilməsinə şərti olaraq razılaşır bunun müqabilində isə qədimdən Azərbaycana məxsus olan və "sovetləşmə" dövründə Ermənistana verilmiş Vedi, Qarabağlar və Əzizbəyov rayonlarının, Gürcüstana verilmiş Borçalı mahalının Rusiyaya verilmiş Dərbənd və Qasımkənd rayonlarının Azərbaycana qaytarılması tələblərini qoyur. Azərbaycan rəhbərliyinin bu cür, qətiyyətli və əsaslandırılmış mövqeyindən sonra Moskva geri çəkilməli, Ermənistan isə fikrindən daşınmalı oldu. Bu hadisəni Azərbaycanın müdafiə taktikasının uğuru kimi dəyərləndirmək olar. Lakin sonrakı hadisələr göstərdi ki, yalnız müdafiə taktikası ilə ciddi nəticələrə nail olmaq, xüsusilə də işğalçı və ilhaqçı niyyətlərin qarşısını almaq mümkün deyildir. Ermənilər hücum taktikasından tam yararlanaraq əsassız Qarabağ iddialarının ödənilməməsindən özlərini incik tərəf kimi göstərdilər və dərhal digər istiqamətdə-indiki Ermənistan deyilən Qərbi Azərbaycan ərazilərindən Azərbaycan türklərinin kütləvi surətdə deportasiya edilməsi, "türksüz Ermənistan" yaradılması istiqamətində ciddi nəticələr əldə etdilər. Ermənilər Sovet imperiyasının tərkibində "Ermənistan" deyilən qurum yaranan gündən bu xətti həyata keçirməyə çalışırdılar. İkinci dünya müharibəsindən sonra, xüsusilə də "soyuq müharibə" dövründə Moskva xaricdən müxtəlif millətlərin nümayəndələrinin yaşamaq üçün ölkəyə gəlməsinə önəm verir, bu prosesdən guya sosializm sisteminin üstünlüyünün təbliğ olunması üçün istifadə edirdi. Ermənilər bu məqamdan istifadə edərək guya xaricdən çoxlu sayda ermənінin Ermənistana gəlmək istəməsi və onların yerləşdirilməsi üçün ərazilərin kifayət etməməsi və bunun üçün də oradan azərbaycanlıların çıxarılıb Azərbaycana göndərilməsinin zəruriliyi haqda Moskva rəhbərliyi qarşısında məsələ qaldırdılar. Moskva dərhal bu planla razılaşdı və 1947-1953-cü illər ərzində 150 mindən artıq azərbaycanlı əsrlərlə yaşadıqları yurdlarından deportasiya edildilər. Deportasiya edilən azərbaycanlıların yerinə xaricdən 90 mindən artıq erməni köçürüldü. Bununla "Ermənistan" deyilən ərazilərdə ermənilərin sayının əsasən kənardan köçürülmə ilə artırılması ənənəsi davam etdirilirdi. Köçürülən ermənilərin əksəriyyəti şəhərlərdə məskunlaşdılar, azərbaycanlıların zorla çıxarıldığı kəndlərin isə xeyli hissəsi boş qaldı. Əsas məqsəd xaricdən gələn ermənilər üçün yer hazırlamaq deyil, azərbaycanlıları oradan çıxarmaq idi. Bu proses Sovet imperiyası dövründə müxtəlif adlar altında davam etdirilmişdir. Ermənilər paralel şəkildə "Ermənistan" deyilən ərazilərdən azərbaycanlıları çıxarır və Dağlıq Qarabağla bağlı əsassız idialarını reallaşdırmağa

çalışırdılar. 1960-cı illərin əvvəllərində Sovet imperiyası və Türkiyə arasında münasibətlər kəskinləşdi, Moskva geniş antitürk təbliğat kampaniyasına başladı. Ermənilər bu vəziyyətdən istifadə edərək qondarma "erməni genosidi" məsələsini ortaya atdılar və Dağlıq Qarabağa yenidən iddia irəli sürdülər. O vaxt Kreml rəhbərliyinə daxil olan mahir intriqa ustası A.Mikoyan həmtayfalarına xidmət göstərmək məqsədilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqda məsələ qaldırdı. Sovet rəhbərliyi bu təklifin imperiya üçün təhlükə yaradacağından, digər yerlərdə də ərazi məsələlərinin ortaya çıxacağından ehtiyat edərək A.Mikoyana rədd cavabı verdi. Kreml rəhbəri N.Xruşşov ermənilərin məkrli niyyətlərinə işarə vuraraq, əgər Dağlıq Qarabağ Erməniləri Ermənistana qovuşmaq istəyirlərsə, onlara dərhal 12 min yük maşını ayırmağa hazıram", -demişdi. Ermənilər 1965-ci ildə 45 min nəfərin imzaladığı müraciəti Moskvaya göndərərək yenə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini xahiş etdilər. Həmin ərəfədə emissarlar İrəvandan Xankəndinə gələrək təbliğat aparır, imza toplamağa cəhd edirdilər. Emissarların bütün səylərinə baxmayaraq Qarabağ ermənilərinin əksəriyyəti imza verməkdən imtina etdilər. Moskvaya göndərilən imzalar əsasən Ermənistan deyilən ərazilərdə yaşayan ermənilərə məxsus idi. Moskva rəhbərliyi bu müraciətə heç bir reaksiya vermədi. Ermənilər eyni zamanda Dağlıq Qarabağda milli zəmində qarşıdurma törətməyə cəhd göstərdilər. Ermənilərin Dağlıq Qarabağ iddialarından fərqli olaraq qondarma "erməni genosidi" kampaniyası sovet rəhbərliyi tərəfindən dəstəkləndi. Ermənilər ilk dəfə bu tarixi Sovet imperiyasının müxtəlif yerlərində, o cümlədən İrəvanda geniş şəkildə qeyd etdilər. Bu gün də davam etdirilən "genosid kampaniyası"nın başlanğıcı məhz 1965-ci ildə uydurma hadisələrin 50 illiyi münasibəti ilə Moskva rəhbərliyi tərəfindən qoyuldu. Düzdür, Moskva bu məsələyə o dövrdə bir qədər şübhə ilə yanaşırdı. Bəlkə də ermənilərin bu çürük ideyanı bu qədər dartıb uzadacaqları Sovet rəhbərliyinin heç ağlına da gəlmirdi.

1977-1978-ci illərdə mərkəzdə və yerlərdə konstitusiyalar dəyişdirilərkən ermənilər yenidən Dağlıq Qarabağ məsələsini qaldırdılar, lakin cəhdləri yenə də heç bir nəticə vermədi. Bütün dövrlərdə Dağlıq Qarabağın Ermənistana verilməsi absurd bir ideya kimi qəbul olunmuş və rədd edilmişdir. Lakin ermənilər bütün vasitələrdən istifadə edir, bəzən xırda nəticələrə nail olurdular. 1981-ci ilin iyun ayında Moskvanın təzyiqi ilə Dağlıq Qarabağa fərqli status verildi. Yeni qəbul olunmuş əsasnaməyə görə yerli orqanlara bir sıra imtiyazlar verildi. Bu imtiyazlar vilayətin mərkəzdən asılılığını bir qədər azaldırdı. Məsələnin müəmmalı tərəfi ondan ibarət idi ki, bu yeni status sovet imperiyasının onlarla muxtar qurumundan yalnız Dağlıq Qarabağa verilirdi.

### *Qarabağ müharibəsinin başlanması*

Ermənilər Sovet imperiyasında ciddi dəyişikliklərin olacağını hiss edərək bir sıra hazırlıq işlərinə başladılar. 1984-1985-ci illərdə Cənubi Qafqazın tarixini saxtalaşdıran bəzi məqalələr və kitablar çap olundu, "elmi" konfranslar keçirildi. Ermənilər təbliğat işinin genişləndirməklə guya Cənubi Qafqazda yerli əhali olduqlarını, həmçinin bir sıra ərazilərə iddialarını əsaslandırmağa çalışırdılar. Bir sıra erməni təşkilatları "erməni məsələsi”nə diqqəti cəlb etmək üçün 1985-ci ildə uydurma "genosid"in 70 illiyini geniş miqyasda qeyd etməyə cəhd göstərdilər. Lakin Moskva rəhbərliyi Türkiyə ilə münasibətlərin korlanacağından ehtiyat edərək bu hay-küylü tədbirlərin yalnız Ermənistanda keçirilməsinə icazə verdi. Ermənilər bu tədbirlərə xaricdən çoxlu sayda qonaqlar dəvət etməklə xeyli yalançı təbliğat işi apara bildilər. M.Qorbaçovun 1985-ci ildə Moskvada hakimiyyətə gəlməsi, onun açıq ermənipərəst mövqeyi və ortaya atdığı "yenidənqurma prosesləri" ermənilərin işğalçı niyyətləri üçün geniş imkanlar yaratdı. "Qarabağ komitəsi" Ermənistanda, onun şöbəsi olan "Krunk" təşkilatı isə Dağlıq Qarabağda leqal fəaliyyətə başladı, Azərbaycana qarşı işğalçı və ilhaqçı tələblər açıq şəkildə səsləndirildi. İrəvandan Dağlıq Qarabağa gələn emissarlar təbliğat və təşkilat işlərini genişləndirdilər. 1987-ci il noyabrın 16-da M.Qorbaçovun müşaviri, erməni akademiki A.Aqanbekyan Parisdə "İnterkontinental" otelində jurnalistlər qarşısında çıxış edərək bildirdi: "Mən şad olardım ki, Dağlıq Qarabağı Ermənistana qaytarsınlar.

Mən iqtisadçı kimi hesab edirəm ki, onlar Azərbaycandan daha çox Ermənistanla bağlıdırlar. Mən artıq bununla bağlı təklif vermişəm və ümid edirəm ki, bu ideya həyata keçiriliəcəkdir". Bu bəyanat Qarabağ üzərinə bütün dünya ermənilərinin hücumu üçün ilk rəsmi siqnal oldu. A.Aqanbekyanın açıqlaması ermənilər tərəfindən Moskva rəhbərliyinin rəsmi mövqeyi kimi qəbul olundu və onların geniş fəaliyyət üçün əl-qolunu açdı.

1987-ci ilin ikinci yarısından başlayaraq azərbaycanlılar Ermənistan və Dağlıq Qarabağda açıq şəkildə sıxışdırılır və çıxıb getməyə məcbur edilirdilər. Bu proses yerli erməni icra və milis (polis) orqanları, qeyri-formal silahlı dəstələr tərəfindən həyata keçirilirdi. Müqavimət göstərməyə cəhd edən dinc əhali döyülür və yaxud öldürülürdü. Daim ölüm təhlükəsi qarşısında qalan azərbaycanlılar tədricən öz yurdlarını tərk edərək Azərbaycana pənah gətirirdilər. Dörd min nəfərlik ilk böyük qaçqın dəstəsi Ermənistanın Quqark rayonundan 1988-ci ilin əvvəlində gəldi. Bu Ermənistan rəhbərliyi tərəfindən həyata keçirilən "etnik təmizləmə" siyasətinin başlanğıcı idi. "Etnik təmizləmə" siyasəti ilə azərbaycanlılar 1918-1920-ci və daha sonrakı illərdə Azərbaycanın Ermənistana

bağışaldığı tarixi ərazilərindən zorla çıxarılırdılar. Ermənilər "etnik təmizləmə" ilə yanaşı ilk siyasi addımlarını da atdılar. 1988-ci ilin yanvar-fevral aylarında Xankəndində və İrəvanda Dağlıq Qarabağı Azərbaycandan ayrılması tələbləri ilə toplantı və mitinqlər başladı. 1988-ci il fevralın 13-də Xankəndinin mərkəzi Lenin meydanında ermənilərin ilk mitinqi keçirildi. Fevralın 20-də isə Dağlıq Qarabağ muxtariyyətinin rəhbərliyi bu ərazinin Ermənistanın tabeçiliyinə keçməsi xahişi ilə Azərbaycan rəhbərliyinə rəsmi müraciət göndərdi. Bunun ardınca isə silahlı basqınlar və qarşıdurmalar təşkil edildi. Sonra, fevralın 22-də erməni silahlıları Dağlıq Qarabağın Əsgəran şəhərində dinc aksiya keçirən Azərbaycan türklərini güllə-boran etdilər, 2 nəfər gənc öldürüldü, 19 nəfər yaralandı. Bu qanlı hadisələr Ermənistandan gələn emissarlar tərəfindən törədildi və ermənilərin silahlı münaqişədə maraqlı olduqlarını nümayiş etdirdilər.

Fevralın 28-də isə İrəvan və Moskvanın xüsusi xidmət orqanları tərəfindən Sumqayıtda qanlı hadisələr törədildi. Ermənistanın tanınmış siyasi xadimlərindən Paruyr Ayrikyan da etiraf edirdi ki, "Sumqayıt hadisələri Moskva tərəfindən təşkil olunmuşdu". Bu hadisələrin Moskva tərəfindən törədilməsini SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin o vaxtkı sədri N.Kryuçkov da etiraf etmişdir. Bakının 30 km-də yerləşən Sumqayıt şəhəri təsadüfən seçilməmişdi. Həmin ərəfədə Ermənistandan zorla çıxarılmış 41 mindən artıq Azərbaycan türklərinin əksəriyyəti məhz Sumqayıtda məskunlaşmışdı və ermənilərin onlara qarşı törətdikləri vəhşiliklərə görə qəzəb içərisində idilər. Hələ Sovet dövründə də "ölü zona" adlandırılan şəhərin yerli əhalisi də yoxsulluq və səfalət ucbatından radikal addımlar atmağa meylli idi. Ona görə də burada geniş miqyaslı iğtişaşlar törətmək mümkün oldu. Bir gün davam edən ixtişaşlar nəticəsində erməni evləri dağıdıldı, onlarla adam yaralandı, 32 nəfər, o cümlədən, 26 erməni, 5 Azərbaycan türkü, 1 ləzgi öldürüldü. İstintaq materiallarında ixtişaşlara Azərbaycan türkü Əhməd Əhmədov və erməni Eduard Qriqoryanın rəhbərlik etdikləri bildirilirdi. Ermənінin bu hadisələrə başçılıq etməsi hər şeyə aydınlıq gətirir. O da məlumdur ki, öldürülən ermənilərin, demək olar ki, hamısı erməni terror fondlarına pul keçirməkdən imtina edənlər idi. Bəzi faktlara müraciət etməyə ehtiyac vardır. Zərərçəkmiş Sumqayıt sakini L.Meclumyan bildirirdi ki, "Qriqoryan mənim mənzilimə daxil oldu, sındırdığı stulun ayaqları ilə xəstə anama zərbə endirdi, bu vaxt mən bir neçə dəfə müqavimət göstərməyə çalışdım, ancaq qadın olduğuma görə gücüm çatmadı, o, məni yerə yıxaraq, istədiyini etməyə başladı". Hadisələrdə iştirak etmiş Nəcəfov soyadlı bir gənc isə istintaqa bildirirdi ki, "Qriqoryan tərəfindən təşkil olunmuş dəstə Emma adlı erməni qadının 512 saylı evinə soxuldu, dərhal onu lüt soyundurdular və Edik Qriqoryan onu bu vəziyyətdə küçəyə çıxartmağı təklif etdi, sonra onun iştirakı ilə Emma vəhşicəsinə öldürüldü". İstintaq materiallarının başqa bir yerində göstərilir ki, "E.Qriqoryan öz dəstəsi ilə birinci

mikrorayonda M.Petrosyanın mənzilinə daxil olmuş, müqavimət göstərmək istəyən mənzil sahibinə başından zərbə endirərək halsız vəziyyətə salmışdır". E.Qriqoryan Sumqayıt hadisələri zamanı 5 ermənini şəxsən özü öldürmüş, 8 erməni qadınını zorlamışdır. Bu cür faktlar çoxdur. Erməni təşkilatları bu cür cinayətlər törətmiş E.Qriqoryanı ağır cəzadan da qurtara bildilər. Məhkəmə Azərbaycan türkü Əhməd Əhmədov haqda ölüm hökmü çıxardı və hökm dərhal yerinə yetirildi. E.Qriqoryana isə yalnız 12 il iş verildi və bir neçə ildən sonra azadlığa buraxıldı. Bu hadisələr məşhur deyimi bir daha təsdiq etdi: "ermənilər üçün ən yaxşı erməni ölü ermənidir". Ermənilər ölmüş və yaxud öldürülmüş həmtayfalarından həmişə məharətlə istifadə edirdilər. Ermənilər Sumqayıt hadisələrindən öz məkrli niyyətləri üçün yararlanmaq məqsədi güdürdülər. Ona görə də bu hadisələr haqda dərhal dünya ictimaiyyətində yanlış rəy formalaşdırmağa, antiazərbaycan əhval-ruhiyəsi yaratmağa başladılar. Digər tərəfdən, erməni təşkilatları Azərbaycan və Ermənistan arasında qarşıdurmaya dönməz xarakter verməyə, münasibətləri daha da kəskinləşdirməyə, dinc nizamlama perspektivlərini heçə endirməyə çalışırdılar. Ermənilər qanlı terror aktlarını davam etdirirdilər. Martın 10-da İrəvandan cənubda Azərbaycan türklərinin yaşadıqları Mehmandar kəndinin 4 sakini qətlə yetirildi, martın 25-də Ararat rayonunun kəndlərində 100-dən artıq ev yandırıldı, əhalisi qovuldu. Ermənistanın Azərbaycan türkləri yaşayan kəndlərinə hücumlar adi hal aldı.

Vəziyyətin gərginləşməsi Moskva rəhbərliyini bəzi addımlar atmağa məcbur ctdi. Münaqişə zonasına əlavə hərbi qüvvələr yerləşdirildi. Fevralın sonunda Azərbaycan və Ermənistanda Moskvanın hərbi qüvvələrinin sayı 13 min nəfərə çatdırıldı.

Təxminən həmin vaxtda Ermənistan ərazilərində ilk hərbləşdirilmiş dəstələr yaradıldı. Bu dəstələr İrəvanda fəaliyyət göstərən və beynəlxalq erməni terror təşkilatlarının dəstəyi ilə yaradılan "Qarabağ komitəsi"nə tabe idilər. Bu Komitənin rəhbərlərindən biri sonralar Ermənistanın prezidenti olmuş L.Ter-Petrosyan idi. 1988-ci ilin yayına qədər bu dəstələr konkret şəxsi heyəti olan mütəşəkkil birləşmələrə çevrildilər, ov və döyüş silahları ilə təmin edildilər. Eyni zamanda Ermənistanın kənd rayonlarında sərhədboyu yaşayış məntəqələrini qorumaq adı altında silahlı "özünümüdafiə dəstələri" yaradıldı. Bu dəstələrin hamısı vahid mərkəzdən-millətçi erməni hərəkatının liderləri tərəfindən idarə olunurdu. 1988-ci il iyulun 12-də Dağlıq Qarabağda "vilayət soveti" deyilən qurumun toplantısı keçirildi və Azərbaycanın tərkibindən çıxmaq haqda qərar qəbul olundu. Bu toplantıya orada yaşayan azərbaycanlıların nümayəndələri dəvət olunmadılar.

Ermənistanda və Dağlıq Qarabağda yaşayan Azərbaycan türkləri isə silahlı erməni dəstələri qarşısında tam müdafiəsiz qalmışdılar. Dağlıq Qarabağda

Azərbaycan türkləri aramsız olaraq erməni silahlılarının hücumlarına məruz qalırdılar. Ermənistanda isə erməni silahlı dəstələrinin hücumları 1988-ci ilin noyabr-dekabr ayları ərzində 250 mindən artıq Azərbaycan türkünün öz yurdlarından zorla deportasiya edilməsi ilə nəticələndi. Bu zaman dinc əhaliyə qarşı dəhşətli vəhşiliklər törədildi, 216 nəfər, o cümlədən 57 qadın, 5 körpə və müxtəlif yaşlarında 18 uşaq öldürüldü. 1988-ci ilin noyabrında Ermənistanın şimal-şərq hissəsindəki Vartan kəndində 12 azərbaycanlı diri-diri yandırıldı. Ermənilər "etnik təmizləmə" siyasəti nəticəsində Azərbaycan türklərinin əsrlərlə yaşadıqları 172 yaşayış məntəqəsini, 8 min kv.km ərazini ələ keçirdilər. Bəzi yerlərdə qalmış dinc əhali də 1991-ci ilə qədər qovulub çıxarıldılar. Azərbaycan türklərinin yaşadıqları sonuncu kənd-Nüvədi 1991-ci il avqustun 8-də boşaldıldı. İnsanlar daim onları hədələyən ölüm ləhlükəsi qarşısında öz yurdlarını tərk etməli oldular. 1988-ci ilin dekabr ayında Ermənistanda baş vermiş zəlzələ zamanı da azərbaycanlı və ermənilərin əsil mənəvi dəyərləri nümayiş etdirildi. Zəlzələdən dərhal sonra, dekabrın 11-də Azərbaycandan xüsusi dəstə təyyarə ilə təbii fəlakət zonasına yola düşdü. Lakin köməyə gələn təyyarə Leninakan hava limanının dispetçer heyəti tərəfindən qəzaya uğradıldı. Bu qəza nəticəsində 73 nəfər azərbaycanlı həlak oldu, yalnız bir nəfər xilas ola bildi. Həmin şəxsi isə Ermənistanda heç bir xəstəxana qəbul etmədi, onu təcili olaraq Bakıya göndərməli oldular. Zəlzələdən zərərçəkənlərə kömək üçün gəlmiş fransalı xilasedicilər isə daha dəhşətli hadisənin şahidi oldular. Onların aşkar etdikləri qaynaqlanmış borunun içərisindən 71 azərbaycanlı uşağın meyidləri çıxarıldı. Məlum oldu ki, erməni quldurları hələ noyabrın 12-də uşaqları diri-diri həmin borunun içərisinə salaraq, hər iki tərəfini qaynaq etmişdilər. Bu hadisə uşaqlardan birinin anası Mədinə Şərifovanın gözləri qarşısında baş vermişdi. M.Qorbaçov başda olmaqla Moskva rəhbərliyi Ermənistanın "etnik təmizləmə" və ilhaqçı siyasətini dəstəkləyir, işğalçı tərəfin Azərbaycanın hesabına ərazilər əldə edərək möhkəmlənməsində maraqlı olduğunu gizlətmirdi. Hadisələrin bu ssenari əsasında davam etdirilməsində M.Qorbaçovun erməni əhatəsinin də kifayət qədər rolu var idi. Zəlzələdən sonra M.Qorbaçov Ermənistanda oldu, bir sıra görüşlər keçirdi və "Qarabağ komitəsi"nin fəaliyyəti ilə bağlı bəzi tənqidi fikirlər səsləndirdi. Lakin bu fikirlər yalnız söz olaraq qaldı. Düzdür, M. Qorbaçovun səfərindən dərhal sonra bu komitənin üzvlərini həbs edərək Moskvaya apardılar, lakin cəmisi altı aydan sonra onları sərbəst buraxdılar və onlar geriyə qayıdaraq öz fəaliyyətlərini davam etdirdilər.

Ermənilər Azərbaycan türklərinin Ermənistandan deportasiya olunması ilə yanaşı Dağlıq Qarabağın Azərbaycanın nəzarətindən hər hansı ad altında çıxarılmasına çalışırdılar. Onlar tezliklə bu niyyətlərinə nail oldular. 1988-ci il iyunun 24-də Moskva özünün xüsusi təmsilçisini Dağlıq Qarabağa göndərdi,

Arkadi Volski orada Siyasi büronun nümayəndəsi" təyin edildi. 1989-cu il yanvarın 12-də M.Qorbaçovun qərarı ilə Dağlıq Qarabağ Azərbaycanın tabeçiliyindən çıxarılaraq birbaşa Moskvaya tabe etdirildi və bu regionun birbaşa mərkəzdən idarə olunması üçün Xüsusi İdarə Komitəsi deyilən qurum yaradıldı, heç vaxt ermənipərəst mövqeyini gizlətməyən A.Volski isə həmin quruma rəhbər təyin olundu. Moskva bu addımı atmaqla sonrakı mərhələdə Dağlıq Qarabağın Ermənistana verilməsini sürətləndirmək məqsədi güdürdü. A.Volski Xankəndinə gələn gündən erməniləri, onların silahlı dəstələri himayə edir və Azərbaycan türklərinin çıxarılıb qovulması üçün əlindən gələni edirdi. Moskva açıq-aşkar erməniləri dəstəkləməklə həm də Azərbaycan xalqının ciddi müqavimət göstərməyəcəyini ümid edir, Azərbaycan tərəfini yalançı vədlər verməklə sakitləşdirməyə və arxayınlaşdırmağa çalışırdı. Lakin düşmənlər tezliklə yanıldıqlarını başa düşdülər.

Azərbaycanda erməni iddialarına qarşı hərəkat aşağılardan, xalqın özü tərəfindən başlandı. Bir sıra qeyri-formal qurumlar, ictimai-siyasi təşkliatlar meydana gəldi. Ayrı-ayrı ziyalı və vətənpərvər qruplar tərəfindən nümayişlər, yürüşlər və digər aksiyalar təşkil edildi. Bakıda ilk nümayiş 1988-ci il fevralın 19-da oldu, nümayiş iştirakçıları Elmlər Akademiyası binasının qarşısından AIi Sovetə qədər yürüş etdilər, "Qarabağ bizimdir!" şüarları səsləndirdilər.

Bakıda və Dağlıq Qarabağa yaxın rayonlarda başlayan ilk çıxışlar, kütləvi aksiyalar yüksələn xətlə inkişaf edərək, həmin ilin noyabrında izdihamlı və fasiləsiz mitinqlərə çevrildi. 1988-ci il noyabrın 18-dən dekabrın 5-dək Bakının "Azadlıq" meydanında davam etmiş fasiləsiz mitinqdə yüz minlərlə insan iştirak edərək xalqın iradəsini ortaya qoydu. Mitinq dekabr ayının 4-dən 5-ə keçən gecə Sovet ordusu tərəfindən vəhşicəsinə dağıdıldı, yüzlərlə adam xəsarət aldı, minlərlə adam həbs edildi. Lakin Azərbaycan xalqının iradəsini sındırmaq artıq mümkün deyildi. Xalq Ermənistanın işğalçı və ilhaqçı siyasətinin qarşısının alınmasını tələb edir və özü də təşkil olunaraq mübarizə meydanına çıxırdı. 1989-cu il iyulun 16-da xalqın ən mütəşəkkil qurumu olaraq Azərbaycan Xalq Cəbhəsi (AXC) yaradıldı. Əbülfəz Elçibəy AXC-nin sədri seçildi, bir sıra tanınmış ziyalılar, gənc alimlər İdarə Heyətinə daxil oldular. AXC həm ictimai müqaviməti təşkil edir, həm də könüllülərdən ibarət dəstələr yaradaraq cəbhə bölgəsinə göndərirdi. Cəbhəboyu ərazilərdə özünümüdafiə dəstələri də əsasən AXC-nin yerli şöbələri tərəfindən yaradılırdı. AXC həmin dövrdə yaranan digər qeyri-formal təşkilatları da öz ətrafında cəmləşdirərək həmçinin geniş təbliğat və izahat işi aparır, Ermənistanın işğalçı və Moskvanın antiazərbaycan siyasətlərinin ifşa olunması üçün bütün vasitələrdən istifadə edirdi.

1990-cı il yanvarın əvvəllərində erməni tərəfi Dağlıq Qarabağın şimal hüdudlarına yaxın olan Goranboy rayonunun kəndlərini havadan gülləboran

etdi. Bu məqsədlə onlar döyüş silahları ilə təmin edilmiş Mİ-8 mülki vertolyotlarından ilk dəfə istifadə etdilər. Ermənilərin bu hücumları vəziyyəti gərginləşdirdi. AXC tərəfindən yaradılmış Milli Müdafiə Şurası dinc əhalini müdafiə etmək üçün könüllü dəstələrin bir hissəsini Gəncə-Xanlar sahəsində cəmləşdirdi. Yanvarın 11-də Goranboy rayonu ərazisində bir neçə silahlı qarşıdurma baş verdi. Bu hadisələrdən sonra Moskva Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarında fövqəladə vəziyyət rejimi elan etdi. Eyni zamanda Azərbaycan-Ermənistan sərhəddinin Naxçıvan hissəsində də silahlı toqquşmalar baş verdi. Yanvarın 18-də Naxçıvan Muxtar Respublikasının Kərki kəndi Ermənistanın silahlı qüvvələri tərəfindən işğal edildi. Qarabağ və Naxçıvanda gedən döyüşlərlə paralel olaraq Azərbaycanda siyasi böhran kəskinləşirdi. Bakıda hakimiyyət, demək olar ki, iflic vəziyyətində idi. Bəzi cənub rayonlarında hakimiyyət AXC-nin yerli şöbələrinin nəzarəti altına keçmişdi. 1989-cu il dekabrın 29-da Cəlilabadda, 1990-cı il yanvarın 11-də Lənkəranda Sovet hakimiyyəti devrildi. 1989-cu ilin sonu-1990-cu ilin əvvəlində İranla 137 km-lik sərhəd zolağı açıldı, mühəndis-texniki qurğular sıradan çıxarıldı. Bakıda və digər iri şəhərlərdə kütləvi vətəndaş itaətsizliyi aksiyaları keçirilir, əsas dövlət orqanları və hərbi hissələrin fəaliyyəti dayandırılırdı. Azərbaycanda Sovet imperiyasına qarşı nifrət yüksək həddə çatmışdı. İşğalçı Ermənistanı dəstəkləyən Moskva hakimiyyətinə son qoyulması tələb edilirdi.

Moskva Azərbaycanda hakimiyyətini itirəcəyindən ehtiyat edərək güc tətbiq etmək, xalqa divan tutmaq qərarına gəldi. 1990-cı il yanvarın 16-19-da Moskva rəhbərliyi Bakı ətrafında 50 min nəfərdən artıq hərbi qüvvə cəmləşdirdi. Bu qüvvələr Zaqafqaziya, Moskva, Leninqrad hərbi dairələri, hərbi-dəniz donanması, Daxili İşlər Nazirliyi daxili qoşunları və digər hərbi birləşmələrin hesabına formalaşdırılmışdı. Yanvarın 19-dan 20-ə keçən gecə qoşunlar Bakı üzərinə yeridildi. Sovet qoşunlarının müdaxiləsinə etiraz edən dinc əhali bütün növ silahlardan amansız atəşə tutuldu. Hələ də tam dəqiqləşdirilməmiş məlumatlara görə, bu qanlı hücum nəticəsində 131 nəfər dinc əhali öldürüldü, 800-dən artıq adam yaralandı. Bakıdakı qanlı hadisələrlə eyni vaxtda Moskva 2 motoatıcı diviziyanı İranla sərhədə, 2 xüsusi təyinatlı diviziyanı isə Dağlıq Qarabağa yeritdi. Bakı, Qarabağ, Naxçıvan, qərb və cənub rayonlarında sərt fövqəladə vəziyyət rejimi tətbiq olundu. Bu qa hadisələr tarixə "Qara Yanvar" adı ilə düşdü. Ölməkdə olan Sovet imperiyası son cinayətlərini xüsusi qəddarlıqla törədirdi. Sovet qoşunlarının cəza tədbirləri nəticəsində Azərbaycanın işğalçı Ermənistana qarşı müqavimət imkanları xeyli məhdudlaşdırıdı. Azərbaycanın cəbhəboyu rayonlarında əhalidən ov tüfəngləri, orta məktəblərdə təlim, hərbi hazırlıq silahları da yığıldı.

Ermənistan yaranmış vəziyyətdən tam yararlandı. 1989-cu il dekabrın 1-də Ermənistan Ali Soveti və Dağlıq Qarabağda yaradılmış qondarma "milli şura" birgə qətnamə qəbul etdilər. Qətnamədə göstərilirdi ki, onlar "Ermənistan SSR və Dağlıq Qarabağın birləşməsini elan edirlər və həmin andan başlayaraq Dağlıq Qarabağ əhalisi Ermənistan SSR vətəndaşlarının bütün hüquqlarına malik olurlar". Ermənistan işğalçı və ilhaqçı niyyətlərini gizlətmir və geniş hazırlıq işlərini davam etdirirdi. Fövqəladə vəziyyət rejim Ermənistana tətbiq olunmamışdı. Ona görə də erməni hərbi dəstələri bu vəziyyətdən istifadə edərək, DİN, Mühafizə, Yanğınsöndürmə, doluya qarşı artilleriya parkları, ali məktəblərin hərbi kafedraları və digər müəssisələrin hamısında olan silah və sursatı dərhal ələ keçirdilər. Onlar 1990-cı ilin yanvar-fevral ayları ərzində cəmi 6.17 atıcı silah, 19 ədəd zirehli texnika, 133 doluvuran və 17 raket qurğusu, 3 minomyot, 13 min mərmi və raket, 1.921 ton partlayıcı maddə, çoxlu sayda nəqliyyat və rabitə vasitələri zəbt etmişdilər. Erməni hərbi dəstələri yerli hakimiyyət orqanlarının birbaşa himayəsi ilə mart ayından etibarən Moskvaya tabe olan hərbi hissələrə də hücumlar edir, silah və sursatı götürürdülər. Onlar dəmir yolu stansiyalarının birində hətta 15 ədəd T-72 tankını ələ keçirmişdilər. Bu hərbi birləşmələr mart ayında Qazax, Tovuz, Gədəbəy, Naxçıvan və digər sərhədboyu bölgələrə dağıdıcı hücumlar etdilər. 1990-cı ilin ortalarında Ermənistanda 15 min nəfərin daxil olduğu silahlı qruplaşmalar fəaliyyət göstərirdi. Onlardan 10 min nəfərlik erməni milli ordusu (EMO) əsasən sərhəd bölgələrində və Dağlıq Qarabağda yerləşirdi. Həmçinin bəzi siyasi qurumların, o cümlədən Erməni Ümumilli Hərəkatının, Daşnaksütyunun hərbləşdirilmiş birləşmələri var idi. Muş, NART, Adana, Aydat, Tiqran Mes kimi nisbətən kiçik qruplaşmalar 50-dən 700-dək döyüşçünü birləşdirirdi. Bu hərbi qüvvələr 30-a qədər zirehli texnikaya, 150-yə qədər doluvuran qurğu, onlarla minomyot, 20-dən artıq Mi-4 və Mi-8 vertolyotuna malik idilər. Silahlı qüvvələr əsasən müxalifətin nəzarəti altında idi, lakin hakimiyyət tərəfindən onların formalaşdırılmasına maneçilik törədilmirdi. 1990-cı ilin yayında müxalifət hakimiyyəti ələ keçirdikdən sonra həmin silahlı qruplaşmalara qanuni status verildi, yəni Ermənistanın rəsmi silahlı qüvvələri kimi fəaliyyətlərini davam etdirdilər.

L.Ter-Petrosyanın rəhbərlik etdiyi yeni hakimiyyət Azərbaycana qarşı işğalçı və ilhaqçı niyyətlərini artıq gizlətmirdi. 1990-cı ildə Erməni milli ordusu Azərbaycanla sərhədin şimal-qərb hissəsində hərbi əməliyyatları genişləndirdi. Həmin il martın 24-də və avqustun 20-də erməni silahlıları 2 dəfə Qazax rayonunun Bağanis Ayrım kəndinə girdilər və evlərin əksəriyyətini yandırdılar. Kənd sakini Dadaş Əsliyevin 5 nəfərlik ailə üzvləri öz evlərində diri-diri yandırıldılar. Bununla Qazax rayonunun ilk kəndi işğal olundu. Ermənilər eyni zamanda Qazax və Tovuz rayonlarının sərhədboyu digər yaşayış məntəqələrini

güclü top atəşinə tutdular. Ermənilərin bu cür genişmiqyaslı əməliyyatı Moskvanın regionda olan hərbi qüvvələrinin rəhbərliyini də ciddi narahat etdi. Ona görə də dərhal bəzi əks əməliyyatlar həyata keçirildi və erməni silahlı birləşmələri ağır itkilərə məruz qaldılar. Bu məğlubiyyətən sonra Erməni milli ordusunda yaranmış ruh düşgünlüyündən prezident L.Ter-Petrosyan istifadə etdi. Bu ordu bir çox məqamlarda müstəqillik nümayiş etdirir, hətta prezidentin hakimiyyəti üçün təhlükə təşkil edirdi. L.Ter-Petrosyan EMO-nun məğlubiyyətini bəhanə gətirərək, İrəvanda fövqəladə vəziyyət elan etdi, hərbi birləşmələri buraxdı, rəhbərlərini neytrallaşdırdı, sıravi heyəti isə özünün rəhbərlik etdiyi Erməni Ümummilli Hərəkatının silahlı qüvvələrinin tərkibinə daxil etdi. Ermənistan formal olaraq Sovet imperiyasının tərkibində qalır, lakin artıq tam müstəqil siyasət yeridir və müstəqil silahlı qüvvələrini formalaşdırırdı.

Bu dövrdə erməni tərəfi Dağlıq Qarabağda geniş hərbi əməliyyatlar keçirmir, daha çox silahlı dəstələrin tərkibinin komplektləşdirilməsinə diqqət yetirirdi. Onlar Azərbaycanın Dağlıqı Qarabağdan kənar ərazilərində, həmçinin Şimali Qafqazın yaxın regionlarında terror aktlarının törədilməsinə üstünlük verirdilər. 1990-1991-ci illərdə erməni terrorçuları Azərbaycanın daxili avtomobil yollarında, Rostov-Bakı domir yolunda, Krasnovodsk- Bakı bərə marşurutunda dəfələrlə qanlı terror aktları törətdilər. Bütün bu hadisələrdən sonra Azərbaycan rəhbərliyi yalnız 1990-cı ilin sonlarında müəyyən addımlar atmağa başladı. Həmin ilin payızında DİN nəzdində Xüsusi Təyinatlı Milis Dəstəsi (XTMD) yaradıldı. Bacarıqlı və cəsarətli komandir Rövşən Cavadovun rəhbərlik etdiyi bu dəstəyə ilk dövrdə 3 min nəfərə qədər döyüşçü daxil idi. XTMD dərhal döyüşlərə başlayaraq, 1990-cı il noyabrın 17-də Dağlıq Qarabağın bir sıra mühüm məntəqələrini, o cümlədən Xocalı aeroportunu erməni silahlılarından təmizlədi. Qarabağ müharibəsinin sonrakı illərində də XTMD və onun komandirinin xüsusi xidmətləri olmuşdur.

1991-ci ilin yanvarında ermənilər Dağlıq Qarabağda yenidən fəallaşdılar. Bu fəallıq Qarabağın şimal hissəsində daha çox müşahidə olunurdu. Şaumyan-Gülüstan-Aterk möhkəmləndirilmiş rayonunda düşmən 5 min nəfərə qədər canlı qüvvə cəmləşdirmişdi. Buradakı hərbi birləşmələrin canlı qüvvə və texnika ilə təminatı Ermənistan ərazilərindən hava ilə həyata keçirilirdi. Digər baza rayonu Qarabağın cənubunda Hadrutdan qərbə doğru ərazilərdə yaradılmışdı.

1991-ci ilin əvvəlində Ermənistan rəhbərliyi Moskva ilə razılaşdırılmamış bir neçə siyasi qərar qəbul etdi. 1991-ci il martın 17-də SSRİ-nin yeni ittifaq müqaviləsi əsasında saxlanılmasına dair referendumun keçirilməsi nəzərdə tutulurdu. Azərbaycan rəhbərliyi referendumun keçirilməsinə razılıq verdi, Ermənistan isə 5 digər müttəfiq respublika ilə birlikdə boykot yolunu tutdu. Ona görə də Kreml Ermənistan rəhbərliyini cəzalandırmaq və yenidən öz təsir dairəsinə

qaytarmaq üçün bəzi yarımçıq addımlar atmaq qərarına gəldi. Sovet imperiyasının Müdafiə və Daxili İşlər nazirliklərinin, həmçinin Azərbaycan XTMD-nin 6 minlik qüvvəsi ermənilərin baza rayonlarına qarşı yeridildi. Bu qüvvələrin 3 min nəfəri Azərbaycan XTMD-nə məxsus idi və əsas ağırlıq da onların üzərinə düşürdü. Aprelin 30-dan mayın 15-nə qədər davam edən əməliyyat nəticəsində Çaykənd (Getaşen), Qarabulaq (Martunaşen), Hadrut istiqamətlərində ermənilərin bir sıra baza məntəqələri ləğv edildi, canlı qüvvələri, o cümlədən Ermənistan Daxili İşlər Nazirliyinin 11 əməkdaşı məhv edildi. Lakin Moskva əməliyyatı çox tez dayandırdı və baza rayonlarının ləğv edilməsi başa çatdırılmadı. İyul ayında Azərbaycan XTM Dəstəsi müstəqil şəkildə Goranboy rayonunun içərilərinə doğru irəlilədi. Ağır döyüşlərdən sonra Manaşid, Buzluq, Erkəc baza məntəqələri düşmənlərdən azad edildi. 1991-ci ilin yaz-yay əməliyyatından sonra ermənilər ciddi şəkildə geri çəkildilər. İyulun 19-da vilayət soveti "qarşıdurmadan dialoq və danışıqlar siyasətinə keçmək" haqda qərar qəbul etdi. Ermənilər bu vaxt qoşunların Dağlıq Qarabağdan çıxarılması müqabilində Azərbaycanın tərkibindən çıxmağa dair qərarlarını ləğv edəcəklərini bildirdilər. Partiya funksioneri Valeri Qriqoryanın başçılıq etdiyi nümayəndə heyəti bu təkliflə Xankəndindən Bakıya gəldi. İyulun 20-də Bakıda V.Qriqoryanın qrupu ilə görüş keçirildi. Onların gətirdikləri müraciətdə göstərilirdi ki, SSRİ və Azərbaycan SSR konstitusiyaları əsasında danışıqlar aparmağa hazırdırlar. Bu, Dağlıq Qarabağın Azərbaycanın tərkibində qalması demək idi. Nümayəndə heyəti Xankəndinə qayıtdıqdan az sonra, avqustun 10-da V.Qriqoryan öldürüldü. Bu hadisələrlə eyni vaxtda, iyulun 20-də L.Ter-Petrosyan Novo-Oqaryovada M.Qorbaçovla görüşmüş və yeni ittifaq müqaviləsi ilə bağlı güzəştə getməyə razılaşmışdı.

Sovet imperiyasının rəhbərliyində Siyasi böhranın dərinləşməsi və 1991-ci ilin avqustunda baş vermiş dövlət çevrilişi vəziyyəti kökündən dəyişdi. Moskva regionlar üzərində nəzarəti itirdi. Avqustun sonunda imperiyanın Dağlıq Qarabağdakı hərbi qüvvələri idarəolunmaz vəziyyətə düşdülər, komandirlərin əksəriyyəti erməni silahlı dəstələri tərəfindən ələ alındılar. Bu şəraitdə Ermənistan Dağlıq Qarabağda geniş fəaliyyətə başladı. Sentyabrın 2-də burada 'Dağlıq Qarabağ respublikası" deyilən qondarma qurumun yaradıldığı elan edildi. Ermənistan işğal faktını gizlətmək üçün Qondarma "qurumu" ortaya atdı. Dərhal ərazidəki 15 min nəfərlik erməni silahlı dəstələri "Dağlıq Qarabağ respublikası özünümüdafiə qüvvələri" adı altında birləşdirildi, sonralar isə "DQR müdafiə ordusu" adlandırıldı. Azərbaycan Ermənistanın Dağlıq Qarabağın "müstəqilliyi" ilə manipulyasiya etməsinə cavab olaraq noyabrın 26-da bu ərazinin muxtariyyətini ləğv etdi.

Ermənilər 1991-ci il sentyabrın ortalarında Goranboy rayonunun qərb hissəsində hücuma keçərək bir neçə yaşayış məntəqəsini yenidən zəbt etdilər.

Oktyabrın əvvəlindən isə Azərbaycan türklərinin Dağlıq Qarabağdan çıxarılması məqsədi ilə geniş əməliyyatlara başladılar. Moskvanın hələ də burada olan hərbi qüvvələri bu əməliyyatlarda iştirak edirdilər. Oktyabrın 28-də ermənilər Xocavənd (Martuni) rayonunun yaşayış məntəqələrinə hücum etdilər. Noyabrın 16-da döyüşlər Hadrut rayonunun ərazisinə keçdi. Bu döyüşlər nəticəsində ermənilər Dağlıq Qarabağın Azərbaycan türkləri yaşayan kəndlərinin böyük əksəriyyətini zəbt etdilər. Noyabrın 24-dən etibarən Şuşa və Xocalı tam mühasirə vəziyyətinə düşdülər, yalnız hava nəqliyyatı vasitəsi ilə əlaqə saxlanılırdı. Dekabrın ortalarında Moskva hərbi qüvvələrini Dağlıq Qarabağdan çıxartmağa başladı. Əslində isə hərbi hissələr silah, texnika və sursatlarını erməni dəstələrinə verərək çıxırdılar. Təkcə 81-ci operativ alayın 10 ədəd zirehli texnikası, 1000 ədəddən artıq atıcı silahı ermənilərin ixtiyarına verilmişdi.

### *Sovet imperiyasının süqutu və işğalın yeni mərhələsi*

1991-ci il dekabrın 8-də Belovejsk müqaviləsi ilə Sovet imperiyasının süqutu rəsmiləşdirildi. Azərbaycan hələ avqust ayının 30-da müstəqilliyinin bərpa olunması haqda Bəyannamə ilə çıxış etmiş, oktyabrın 18-də isə "Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul etmişdi. Həmin dövrdə Ermənistan da müstəqilliyini elan etmişdi. Bununla da Qarabağ münaqişəsi iki müstəqil dövlət arasında müharibə xarakteri aldı. Həmin vaxta qədər Ermənistan Dağlıq Qarabağa iddialarını müxtəlif adlar altında gizlətməyə, münaqişəni yerli ermənilərin hərəkatı kimi təqdim etməyə çalışırdı. Bundan sonra Ermənistan Azərbaycana qarşı işğalçı müharibəni açıq şəkildə davam etdirdi. Hərbi əməliyyatlara birbaşa Ermənistanın Müdafiə nazirliyi tərəfindən rəhbərlik edilir və Qağlıq Qarabağda "Ermənistanın ekspedisiya korpusu" deyilən hərbi birləşmə fəaliyyət göstərirdi. Bütün digər hərbi qüvvələr və terror dəstələri bu korpusun tabeçiliyində idilər. Ermənistan silahlı qüvvələrini Rusiyanın yardımı ilə formalaşdırır, bütün mühüm siyasi və hərbi qərarları Rusiya ilə razılaşdırırdı. Rusiya regionu nəzarətdə saxlamaq üçün Ermənistandan və onun Azərbaycana qarşı iddialarından istifadə edirdi. Ermənistan öz siyasətini Rusiyanın maraqlarına uyğunlaşdıraraq ərazi iddialarını reallaşdırmaq üçün bu münasibətlərdən maksimum yararlanmağa çalışırdı. Azərbaycan Rusiya-Ermənistan ittifaqına qarşı ərazi bütövlüyünü bərpa etmək uğrunda müharibə etmək zorunda qalmışdı.

Azərbaycan yeni yaranmış şəraitdə silahlı qarşıdurmaya hazır deyildi. Hərbi birləşmələr yox dərəcəsində idi. Daxili İşlər Nazirliyi və Milli Təhlükəsizlik strukturlarının azsaylı kontingenti geniş miqyasda döyüş əməliyyatları aparmaq

iqtidarında deyildi. 1991-ci ilin sentyabr-1992-ci ilin yanvar ayları ərzində bəzi qurumlar, o cümlədən, Müdafiə Şurası, Müdafiə Nazirliyi, Baş Qərargah yaradıldı. Sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması vacib hadisə idi, lakin bu qurum hələ xeyli müddət mövcud tələblərə uyğun fəaliyyət göstərə bilmədi. Bir neçə ay ərzində Müdafiə Nazirliyinə tabe olan yalnız bir tabur yaratmaq mümkün oldu, onun da şəxsi heyəti 150 nəfərdən ibarət idi. AXC öz fəalları hesabına bir neçə tabur formalaşdırıb cəbhə bölgələrinə göndərdi. Müdafiə Nazirliyi bölgələrdə özünümüdafiə dəstələrinin yaradılmasına başladı.

Ermonistan hərbi hazırlıq, silah-sursat təchizatı, ordunun qurulması cəhətdən Azərbaycanı ən azından 3 il qabaqlayırdı. Ermənistanda və Dağlıq Qarabağda ermənilərin hərbi qüvvələrinin sayı 30 min nəfərə çatırdı. Bütün bunlara baxmayaraq, o vaxta qədər ermənilərin tərəfindən hərbi əməliyyatlarda iştirak edən Sovet qoşunlarının xeyli hissəsinin regiondan çıxarılması Azərbaycanın imkanlarını bir qədər artırmışdı. 1991-ci il dekabrın 30-31-də Azərbaycanın silahlı dəstələri əks-hücuma keçərək Xankəndi yaxınlığıdakı Kərkicahan yaşayış məntəqəsini yenidən nəzarətə götürdülər. Bu dövrdə Azərbaycan tərəfi döyüşlərdə "Katyuşa", Qrad" qurğularından, tank əleyhinə "Rapira" toplarından istifadə edirdi. Eyni vaxtda Ağdam şəhərində ilk böyük ordu qruplaşma yaradıldı, bu qruplaşmaya daxili qoşunların bəzi hissələri, özünümüdafiə dəstələri, AXC könüllüləri daxil idilər. Lakin hər qruplaşma şəxsi heyət və silah-sursatla tam təmin olunmamışdı, ona görə də ciddi əməliyyatlar keçirə bilmirdi. Ağdam qruplaşması 1992-ci ilin yanvar-fevral aylarında yalnız bir neçə məhdud əməliyyatla kifayətlənməli oldu. Yanvarın 25-26-da birinci kəşfiyyat taburunun Şuşa yaxınlığında Daşaltı kəndi istiqamətində əməliyyat keçirmək cəhdi də uğursuzluqla nəticələndi, 70 nəfərə yaxın ölən və yaralananlarla itgi verildi, 30 nəfərdən artıq adam itgin düşdü. Yanvar ayının sonunda erməni birləşmələri Dağlıq Qarabağdakı yaşayış məntəqələrini də zəbt etməyə başladılar. Onlar Sovet imperiyasının süqutundan sonra Rusiyanın tabeçiliyinə keçmiş hərbi hissələrin, o cümlədən 23-cü motoatıcı diviziyanın 366-cı motoatıcı alayı, 42-ci sərhəd dəstəsi, Xankəndi qarnizonunun əlahiddə taburunun xidmətlərindən geniş şəkildə istifadə edirdilər. Yanvarın 15-də Kərkicahan, fevralın 10-da Malıbəyli, Quşçular kəndləri işğal olundu. Fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndi işğal edildi. İşğal zamanı kəndin 92 nəfər müdafiəçisi və 54 nəfər sakini öldürüldü. Ermənilər 117 nəfər dinc sakini girov götürdülər, onlardan 77 nəfərini qətlə yetirdilər. Ermənilər kəndin yaxınlığındakı fermada 6 nəfəri diri-diri yandırdılar.

Fevralın birinci yarısınadək ermənilər Şuşa-Xocalı yolu və Şuşanın ətrafındakı yaşayış mətəqələrini ələ keçirdilər. Xocalı şəhəri tam mühasirəyə alındı, həmçinin hava nəqliyyatı vasitəsi ilə əlaqələr də kəsildi. Düşmənin zenit-

raket kompleksləri və zenit artilleriyası vertolyotların Xocalıya uçuşlar etməsinə imkan vermirdi. 1992-ci ilin fevralın 25-dən 26-a keçən gecə erməni silahlı dəstələri 366-ci motoatıcı alayla birlikdə hücuma keçərək Xocalı şəhərini və yaxınlıqda yerləşən aeroportu zəbt etdilər. Erməni silahlı dəstələri Rusiyanın 366-cı motoatıcı alayı ilə birlikdə Xocalı sakinlərinə qarşı dəhşətli soyqırım törətdilər. Xocalı Dağlıq Qarabağda Azərbaycan türklərinin yaşadığı qəsəbələrdən biri idi. Bu qəsəbə Ağdam-Şuşa, Xankəndi-Əsgəran yolu üzərində strateji əhəmiyyətli mövqeyə malik idi. Xocalının əhalisi 1991-ci ildə 7 min nəfər idi, burada Ermənistandan, Xankəndindən və Dağlıq Qarabağın digər yerlərindən qovulmuş Azərbaycan türkləri, həmçinin Özbəkistandan yerləşmiş məhsəti türkləri də məskulaşmışdılar. Ermənilər Xocalıya hücum zamanı "yandırılmış torpaq" taktikasını yeritdilər. Hücumdan əvvəl bir neçə saat ərzində qəsəbə toplar və zirehli texnikadan fasiləsiz atəşə tutuldu və xarabalığa çevrildi. Həmin dövrdə L.Ter-Petrosyan erməni ordusuna müraciətlə deyirdi: "Siz, Ermənilər düşməni öldürərkən ürəyi yumşaqlıq göstərməməlisiniz. Dağlıq Qarabağda azərbaycanlı deyilənləri qırıb qurtarana və orada öz sivilizasiyamızı bərqərar edənə qədər sizin düşmənə yazığınız gəlməməlidir". Sonralar əsir götürülmüş ermənilərin dedikləri bu vəhşi xəttin həyata keçirildiyini təsdiq edir. Mixail Qazaryan (Hadrut rayonunun sakini) bildirirdi ki, "Əlbəttə, mən müharibəyə getdiyimi başa düşürdüm, ancaq uşaqlara atəş açacağımı və hətta öldürəcəyimi ağlıma da gətirməzdim". Aşot Barxudaryan (Mehri rayonunun sakini) isə göstərirdi ki, "adamlar qışqırır, ağlayırdılar, bizim yaralıları çıxarırdılar, azərbaycanlılar isə yolun ortasında qalmışdılar, tanklar, zirehli texnika, yük maşınları onların üzərindən keçib gedirdilər". Rantik Mirzoyan (İrəvan şəhərinin sakini) isə belə xatırlayırdı: "Və burada mən bizimkilərin törətdikləri vəhşilikləri gördüm. Mən heç vaxt belə şey görməmişdim. Meyidlərin iyi hər yanı bürümüşdü. Hər yerdə meyidlər tökülüb qalmışdı". Ermənistanın indiki prezidenti Serj Sarkisyan isə ermənilərin həqiqi simasını açaraq xarici jurnalistlərə müsahibəsində bildirirdi: "Xocalıya qədər azərbaycanlılar elə bilirdilər ki, bizimlə zarafat etmək olar, onlar fıkirləşirdilər ki, ermənilər mülki əhaliyə əl qaldırmazlar. Biz bu streotipi dağıtdıq. Məhz bu baş verdi". Xocalının sağ qalmış sakinləri isə hadisələri xatırlamaqdan da dəhşətə gəlirlər. Sənubər Ələkbərova danışır ki, "meyidlərdən böyük bir dağ əmələ gəlmişdi, anamı güllələdilər, qızlarını Sevinc və Hicranı yaraladılar, güllə mənə də dəydi, gənc qadınlar və uşaqlar qarın üstündə ölürdülər". Cəmil Məmmədov belə xatırlayır ki, "mən 5 yaşlı nəvəmi və 14 min manat pulu götürərək meşəyə tərəf qaçdım, səhər başa düşdüm ki, uşaq soyuğa dözməyəcək, ona görə yaxınlıqdakı Naxçıvanik kəndinə getdim, orada ermənilər bizi əsir götürdülər, orada mənim dırnaqlarımı çıxardılar, təpiklə sifətimə zərbələr endirdilər, nəvəmi əlimdən aldılar, bu günə qədər onun taleyi haqda heç bir məlumatım yoxdur".

Səriyyə Talıbova isə daha dəhşətli hadisələrin şahidi olmuşdu: "Bizi erməni qəbirstanlığına gətirdilər.... Burada erməni döyüşçünün qəbri üstündə 4 məshəti türkünü və 3 azərbaycanlını qurban kəsdilər... Sonra valideynlərin gözləri qarşısında uşaqlara işgəncə verdilər və öldürdülər...Az sonra milli ordunun formasında azərbaycanlıları gətirdilər, ucu iti dəmirlə onların gözlərini çıxardılar. On bir yaşlı Ramil Həsənov xatırlayır ki, "dostlarım Elçin və Elgizin meşədə necə öldüklərini yadımdan çıxara bilmirəm, onların ayaqları donmuşdu, bizimlə qaça bilmirdilər, lal-dinməz qarın üstünə uzanmışdılar və yavaş-yavaş gözlərini yumurdular".

Xocalı soyqırımı dünyanın heç bir faciəsi ilə müqayisə oluna bilməz. Bu faciəni törətmiş millətə isə dünya birliyində yer yoxdur. Dünya bunu nə vaxtsa başa düşəcək və qərarını verəcəkdir. Rəsmi statistikaya görə, Xocalı soyqırımı zamanı 613 dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Xocalı üzərinə hücuma mayor Seyran Ohanyan (hazırda o, Ermənistanın Müdafiə naziridir), Yevgeni Nabokixi Valeri Çitçyan və erməni əsilli 50-dən artıq zabit və praporşl rəhbərlik etmişlər. Həmin dövrdə Xocalıdan Ağdama gətirilmiş 18 meyid (130 kişi,51 qadın, onlardan 13 uşaq) məhkəmə-tibbi ekspertizadan keçirilmişdir. Nəticədə müəyyən edilmişdir ki, 1 nəfər güllə, 20 nəfər qəlpə, 10 nəfər küt alətlərlə öldürülmüşdür, meyidlərin əksəriyyətinin baş dəriləri soyulmuşdur.

Ermənilər Xocalı üzərinə hərbi əməliyyat keçirmək məqsədi ilə hücum etməmişdilər. Onların məqsədi dinc əhaliyə divan tutmaqda ibarət idi. Onlar yaxşı bilirdilər ki, Xocalıda ciddi hərbi qüvvə yoxdur. Şəhərin az saylı müdafiəçiləri XTM dəstəsinin bir bölüyü yerli özünümüdafiə taburu və minomyot batareyasından ibarət idi. Əlif Hacıyevin rəhbərlik etdiyi bu qüvvələr axıra qədər müqavimət göstərdilər, lakin düşmənin dəfələrlə üstün qüvvəsi və texnikasını qarşısını ala bilmədilər. Şəhərin müdafiəçilərinin, demək olar ki hamısı qəhrəmanlıqla həlak oldular. Martın 5-6-da Azərbaycan hərbi komandanlığı Əsgəran, Xocalı istiqamətində əks-hücuma keçməyə cəhd göstərdi. Silahlı qüvvələrin bir neçə tankı Əsgəranın həndəvərinə yaxınlaşdı. Lakin daha ciddi nəticələrə nail ola bilmədilər və geri qayıtmalı oldular. Xocalı faciəsindən az sonra Rusiya hərbi komandanlığı 366-cı alayı Xankəndindən çıxardı, bu vaxt alayın 25 tankı, 87 zirehli piyada maşını, 28 digər zirehli texnikası, 45 artilleriya-minomyot sistemi erməni tərəfinə təhvil verildi. Ermənilər Xocalı faciəsindən sonra da vəhşiliklərini davam etdirirdilər. İşğalçılar martın 12-də Sırxavənd, Qaraşlar, Bəşirlər, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli kəndlərini zəbt edib yandırdılar. 1992-ci il aprelin 7-də Kəlbəcər rayonunun Ağdaban kəndi darmadağın edildi. Kənd tamamilə yandırıldı, 67 nəfər dinc sakin vəhşicəsinə qətlə yetirilidi, o cümlədən 90-100 yaşlı 8 qoca, 2 uşaq, 7 qadın diri-diri yandırıldı.

Aprelin 12-də ermənilər bəşəriyyət əleyhinə cinayət hesab olunan daha bir vəhşiliyə əl ataraq, Şuşanın müdafiəçilərinə qarşı kimyəvi silahdan istifadə etdilər. Bunun ardınca Ermənistanın silahlı birləşmələri aprelin 26-da Zəngilan rayonunun Qazançı və Dərəli kəndlərinə soxuldular.

Xocalı soyqırımından və ermənilərin törətdikləri digər vəhşiliklərdən sonra beynəlxalq təşkilatlar Qarabağ məsələsinə diqqəti artırdılar. Birləşmiş Millətlər Təşkilatı 1992-ci il martın 2-də Azərbaycanı öz üzvlüyünə qəbul etdi və bununla ölkəmizin müstəqilliyi, suverenliyi, Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü rəsmi qaydada tanıdı. 1991-1992-ci illərdə bir sıra vasitəçilik cəhdləri oldu. B.Yeltsin və N.Nazarbayevin birgə missiyası oldu. ABŞ-ın keçmiş dövlət katibi S.Vens BMT baş katibinin xüsusi nümayəndəsi kimi regiona gəldi. İranın qısamüddətli vasitəçiliyi oldu. ATƏM (ATƏT) isə vasitəçilik missiyasına təsadüf nəticəsində başladı. 1992-ci il yanvarın 30-da keçmiş SSRİ respublikalarının əksəriyyəti eyni vaxtda bu quruma üzv qəbul olundular. ATƏM-in Praqada keçirilən bu yığıncağının sonunda britaniyalı nümayəndə gözlənilmədən çıxış üçün söz istədi və bildirdi ki, bu gün üzv qəbul olunan ölkələrdən ikisi-Azərbaycan və Ermənistan müharibə vəziyyətindədir, bu məsələ ilə məşğul olmaq lazımdır. Oradaca qərara alındı ki, vəziyyəti öyrənmək üçün regiona missiya göndərilsin. Həmin il martın 24-də qurumun xarici işlər nazirlərinin Helsinki görüşündə təklif olundu ki, bu məsələ ilə bağlı sülh konfransı çağırılsın. Belorus nümayəndəsinin konfransın öz ölkəsinin paytaxtında keçirilməsi təklifi ilə hamı razılaşdı. "Minsk konfransı" ideyası belə yarandı. Sonra Ermənistamn işğalçı hərəkətləri ilə bağlı konfransı çağırmaq mümkün olmadı və "Minsk konfransı" "Misk qrupu"na çevrildi. Bu qrupun ilk sədri İtaliyanın xarici işlər nazirinin keçmiş müavini Mario Raffaeili oldu və onun ilk iclası Minskdə deyil, Romada keçirildi. Minsk qrupunun tərkibilə formalaşdırıldı və sonralar dəyişdirildi. Əvvəllər buraya Azərbaycana Ermənistan, Belorus, Çexoslovakiya, Fransa, Almaniya, İtaliya, Rusiya, İsveç, Türkiyə və ABŞ daxil idilər. Sonra Çexoslovakiyanın əvəzinə Avstriya, Finlandiya, Norveç daxil oldular.

Hərbi əməliyyatlarda 366-ci motoatıcı alayın və digər birloşmələrin ermənilər tərəfindən iştirakı Azərbaycanda olan rus hərbi hissələrinə qarşı münasibəti kəskinləşdirdi. Ona görə də Rusiya qoşunlarını Azərbaycandan çıxartmağa başladı. Bu şəraitdə əsasən AXC-nin təşəbbüsü ilə bir sıra hərbi hissələrin silah, sursat və texnikası tutulub saxlanıldı. 1992-ci ilin ilk 3-4 ayı ərzində Rusiyanın Azərbaycanda olan 4-cü ordusunun 4 reaktiv qurğusu, 14 tankı, 96 zirehli piyada maşını, 45 digər zirehli texnikası, 2929 ədəd atıcı silahı, 836 nəqliyyat vasitəsi ələ keçirildi. Eyni hadisələr Ermənistanda da baş verirdi. Rusiyanın orada yerləşdirilmiş 7-ci ordusunun komandanlığı silah arsenalının böyük hissəsini ermənilərin ixtiyarına verdi. Ermənilər 39 zirehli piyada maşını, 10

ədəd digər zirehli texnika, 8 "Qrad" qurğusu, 12 döyüş vertolyotu, 6 mindən artıq tank mərmiləri və s. zəbt etdilər.

Ermənistan 1992-ci ilin yazında hərbi qüvvələrini Şuşa istiqamətində cəmləşdirdi. İşğalçı qüvvələrə peşəkar zabit A.Ter-Tatevosyan başçılıq edirdi.

Ermənilər Azərbaycanın paytaxtında baş verən siyasi hadisələrdən öz məqsədləri üçün istifadə etməyə çalışırdılar. Mərkəzdəki hakimiyyət böhranı Azərbaycan silahlı qüvvələrinin durumuna mənfi təsir göstərir, döyüş qabiliyyətini aşağı salırdı. 1992-ci ilin aprelində polkovnik-leytenant Elbrus Orucov Şuşaya göndərildi, o, qüvvələri bir araya gətirərək yeni "Şuşa briqadası"nın formalaşdırmalı idi. O, həmçinin Şuşa, Laçın, Qubadlı, Zəngilanın komendantı təyin olunmuşdu. Onun səyləri heç bir nəticə vermədi. 1992-ci il mayın əvvəlində Şuşa qarnizonunun şəxsi heyəti 1500 nəfərdən ibarət olmalı idi, lakin onların yarıdan çoxu Müdafiə naziri R.Qazıyevin əmri ilə ezamiyyət və məzuniyyətə göndərilmişdi. Şəhərdə yalnız Şuşa briqadasının qərargahı, reyd dəstəsi, "Səbayıl" tank taburu, 5 rayondan gəlmiş könüllülərin dəstələri, yerli milis (polis) qüvvələri qalmışdı. Ermənistan böyük canlı qüvvə və texnika ilə mayın 7-də axşam Şuşa üzərinə hücuma başladı. Şəhərin az saylı müdafiəçiləri ağır döyüşlərdən sonra səhərisi gün Lıseqor aşırımından Laçına doğru geri çəkilməli oldular. Şuşa döyüşü bir gün davam etdi və hər iki tərəfdən 250-ə qədər adam öldü. Ermənilər öz itgilərinin 58 nəfər olduğunu bildirirdilər. Azərbaycan tərəfindən isə 159 nəfər həlak olmuş, 22 nəfər itgin düşmüşdü. Şuşanı son tərk edənlərin içərisində sonralar məşhur çeçen səhra komandiri olmuş Şamil Basayev də var idi. O, ANS telekanalına verdiyi müsahibəsində bildirirdi: "Şuşanı taleyin hökmünə buraxmışdılar. 700-ə yaxın erməni hücuma keçmişdi. O cür güclü qarnizon və o qədər silahla, həmçinin şəhərin strateji mövqeyini nəzərə almaqla 100 nəfərlik qüvvə şəhəri ən azından bir il müdafiə edə bilərdi. Amma təşkilatçılıq yox idi...". Sonrakı günlər ərzində ermənilər hücumu davam etdirərək mayın 18-də Laçını ələ keçirdilər. Laçın üzərinə hücum həm Şuşa, həm də Ermənistanın Gorus rayonu tərəfdən təşkil edilmişdi. Laçının 3 min nəfərdən artıq müdafiəçisi var idi. Lakin müdafiə təşkil olunmadığına görə heç bir müqavimət göstərilmədi, heç itgi də olmadı. Ermənilər Laçını tutmaqla Dağlıq Qarabağdan Ermənistana 20 km enində dəhliz əldə etdi. Ermənistan eyni zamanda Naxçıvanın Sədərək rayonunda Azərbaycan-Türkiyə sərhədinin bir hissəsinə hücum etdi. Hücumun qarşısı dərhal alındı, lakin bu hadisə Türkiyə-Rusiya münasibətlərini gərginləşdirdi. Şuşa və Laçında döyüşlərin davam etdiyi bir dövrdə, mayın 15-də Rusiyanın təşəbbüsü ilə Daşkənddə MDB dövlət başçılarının zirvə toplantısı keçirildi. Burada Rusiya işğal faktları ilə manipulyasiya edir, hadisələrin onun nəzarətində olduğunu göstərməyə, hər iki tərəfə öz şərtlərini qəbul etdirməyə çalışırdı. Toplantı iştirakçıları həmçinin "Adi silahlara dair" müqavilənin prinsipləri və həyata

keçirilmə qaydaları haqda saziş də imzaladılar. Sazişə görə, Azərbaycan və Ermənistanın hər biri 220 tank, 220 zirehli maşın, 285 artileriya qurğusu, 100 hərbi təyyarə, 50 döyüş vertolyotuna malik ola bilərdi. Cəbhədəki uğursuzluqlar və Azərbaycan rəhbərliyinin MDB çərçivəsindəki proseslərə qoşulmasına qarşı olan etirazlar Bakıda böhranı dərinləşdirdi, hakimiyyət dəyişikliyi baş verdi. AXC hakimiyyətə nəzarəti öz üzərinə götürdü. İsa Qəmbər parlamentinin sədri, Əbülfəz Elçibəy prezident seçildi.

1992-ci ilin yayında Ermənistan Dağlıq Qarabağda 20 min nəfərlik canlı qüvvə və 100-dən artıq zirehli texnika cəmləşdirərək geniş miqyaslı hücuma hazırlaşırdı. Erməni komandanlığı Ağcakəndi tərəfdən Xanlar istiqamətində irəliləməyi nəzərdə tuturdu. Bu məqsədlə həmin istiqamətdə yolların minadan təmizlənməsinə başlanılmışdı. Azərbaycan tərəfi düşmənin planları haqda məlumat alaraq, qabaqlayıcı addımlar atdı. Düşmənə qarşı hərbi əməliyyat planının hazırlanması və həyata keçirilməsinə Baş Qərargah rəisi general-leytenant Valeh Bərşadlı rəhbərlik edirdi. İyun ayının əvvəlində Milli Ordunun xeyli qüvvəsi (3-cü Əlahiddə motoatıcı briqadası, 4-cü tank briqadası, Tərtər, Goranboy, Xanlar, Mingəçevir, Lənkəran, Yevlax ərazi taburları, "Qurtuluş" taburu, daxili qoşunlar) gizli şəkildə cəbhə xəttinə yeridildi.

İyunun 12-də Azərbaycanın hərbi hissələri geniş miqyaslı döyüş əməliyyatlarına başladılar. Xanlar və Naftalan rayonlarının ərazisindən Şaumyan məntəqəsi istiqamətində güclü zərbə vuruldu. Eyni vaxtda Ağdərə, Əsgəran, Hadrut istiqamətlərində düşmənə zərbələr endirildi. Azərbaycan Ordusu sürət amilindən bacarıqla istifadə edərək 48 saat ərzində işğalçıları cənub istiqamətində geri oturdaraq Şaumyan bazasını ləğv etdi, həmçinin Əsgəran şəhərini iki istiqamətdən mühasirəyə aldı. İyunun 15-də ermənilər qüvvələrini səfərbər edərək əks-hücuma keçməyə cəhd göstərdilər. Əsgəran istiqamətində ağır döyüşlərdən sonra düşmən Azərbaycan Ordusunun hücumunu dayandıra bildi. Azərbaycanın hərbi hissələri bu istqamətdə yalnız 6 kəndi azad edə bildilər. Cəbhənin şimal hissəsində Azərbaycan Ordusu Ağdərə rayonunun içərilərinə doğru irəlilədi. İyunun 17-dən iyulun 9-a qədər Ağdərə (4 iyul), Marquşevan, Aterk kimi iri yaşayış məntəqələri azad edildi, Sərsəng su anbarının şimal sahili nəzarətə götürüldü. Azərbaycan rəhbərliyi beynəlxalq danışıqların yeni mərhələsinin başlanması ilə əlaqədar iyulun 9-da hərbi əməliyyatları dayandırdı.

Azərbaycan beynəlxalq vasitəçilərin tələblərini dərhal yerinə yetirirdi. Ermənilər isə, əksinə, yaranmış qısa fasilədən əlavə qüvvələr cəlb etmək üçün yararlandılar və iyulun 15-də əks-hücuma keçdilər. Nəticədə onlar itirilmiş ərazilərin bir hissəsini qaytardılar. Ağdərəyə yaxınlaşdılar. Avqust ayında Azərbaycan Ordusu yenidən güclü zərbə vuraraq düşməni geri çəkilməyə məcbur etdi, Sərsəng su anbarı tam nəzarətə götürüldü, 121 km məsafədə Ağdərə-Kəlbəcər

yolu açıldı. Əsgərlərimiz Tərtər çayını keçərək cənuba doğru irəlilədi. Azərbaycan Ordusu sentyabrın 2-də Çıldıran yaşayış məntəqəsinə çıxaraq 83 gün davam etmiş hücum əməliyyatını başa çatdırdı. Bu hücum əməliyyatı nəticəsində Dağlıq Qarabağ ərazilərinin yarısına qədəri Ermənistanın işğalından azad edildi. R.Koçaryan sonralar etiraf edirdi ki, "vəziyyət dəhşətli idi, Azərbaycan qoşunları Qarabağın 48 faizini tutmuşdu". Ermənistan ordusu ciddi tələfat verdi. Yalnız 3-cü əlahiddə motoatıcı briqadanın hücum istiqamətində düşmənin 2 min nəfər canlı qüvvəsi, 50-ə qədər zirehli texnikası, 16 artilleriya-minomyot sistemi məhv edilmişdi. 1992-ci ilin yayında çoxminli erməni axını Dağlıq Qarabağın cənubuna doğru axışırdı. Bu axın vidieolentə alınmışdır. Onlar Xankəndinə çatmağa can atırdılar. Yaşlı bir qadın kameranın obyektivinə qışqırırdı: "Kim bizi lənətləmişdir? Biz yiyəsiz yetimlərikmi ki, onlar bizə belə əzab verirlər?" Azərbaycan Ordusunun yaxınlaşmaq xəbəri çatan kimi hərbçilər və dinc əhali başıpozuq şəkildə qaçmağa başlayırdılar. Ağdərəyə girmiş Azərbaycan döyüşçüləri xatırlayırlar ki, heç bir müqavimət olmadı, şəhərə girdik, hamı qaçmışdı, yerdə bir dənə də olsun atılmış giliz yox idi, başlarını götürüb qaçmışdılar. Bu şəraitdə Azərbaycan Ordusunun qələbəsi çox yaxın idi. Yüksək səviyyəli bir erməni məmuru etiraf edir ki, "Stepanakertə (Xankəndinə) doğru gələn qaçqın sürüsünün qarşısını almaq mümkün deyildi, şəhərin müdafiəsi yox dərəcəsində idi, bu axının, fəlakətin qarşısını ruslar aldılar, erməni rəhbərliyi rusları məsələyə qarışmağa razı sala bildilər, rus döyüş vertolyotları havaya qalxdı, azərbaycanlılara ağır zərbə vurdu, bundan sonra hücum dayandı". Digər istiqamətlərdə tərəflər əsasən mövqe döyüşləri ilə kifayətlənirdilər. Ermənistan diqqəti Qarabağ cəbhəsindən yayındırmaq məqsədilə Qazax və Gədəbəy rayonları istiqamətində hücuma keçdi. Birbaşa Ermənistan ərazilərindən həyata keçirilən hücumlar dinc əhalinin məhv edilməsinə yönəlmişdi. Düşmən 1992-ci ilin mart-iyun ayları ərzində Qazax rayonunun Xeyrimli (8 mart), Aşağı Əskipara (12 mart) Barxudarlı (27 aprel), Sofulu (27 aprel), Qızıl Hacılı (11 may) Yuxarı Əskipara (8 iyun) kəndlərini işğal etdi. Azərbaycan ordusu Gədəbəy rayonu istiqamətində ermənilərin hücumlarının qarşısını almaq üçün 1992-ci il avqustun 8-də əks hücuma keçdi. Ağıq döyüşlərdən sonra Ermənistan Daxili İşlər nazirliyi sərhəd alayının hissələri geri çəkildilər və Başkənd yaşayış məntəqəsi azad edildi.

Sentyabr ayının əvvəlində Azərbaycan Ordusunun Baş Qərargahı rəisi general-leytenant Valeh Bərşadlının istefaya göndərilməsi dərhal öz mənfi nəticələrini göstərdi. Yeni rəhbərlik Dağlıq Qarabağın şimalında əldə olunmuş uğurları davam etdirmək əvəzinə əsas zərbəni Laçın dəhlizi istiqamətinə yönəltdi. Sentyabrın 18-də dəhlizin şimal səmtinə doğru hərbi əməliyyat başladı. Eyni vaxtda 3-cü dağatıcı alay paraşut desant dəstəsi ilə birlikdə Qarabağı dağlarından Şuşa istiqamətinə zərbə endirdilər. Üçüncü zərbə Xocavənd istiqamətinə

yönəldildi. İlk iki gün ərzində qoşunlarımız ermənilərin müdafiə xəttini yararaq irəlilədilər. Xocavənd şəhəri azad edildi, Azərbaycan ordusunun hissələri Laçına yaxınlaşdılar. Rusiya dərhal məsələyə müdaxilə etdi və danışıqların bərpa edilməsinə nail oldu. Rusiyanın təkidi ilə hərbi əməliyyatlar sentyabrın 21-də dayandırıldı. Azərbaycan hərbi əməliyyatların gedişini öz xeyrinə dəyişmək imkanını əldən verdi. Ermənilər əlavə silah və texnika almaq üçün Rusiyaya müraciət etdi. L.Ter-Petrosyan B.Yeltsinlə olan xoş münasibətlərindən də istifadə edirdi. Onun özünün bildirdiyinə görə, Ermənistana silah B.Yeltsinin birbaşa tapşırığı ilə göndərilirdi. Sonralar rus generalı L.Roxlin rəsmi açıqlamasında 1995-1996-cı illər ərzində Rusiyanın Ermənistana 1 milyard ABŞ dolları dəyərində silah-sursat, o cümlədən, 84 ədəd T-72 tankı, 50 ədəd BMP-2 verməsini bildirməklə yanaşı həmçinin qeyd edirdi ki, 1992-ci ilin avqustundan 1994-cü ilin iyununa qədər Mozdokdakı rus hərbi bazasından Ermənistana külli-miqdarda silah-sursat göndərilmişdir. Qeyd olunmalıdır ki, yüksək səviyyəli 3 rus generalı - P.Qraçov, F.Reut, M.Kolesnikov ermənipərəst mövqeləri ilə xüsusi fərqlənmiş və ermənilərə hərtərəfli yardım göstərilməsi üçün həmişə canfəşanlıq etmişlər. P.Qraçov Rusiyanın müdafiə naziri, F.Reut əvvəllər Rusiyanın Ermənistandakı 7-ci ordusunun komandanı, sonra isə Zaqafqaziya hərbi dairəsinin komandanı, M.Kolesnikov həmçinin əvvəl 7-ci ordunun komandanı, sonra isə Rusiya silahlı qüvvələrinin Baş qərargah rəisi kimi bu yardım göstərmək üçün geniş imkanlara malik olmuşlar.

1992-ci ilin payızında iri miqyaslı əməliyyatlar həyata keçirilmədi. Ermənistan vəziyyətdən istifadə edərək bəzi yaşayış məntəqələrini, o cümlədən sentyabrda Ağdam, oktyabrda isə Xocavənd rayonlarının bəzi kəndlərini zəbt etdi. Noyabrın 16-da errnəni birləşmələri Ağdam şəhərinin həndəvərinə yaxınlaşdılar. Düşmən Bakı hərbi məktəbinin kursantlarından təşkil olunmuş taburun qüvvəsi ilə geri oturduldu. Noyabrın 23-də Azərbaycan daxili qoşunlarının bir alayı Dağlıq Qarabağın şimal hissəsində hücuma keçdi və Sırxavənd yaşayış məntəqəsini tutdu, lakin əlavə qüvvə gəlmədiyinə görə bir gündən sonra kəndi tərk etməli oldu.

Daha çox fəallıq Laçın dəhlizi zonasında hiss olunurdu. Oktyabr-dekabr aylarında tərəflər dəfələrlə dəhlizin cənub və şimal hissələrindəki həlledici məntəqələri ələ keçirməyə cəhd göstərdilər. İşğalçı Ermənistanın hərbi komandanlığı Azərbaycan Ordusunun diqqətini Laçın dəhlizindən yayındırmaq məqsədilə dekabrın 10-12-də 15 km ölkənin içərisinə doğru irəlilədi. Qubadlı və Zəngilan rayonlarının Şayıflı, Seidlər, Ərkənd, Bərəli, Qazançı, Günqışlaq, Pirveyisli, Canbar, Yuxarı Qayalı kəndlərini zəbt etdi. Ermənilərin bu hücumu nəticəsində 23 nəfər öldürüldü, 40 nəfər yaralandı, 60 nəfər itkin düşdü. Azərbaycan Ordusunun əks-hücumları ciddi nəticə vermədi. Bundan sonra

qoşunlarımız hərbi əməliyyatları yenidən cəbhənin şimal kəsiyinə yönəltdilər. 1993-cü il yanvarın 15-də Çıldıran, Sırxavənd istiqamətində irimiqyaslı hücum başlandı. Hücum əməliyyatına 703-cü motoatıcı briqadanın hissələri, dəniz piyadası, daxili qoşunlar, Tərtər taburu cəlb olunmuşdu. Fərrux və "Qlobus" yüksəklikləri yaxınlığında gərgin döyüşlər baş verdi. Lakin Azərbaycan ordusu qələbə qazana bilmədi və geri çəkilməli oldu. Azərbaycan rəhbərliyi hücumun dayandırılması və müdafiəyə keçilməsi haqda əmr verdi. Bu yanlış qərar 1993-cü ilin uğursuzluqlarına gətirib çıxarmış əsas amillərdən biri oldu.

### *İşğalçı Ermənistanın irimiqyaslı hərbi yürüşləri*

Ermənistan 1993-cü ilin əvvəlində Rusiyanın dəstəyi ilə silahlı qüvvələrini yüksək hazırılıq vəziyyətinə gətirdi. Əlavə ümumi səfərbərlik həyata keçirildi, yeni silah, sursat və texnika əldə edildi. Ermənistandakı rus qoşunlarının silah arsenalı ermənilərin ixtiyarına verildi. Rusiyanın hərbi mütəxəssisləri və canlı qüvvəsi hərbi əməliyyatların hazırlanması və həyata keçirilməsinə cəlb olundu. Azərbaycan isə yenidən hakimiyyət böhranı ilə üzləşdi. Hakimiyyət daxilində, orduda, ölkənin ayrı-ayrı ərazilərində Rusiya xüsusi xidmət orqanları tərəfindən təxribatlar törədildi. Belə bir vəziyyətdə Ermənistan böyük qüvvələrlə genişmiqyaslı işğalçı hücumlara başladı.

1993-cü il fevralın 5-də Ermənistan ordusu cəbhənin şimal kəsiyində, Çıldıran rayonu ərazisində güclü artilleriya hazırlığından sonra hücuma keçdi. Bu hücumda ermənilər tərəfdən Rusiyanın 127-ci motoatıcı diviziyasının 128-ci alayının hissələri, Don və Kuban kazaklarının muzdlu birləşmələri də iştirak edirdi. Ermənilər 3 gün ərzində Sərsəng su anbarına doğru 10 km irəlilədilər və 7 yaşayış məntəqəsini ələ keçirdilər. Burada onlar desant-hücum briqdamızın əks hücumu ilə dayandırıldılar. Az sonra işğalçılar hücumu yenidən bərpa etdilər, fevralın 17-də Qozlu körpü və Heyvalı kəndlərini tutdular, fevralın 23-də isə Sərsəng Su Elektrik stansiyasının ərazisinə soxuldular. Hərbi birləşmələrimiz onların qarşısını yalnız burada ala bildilər. Düşmənin bir neçə dəfə Ağdərə istiqamətində hərəkət etmək cəhdlərinin qarşısı alındı. Bundan sonra ermənilər istiqaməti dəyişərək Kəlbəcər üzərinə hücuma keçdilər. Ermənilər Kəlbəcər üzərinə hücumu Rusiya rəhbərliyinin razılığı və göstərişi ilə həyata keçirirdi. Azərbaycanın Rusiyadakı keçmiş səfiri H.Hacızadə xatırlayır: "Səfir işlədiyim dövrdə ruslardan 3 müqavilə layihəsi aldım. Bu, 1992-ci ilin sonunda başladı. Məsələn, onlar deyirdilər ki, Rusiya qoşunları burada dayanacaq, müharibə müvəqqəti dayandırılacaq, danışıqlar başlayacaq. Biz onlara etiraz edirdik ki, bu Kipr variantı ola bilər. Onlar isə bizi Kəlbəcərin

götürülməsi ilə hədələyirdilər". İşğalçıların martın 27-də başladıqları hücum əməliyyatı 4 istiqamətdən-Ermənistanın Vardenis və Çermux rayonları, Dağlıq Qarabağın şimal-qərb kəsiyi, həmçinin Laçın dəhlizi tərəfindən həyata keçirilirdi. Əməliyyata Ermənilər tərəfdən çoxlu sayda tank, artilleriya, "Qrad" qurğuları, Mi-24 döyüş vertolyotları, dövlət mənsubiyyəti məlum olmayan qırıcı təyyarələr cəlb olunmuşdu. Döyüşlərdə Rusiyanın 127-ci motoatıcı diviziyası və 12-ci xüsusi təyinatlı briqadasının hissələri, həmçinin rus zabitlərinin idarə etdikləri 10 tank iştirak edirdi. Düşmən martın 27-28-də Kəlbəcər rayonunun Ağqaya, Mərcimək, Təzəkənd, Ağcakənd, Narışlar kəndlərini zəbt etdi. Martın 31-də isə güclü artilleriya atəşindən sonra daha 12 kənd işğal olundu. Hücum əməliyyatı başlayandan 3 gün sonra ermənilər hakim yüksəklikləri, Laçın-Kəlbəcər yolundakı strateji əhəmiyyətli tuneli tutaraq Kəlbəcər rayon mərkəzinə yaxınlaşdılar. Kəlbəcərdə olan hərbi qüvvələrimiz müdafiə döyüşləri aparır və əhalinin vertolyotlarla çıxarılmasını təmin etməyə çalışırdılar. Aprelin 2-də axşam işğalçılar Kəlbəcər şəhərini zəbt etdilər. Azərbaycan Ordusunun hissələri Kəlbəcəri tərk edərək Murovdağ aşırımı ilə geri çəkildilər. Kəlbəcərin müdafiəçiləri çox az idi, onlar ciddi müqavimət göstərə bilmədilər və düşmən demək olar ki, heç bir itgi vermədi. Kəlbəcər rayonunun zəbt edilməsi işğalçı Ermənistanın yanlız Dağlıq Qarabağın inzibati sərhədləri və "Laçın dəhlizi" ilə kifayətlənmək niyyətində olmadığını açıq şəkildə göstərdi. Azərbaycan rəhbərliyi yaranmış vəziyyətdən düzgün nəticə çıxararaq bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirdi. Aprelin 6-da bütün ölkə üzrə fövqəladə vəziyyət rejimi elan olundu, çağırışçıların və ehtiyatda olan hərbçilərin səfərbərliyinə başlanıldı. Hərbi komandanlığa 1993-cü ilin yayında əks hücum kampaniyasının hazırlanıb həyata keçirilməsi tapşırıldı.

Aprelin birinci yarısında Ermənilər cəbhənin cənub kəsiyində də fəallaşdılar. Aprelin 2-də düşmən Füzuli rayonunun Qacar, Divanlılar və Gövşadlı kəndlərini zəbt etdi. Füzuli şəhərini zəbt etmək məqsədilə bir neçə ciddi cəhd göstərildi. Bakıdan göndərilmiş Prezident qvardiyasının, yerli piyada briqadasınm, sərhəd dəstəsinin birgə keçirdiyi əks hücum nəticəsində düşmən ağır zərbə alaraq geri çəkilməli oldu. Aprelin 20-də cəbhənin bu hissəsində vəziyyət stabilləşdi. Lakin bu operativ pauza yalnız iyunun 12-ə qədər davam etdi. Həmin gün işğalçı Ermənistan cəbhənin cənub kəsiyində irimiqyaslı hücum əməliyyatına başladı. Bu vaxt Azərbaycanda hakimiyyət böhranı kəskin həddə çatmışdı. Gəncədə polkovnik Surət Hüseynovun başçılığı altında mərkəzi hakimiyyətə qarşı qiyam qaldırılmışdı. Burada yerləşən 709-cu motopiyada briqadasının bütün şəxsi heyəti qiyamçılara qoşulmuşdu. S.Hüseynov Qarabağ müharibəsinin gedişində xüsusi xidmətlər göstərmiş şəxslərdən biri idi, lakin siyasi səriştəsi olmadığına görə özü də bilmədən Rusiyanm xüsusi xidmət orqanlarının və Azərbaycanda hakimiyyətə can atan bəzi qüvvələrin istəklərinin icraçısına və qurbanına

çevrilmişdi. İyunun 4-5-də Gəncədə hökumət qüvvələri ilə qiyamçılar arasında silahlı qarşıdurma baş verdi, 60 nəfərdən artıq adam öldürüldü. Qiyamçılar silah və texnika cəhətdən ciddi üstünlüyə malik idilər. Bir həftə əvvəl Rusiyanın 104-cü hava-desant diviziyası silah, sursat və texnikasını, o cümlədən 105 zirehli texnikasını, 42 artilleriya-minomyot sistemini S.Hüseynova təhvil verərək ölkəni tərk etmişdi. Az sonra Milli Ordunun 707-ci briqadası və bir sıra digər birləşmələri də qiyamçıların tərəfinə keçdilər. S.Hüseynov ətrafında böyük hərbi qüvvə cəmləşdirərək Gəncəni tam nəzarətə götürdü və hökumətin istefası tələbi ilə Bakı üzərinə yeridi. İyunun 10-da qiyamçı qüvvələr paytaxtın həndəvərinə yaxınlaşdılar, ölkənin şimal-qərb və mərkəzi rayonları onların nəzarəti altına keçdi. Mərkəzi hakimiyyət, o cümlədən hərbi strukturlar tam iflic vəziyyətinə düşdü. Digər tərəfdən, beynəlxalq təşkilatlar Kəlbəcərin işğalından sonra hərbi əməliyyatların geniş miqyas alacağından ehtiyat edərək ciddi şəkildə fəallaşmışdılar. Hətta Kəlbəcərdən Ermənistan işğalçı qüvvələrinin iyun ayının ortalarına qədər çıxarılmasına dair beynəlxalq vasitəçilər tərəfindən konkret sənəd hazırlanmış, qrafik müəyyən edilmişdi. Beynəlxalq təşkilatların təzyiqləri qarşısında Ermənistan rəhbərliyi də həmin sənədi imzalamışdı. Məhz bu şəraitdə Ermənistan həm Kəlbəcərin boşaldılması ilə bağlı razılaşmanı pozmaq, həm də Azərbaycandakı hakimiyyət böhranından yararlanaraq işğalçı planlarını əsasən başa çatdırmaq məqsədi ilə geniş miqyaslı əməliyyatlara başladı.

1993-cü il iyunun 12-də səhər işğalçı Ermənistan ordusu Ağdam və Ağdərə istiqamətində hücum əməliyyatına başladı. Ermənilər iyunun 12-də hücuma keçməklə bir il əvvəl məhz həmin tarixdə Azərbaycan Ordusunun uğrulu döyüş əməliyyatlarına başladığını xatırladır və torpaqları zəbt etmək niyyətləri ilə yanaşı qisasçılıq hissi ilə yaşadıqlarını da nümayiş etdirirdilər. Ermənistan hücum əməliyyatına 6 min nəfərdən artıq canlı qüvvə, 75-ə qədər zirehli texnika, Mi-24 döyüş vertolyotları eskadriliyasını cəlb etmişdi. Döyüşlərin ilk 3 günü ərzində ermənilər Ağdamın şimaldan 5 km, cənubdan isə 10-15 km-liyinə yaxınlaşaraq şəhəri iki tərəfdən mühasirəyə aldılar. Ağdama əlavə qüvvələr gətirildikdən sonra qoşunlarımız iyunun 18-də əks hücuma keçdilər və düşməni ilkin mövqelərinə qədər geri oturtdular. Ermənilər Ağdamda uğur qazana bilmədiklərinə görə əsas qüvvələrini Ağdərə istiqamətinə yönəltdilər. İşğalçılar ağır döyüşlərdən sonra iyunun 26-da Ağdərəni ələ keçirdilər. Bu döyüşlərdə suriyalı ermənilərdən təşkil olunmuş tabur xüsusi fəallıq göstərirdi və on çox itgi verən də həmin tabur oldu. Ermənilər Ağdərənin işğalından sonra böyük qüvvələrlə Ağdam üzərinə yeridilər. Bu dəfə işğalçılar 4 piyada alayı, 2 tank batalyonu (60 tank), 5 artilleriya divizionu (120 artilleriya sistemi), 1 vertolyot eskadrilyası (10-a qədər Mi-24 vertolyotu), 1 desant-hücum alayı ilə hücuma keçmişdilər. Düşmən iyun ayı ərzində Ağdam rayonunun Papravənd, Boyəhmədli, Qalayçılar, Əlimədədli, Cinli, Əliağalı

kəndlərini tutaraq Ağdam şəhəri istiqamətində irəlilədi. Ermənilər 6 dəfə Ağdam üzərinə hücum təşkil etdilər. Ermənilər iyulun 5-də Şelli, iyulun 21-də Muğanlı və Şıxbabalı, iyulun 22-də Mərzili, Novruzlu, Yusifcanlı, Qiyaslı, Xıdırlı, Sarıcalı, Muradbəyli kəndlərini tutaraq Ağdam şəhərinə daxil oldular. Düşmən bir neçə dəfə şəhərə daxil olsa da, hər dəfə küçə döyüşlərindən sonra geri çəkilməyə məcbur olurdu. Şəhərin müdafiəçiləri qəhrəmanlıqla vuruşurdular, lakin qüvvələr bərabər deyildi, əlavə kömək isə gəlmirdi. Qırx iki günlük fasiləsiz ağır döyüşlərdən sonra Ağdam briqadasının az sayda sağ qalmış döyüşçüləri iyulun 23-də axşam şəhəri tərk etdilər. Şəhərdə qalmış bəzi kiçik qruplar bundan sonra da bir neçə gün ərzində küçə döyüşlərini davam etdirirdilər. Ermənilər Ağdamı tam nəzarətə götürmək üçün qorxu içərisində bir müddət də çalışmalı oldular. Öldürülmüş şəhər ölümündən sonra da erməniləri vahimə içərisində saxlayırdı.

Cəbhədə gedən ağır döyüşlərlə paralel olaraq hakimiyyət böhranı da dərinləşir və qiyamçılar daha kəskin tələblər qoyurdular. İyunun 15-17-də hakimiyyət dəyişikliyi başa çatdırıldı, Heydər Əliyev və Surət Hüseynov hakimiyyətə nəzarəti öz üzərlərinə götürdülər. Hakimiyyət dəyişikliyi, silahlı qüvvələrin idarə olunması sisteminin iflic vəziyyətinə salınması Milli Ordunun döyüş qabiliyyətinə, mənəvi psixoloji durumuna ağır zərbə vurdu. İyulun 19-da müharibənin gedişində sınaqdan çıxmış korpuslar sistemi ləğv edildi və əvəzində Səhra cəbhəsi deyilən bir qurum yaradıldı, üstəlik döyüş təcrübəsinə malik olan könüllülərdən ibarət 33 tabur buraxıldı. Döyüşlərin davam etdiyi bir dövrdə və tələm-tələsik həyata keçirilən bu və digər tədbirlər özünü doğrultmadı. Ölkənin cənub rayonlarında daha bir qiyam ocağının yaranması ilə vəziyyət daha da gərginləşdi. Əlikram Hümbətovun rəhbərlik etdiyi bir qrup qiyamçı "Talış-Muğan respublikası"nın yarandığını elan edərək cənub bölgəsinin bəzi rayonlarını öz nəzarətləri altına götürdülər. Regionda yerləşən 704-cü motopiyada briqadası və 4-cü Sərhəd dəstəsinin iyul-avqust ayları ərzində qiyamçıların tərəfinə keçməsi vəziyyəti böhranlı həddə çatdırdı. Bu şəraitdə Azərbaycan rəhbərliyi cəbhəyə getməli olan bəzi hərbi birləşmələri qiyamçılara qarşı göndərmək məcburiyyətində qaldı.

Ermənilər qısa müddətli operativ fasilədən sonra qüvvələri yenidən qruplaşdıraraq hərbi əməliyyatları bərpa etdilər. Bu dəfəki əməliyyatın məqsədi Füzuli və Cəbrayıl rayonlarını işğal edərək Horadiz yaşayış məntəqəsi yaxınlığında İran sərhəddinə çıxmaq, Qubadlı və Zəngilan rayonlarını mühasirə vəziyyətinə salmaqdan ibarət idi. Erməni işğalçıları Füzuli və Cəbrayıl şəhərləri istiqamətində hücuma başladılar. Ermənilər təkcə Füzuli istiqamətində ən azından 35 ədəd T-72 tankından istifadə edirdilər. Ağır döyüşlərdən sonra qoşunlarımızın döyüş xətti yarıldı. İyulun 4-də Füzuli rayonunun Arış, Qoçəhmədli, Qaracalı, Xatınbulaq, Gorazıllı, iyulun 24-də Cuvarlı, avqustun 15-də Aşağı Veysəlli, Yuxarı Yağlıvənd

kəndləri, Cəbrayıl rayonunun Sur, Banazur, Quşçular, Qışlaq kəndləri işğal olundu. Döyüşçülərin geri çəkilməsi əsasən əlavə qüvvələrin və silah-sursatın vaxtında gətirilməməsi ilə bağlı idi. Cəbrayıl şəhəri 3 dəfə əldən-ələ keçdi, lakin düşmənin artan təzyiqlərinin qarşısını almaq mümkün olmadı. Avqustun 23-də Cəbrayıl şəhəri, avqustun 25-də isə rayon əsasən işğal edildi. Rayonun müdafiəsi zamanı yerli özünümüdafiə və Lənkəran taburları ciddi itkilər verdilər. Füzuli şəhəri Milli Ordunun 160-cı alayı və yerli briqada tərəfindən müdafiə olunurdu. Düşmən ağır döyüşlərdən sonra Füzulinin yaxınlığındakı Məngələn Ata yüksəkliyini, avqustun 23-də isə şəhərin özünü işğal etdi. İşğalçılar avqust ayının sonunda həm Ermənistan ərazilərindən, həm də Qarabağın zəbt edilmiş ərazilərindən Qubadlı rayonu istiqamətində hücuma başladılar. Avqustun 31-də Qubadlı şəhəri işğal edildi, rayonun şimal hissəsi sentyabrın 2-də zəbt olundu.

Sentyabrın əvvəlində işğalçı qoşunlar Azərbaycan-İran sərhəddinə çıxdılar. Müharibəyə digər dövlətlərin də qoşulması perspektivi yarandı. Türkiyə hərbi komandanlığı 3-cü Səhra ordusunun əsas qüvvələrini Ermənistanla sərhəd xəttinə yaxınlaşdırdı, 12-ci və 13-cü mexanikləşdirilmiş briqadaları Rusiyanın Gümrüdə (Ermənistan) yerləşdirilmiş 127-ci motoatıcı diviziyasmın qarşı tərəfinə yeritdi və hərbi aviasiya hissələrində yüksək döyüş hazırlığı vəziyyəti elan etdi.

Eyni zamanda Rusiyanın Cənubi Qafqazdakı qoşunlar qrupunun komandanlığı 127-ci motoatıcı diviziyada hərbi təlimlərə başladı. Bu təlimlərdə Türkiyənin Ermənistan ərazilərinə hücumu və onun qarşısının alınması yolları ilə bağlı məsələlər qoyulmuşdu. İran Azərbaycanla sərhədlərə böyük hərbi qüvvələr, o cümlədən nizami ordunun 21-ci piyada diviziyası, İslam inqilabı keşikçiləri korpusunun 31-ci diviziyasını yeritdi. İran komandanlığı həmçinin Araz çayı boyunca "Səhənd" hərbi təlimlərinə başladı.

Ermənistan işğalçı niyyətlərini tam şəkildə reallaşdırmaq məqsədi ilə 1993-cü ilin oktyabr ayında yenidən fəallaşdı. Düşmənlər oktyabrın ortalarında cəbhənin cənub kəsiyində yeni əməliyyata başladılar. Oktyabrın 23-də erməni silahlı birləşmələri 12 tankla Horadiz üzərinə yeridilər. Düşmən bu vacib nəqliyyat qovşağını ələ keçirərək, Zəngilanın, həmçinin Cəbrayıl və Qubadlı rayonlarının hələ işğal olunmamış yaşayış məntəqələrinin Azərbaycanın digər əraziləri ilə əlaqəsini kəsdi. Mühasirə vəziyyətinə düşmüş Zəngilan alayının az saylı qüvvələri işğalçılara ciddi müqavimət göstərə bilmədilər. İşğalçılar hücumu genişləndirərək, Ermənistanın Qafan və Mehri ərazilərindən yeni qüvvələrlə, o cümlədən 40 ədəd zirehli texnikanın iştirakı ilə Zəngilanın içərilərinə doğru irəlilədilər. Ağır döyüşlərdən sonra düşmən oktyabrın 28-də Mincivan dəmiryol stansiyasını, oktyabrın 29-da isə Zəngilan rayon mərkəzini və ətrafdakı yaşayış məntəqələrini zəbt etdi. Zəngilan alayının şəxsi heyəti, həmçinin dinc əhali Araz çayını keçərək İran ərazisinə getməli oldu. 1993-cü ilin 8 ayı ərzində Azərbaycan Dağlıq

Qarabağın ətrafındakı 6 böyük rayonunu itirərək ağır duruma düşdü. Ermənistan işğalçı planlarını əsasən yerinə yetirdi. Bu vaxt ərzində davam edən fasiləsiz hakimiyyət böhranları qoşunlarımızın ciddi müqavimət göstərməsinə imkan vermədi. Digər tərəfdən, Rusiyanın ermənilərə açıq şəkildə hərbi və siyasi dəstək verməsi, rus hərbiçiləri, silah və texnikasının ermənilər tərəfdən hərbi əməliyyatlarda iştirakı da həlledici amillərdən oldu. Beynəlxalq təşkilatlar işğal faktı qarşısında ciddi addımlar atmaq, işğalçı Ermənistanı cəzalandırmaq əvəzində qeyri-müəyyən ibarələrdən ibarət qərar, qətnamə və bəyanatlarla kifayətləndilər. BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 822, 853, 874, 884 saylı dörd qətnamə qəbul ctdi. Bu sənədlərdə Azərbaycanın işğal edilmiş ərazilərinin azad olunması tələbi qoyulur, lakin işğalçı tərəf kimi "yerli erməni qüvvələri" göstərilirdi. 884 saylı qətnamədə isə Ermənistana təklif olunurdu ki, "Dağlıq Qarabağ ermənilərinin qətnamələrə riayət etməsi üçün öz təsir imkanından istifadə etsin". Bu cür absurd sənədlərlə münaqişənin nizama salınması mümkün deyildi.

1993-cü ilin sonu üçün cəbhədə vəziyyət bir qədər dəyişdi. Azərbaycanın hərbi-siyasi rəhbərliyi bir sıra vacib tədbirlər həyata keçirdi. Mərkəzləşmiş komandanlıq və idarəetmə sistemi təkmilləşdirildi, təlim mərkəzləri və poliqonlarda döyüş hazırlığının səviyyəsi yüksəldildi, MDB-nin ayrı-ayrı yerlərindən Azərbaycanlı zabitlərin Milli Orduya cəlb olunması prosesi intensivləşdirildi. Noyabrın 2-dən etibarən Milli Orduya könüllülərin geniş şəkildə cəlb olunmasına başlanıldı. 1993-cü ilin oktyabrından 1994-cü ilin mayına qədər Silahlı qüvvələrə 4 çağırış həyata keçirildi. Xaricdən silah və texnika alındı, bir sıra xarici dövlətlərlə hərbi əməkdaşlıq genişləndi. Bu tədbirlərin nəticəsində Milli Ordunun döyüş qabiliyyəti xeyli yüksəldi.

Ermənistan daha çox zəbt etdiyi ərazilərdə möhkəmlənməyə, müdafiə səddləri yaratmağa diqqət yetirirdi. İşğalçı dövlətin daxili ehtiyatları dəfələrlə həyata keçirilən çağırışlar nəticəsində xeyli tükənmişdi. Ona görə də daha çox xaricdən muzdluları cəlb etməyə çalışırdılar. Bu dövrdə Rusiyanın Ermənistanda yerləşən 127-ci motoatıcı diviziyası və sərhəd qoşunları hərbiçilərinin müqavilə əsasında erməni ordusuna cəlb olunması halları çoxalmışdı. Muzdluların sayı xeyli artmışdı: 1993-cü ilin noyabrında Qarabağda Rusiyanın Sakit okean donanması dəniz piyada taburunun 480 keçmiş hərbi qulluqçusu, ABŞ, Avropa, Yaxın Şərqdəki erməni diaspor təşkilatlarının cəlb edib göndərdikləri 870-dən artıq muzdlu, Şimali Qafqazdan gətirilmiş 1200-ə qədər kazak ermənilər tərəfdən vuruşurdu. Bu vaxt Ermənistanın hərbi-siyasi rəhbərliyində qarabağlı ermənilərin təsiri güclənirdi. Müdafiə naziri S.Sarkisyanın başçılıq etdiyi qrup işğalçı əməliyyatların Beyləqan istiqamətində davam etdirilməsini tələb edirdi.

1993-cü il dekabrın 10-da Ermənistanın işğalçı qüvvələri Beyləqan rayon mərkəzi istiqamətində yeni hücuma başladılar. Qoşunlarımız ciddi müqavimət

göstərərək tezliklə düşmənə əks zərbə vurdular və geri çəkilməyə məcbur etdilər. Dekabrın 15-dən başlayaraq Azərbaycan Ordusu beş əməliyyat istiqamətində -Füzuli, Xocavənd, Ağdam, Ağdərə, Kəlbəcər istiqamətlərində əks hücuma keçdi. Əsas zərbə cəbhənin cənub kəsiyində Füzuli, Horadiz istiqamətində endirildi. Ciddi manelərə, ərazinin böyük hissəsinin minalanmasına baxmayaraq, qoşunlarımız düşmənin müdafiə xəttini yardı və Araz çayı boyunca Füzuli rayonunun içərilərinə doğru irəlilədi. Yanvarın əvvəli üçün 11 yaşayış məntəqəsi və Azərbaycan-İran sərhəddinin 40 km-lik hissəsi azad edildi. Yanvarın 8-də 702-ci alayın hissələri düşmənin müqavimətini qıraraq döyüşlərlə Horadizə daxil oldu, qəsəbəni, dəmiryol stansiyasını və Xudafərin körpüsünü azad etdi. Yanvarın 26-da Azərbaycan Ordusu düşmənin artan müqavimətini sındıraraq Füzuli və Cəbrayıl rayon mərkəzlərinin həndəvərinə çıxdılar. Lakin bundan sonra hücumu davam etdirə bilmədilər. Xocavənd və Ağdam istiqamətlərində qoşunlarımız bir qədər irəlilədilər, lakin ciddi nəticələrə nail ola bilmədilər. Cəbhənin Tərtər-Ağdərə hissəsində ağır döyüşlərdən sonra 3 yaşayış məntəqəsi azad edildi və hərbi hissələrimiz Sərsəng su anbarına yaxınlaşdılar. Lakin burada da hücum əməliyyatı dekabrın 31-dayandırıldı.

Cəbhənin şimal kəsiyində 701-ci briqadanın birləşmələri yanvarın 20-də ağır döyüşlərdən sonra Ömər aşırımından keçərək Kəlbəcər rayonunun ərazisinə daxil oldular. Qoşunlarımız yaşayış məntəqəsini düşməndən təmizlədilər və Kəlbəcər-Ağdərə yoluna çıxdılar. Ermənilər dərhal Rusiyanın nəqliyyat vasitələri ilə buraya Ermənistanın daxili rayonlarından, o cümlədən Vardeni bazasından əlavə qüvvələr gətirdilər. Yanvarın 21-22-də düşməni bir taburu Çəpli kəndi yaxınlığında darmadağın edildi, 200 nəfə yaxın canlı qüvvəsi məhv edildi, xeyli hərbi qulluqçusu, o cümlədən bir neçə erməni zabiti və 5 rusiyalı hərbçi əsir götürüldü. Digə erməni hərbi birləşmələri də ciddi itkilər verdilər. Fevralın ilk həftəsində Azərbaycan qoşunları Kəlbəcər şəhərinə yaxınlaşdılar. Azərbaycan Ordusu iki aylıq əməliyyatların gedişində bir sıra nəticələrə nail oldu. Füzuli rayonu ərazisində 23 yaşayış məntəqəsi düşməndən təmizləndi. Bunun ardınca Cəbrayıl rayonunun bir hissəsi, Kəlbəcər rayonunun Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çəpli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı kəndləri azad edildi. Düşmən Çiçəkli dağdan və digər yüksəkliklərdən çıxarıldı, Kəlbəcər-Laçın yolunun xeyli hissəsi nəzarət altına alındı. Döyüşlərin dəniz səviyyəsindən 2500-3500 metr yüksəklikdə, sərt hava şəraitində aparılması, arxa cəbhə ilə əlaqənin yaradılmaması, canlı qüvvə və texnika ilə təminatının zəif olması və bir sıra digər amillər əldə olunmuş uğurların genişləndirilməsinə imkan vermədi. Eyni zamanda beynəlxalq təşkilatlar Azərbaycana qarşı təzyiqlərini gücləndirdilər, atəşkəs rejimi haqda siyasi məsləhətləşmələrə başlanıldı. Ona görə də Azərbaycanın hərbi-siyasi rəhbərliyi hərbi əməliyyatın dayandırılması və

qoşunların ilkin döyüş mövqelərinə, Murovdan şimala tərəf çəkilməsi haqda qərar verdi. Fevralın 18-də Azərbaycan qoşunları Ömər aşırımını keçərək geri çəkildi. İki Azərbaycan briqadası mühasirəyə düşdü və dar keçiddən geri çəkilməyə cəhd göstərdi. Ermənilər həmin keçidi "qrad"lardan atəşə tutdular, burada qoşunlarımız 1500 nəfərdən artıq itgi verdi. Təxmini hesablamalara görə, bu qış kompaniyası zamanı Azərbaycan tərəfi 4 min, ermənilər isə 2 min nəfər itgi verdilər. Azərbaycan Ordusu xeyli itgi versə də, düşmənin müdafiə xəttinə ciddi zərbə vurdu və Kəlbəcərin qısa vaxt ərzində azad edilə biləcəyinin mümkünlüyünü nümayiş etdirdi. Azərbaycan Ordusunun digər istiqamətlərdən fərqli olaraq burada qarşılaşdığı uğursuzluq daha çox hava şəraitinin nəzərə alınmaması ilə bağlı oldu.

Azərbaycan Ordusunun dekabr-fevral hücumu Qarabağ müharibəsinin mühüm hadisələrindən hesab edilir. Azərbaycanın hərbi-siyasi rəhbərliyi bu hücum əməliyyatı ilə düşmənə qarşı qətiyyətini nümayiş etdirdi. Ordumuzun hücum əməliyyatı keçirmək qabiliyyəti və əzmi əyani şəkildə göstərildi, döyüş əhval-ruhiyyəsi bərpa edildi. İşğal edilmiş ərazilərin bir hissəsi azad olundu. Ermənistan canlı qüvvə və texnika ilə ciddi itgilər verdi.

Azərbaycan Ordusunun uğurları ilə hesablaşmaq istəməyən düşmən mart ayının əvvəlində Füzuli rayonu ərazisində üç istiqamətdən yeni hücumlara başladı. Ermənilər Horadiz nəqliyyat qovşağını ələ keçirməyə, sonrakı hücumlar üçün zəmin hazırlamağa çalışırdılar. Düşmən qoşunlarımızın müdafiə xəttini yarmağa bir neçə dəfə cəhd göstərdikdən sonra itgilər verərək geri çəkilməli oldu. 1994-cü ilin aprelində cəbhədə vəziyyət yenidən kəskinləşdi. İşğalçı Ermənistan yeni genişmiqyaslı hərbi əməliyyat planlaşdırmışdı. Düşmən Tərtər rayonu ərazisində qoşunlarımızın müdafiə xəttini yarmaq, Tərtər, Bərdə və Yevlax şəhərlərini ələ keçirərək şimal-qərb regionunu Azərbaycanın digər ərazilərindən ayırmaq məqsədi güdürdü. Ermənilər bu niyyətləri dəstəyinə arxalanırdılar. Düşmən aprelin 9-dan 10-a keçən gecə hücuma başladı. Dərhal üç istiqamətdən Tərtər üzərinə zərbələr endirildi. Əsas zərbə istiqamətində Ermənistanın 83-cü motoatıcı briqadası və Stepanakert (Xankəndi) yerli alayının qüvvələrindən istifadə olunurdu. Buraya 2 mindən artıq canlı qüvvə, 17 tank, 15-ə qədər digər zirehli texnika cəmləşdirilmişdi. Düşmən qəfil hücuma keçməsinə baxmayaraq, ilk anda nəzərdə tutduğu planı həyata keçirə, qoşunlarımızın müdafiə xəttini yara bilmədi. Azərbaycan Ordusu uğurlu müdafiə döyüşləri apararaq düşmənə əks zərbələr endirdi.

Düşmən ağır itgilərinə baxmayaraq əlavə qüvvələr, o cümlədən 5-ci motoatıcı briqadanı, "Tiqran Mets" əlahiddə motoatıcı taburunu da cəlb etdi və aprelin 16-dan mayın 6-a qədər cəbhə xəttini yarmaq üçün 5 dəfə davamlı cəhdlər etdi. Lakin heç bir ciddi nəticəyə nail ola bilmədi, qoşunlarımız əsas müdafiə mövqelərini qoruyub saxladılar. Ermənilar Ağdamdan şimala və Tərtərdən qərbə

doğru yalnız bir neçə yaşayış məntəqəsini tuta bildilər. Azərbaycan Ordusu aprelin 19-da cəbhənin Füzuli-Cəbrayıl kəsiyində düşmənə əks zərbə vurdu və Ermənistan silahlı qüvvələrinin əlahiddə kəşfiyyat taburunu darmadağın etdi. Digər istiqamətlərdə, o cümlədən Ömər aşırımında da düşmənə əks zərbələr vuruldu. 33 gün ərzində fasiləsiz davam edən döyüşlər nəticəsində düşmən ciddi itgilər verdi. Ermənilərin 1000 nəfərdən artıq canlı qüvvəsi, 50 ədədə qədər zirehli texnikası, çoxlu sayda digər texnika, silah və sursatı məhv edildi. İşğalçı Ermənistan ordusunda mənəvi-psixoloji durum böhran həddinə çatdı, kütləvi fərarilik, döyüşlərdə iştirakdan imtina geniş hal aldı. Ermənilər qrup şəklində əsir kimi Azərbaycan tərəfinə keçməyə başladılar. Erməni hərbi komandanlığı hücum əməliyyatlarının dayandırılması və müdafiə mövqeyinə keçilməsi haqda əmr verməK məcburiyyətində qaldı.

1994-cü il mayın 4-5-də MDB-nin parlament nümayəndələri Bişkekdə toplaşmışdılar. Bu toplantıya Dağlıq Qarabağ "parlament"inin rəhbəri Karen Baburyan da dövlət olunmuşdu. Burada "Bişkek protokolu" deyilən sənəd hazırlandı. Azərbaycan parlamenti sədrinin müavini A.Cəlilov müzakirələrdə iştirak etdi, lakin ölkə rəhbərliyinin razılığı olmadan imza etməyəcəyini bildirdi. V.Kazimirov həmin sənədlə birlikdə Bakıya gəldi, burada H.Əliyevin iştirakı ilə xüsusi iclas keçirildi və uzun müzakirələrdən sonra razılıq əldə olundu. Azərbaycan tərəfi sənədi Dağlıq Qarabağın azərbaycanlı icmasının rəhbəri N.Bəhmənovun da imzalamalı olduğunu bildirdi və bu şərt qəbul olundu. Azərbaycan parlamentinin sədri R.Quliyev digər tərəflərlə birlikdə sənədi imzaladı. Mayın 9-da atəşkəs haqda sənədi Azərbaycanın müdafiə naziri M.Məmmədov, mayın 10-da Ermənistanın müdafiə naziri S.Sarkisyan, mayın 11-də Dağlıq Qarabağın "silahlı qüvvələri"nin rəhbəri S.Babayan imzaladı. Mayın 11-dən 12-nə keçən gecə atəşkəs rejimi qüvvəyə mindi. Bundan sonra Rusiyanın müdafiə naziri P.Qraçov rus hərbi qüvvələrinin regiona yerləşdirilməsinə dair sazişdə nəzərdə tutulan bəndin yerinə yetirilməsinə cəhd göstərdi. Lakin Azərbaycan Rusiyanın bu təhlükəli təşəbbüsünün reallaşdırılmasına imkan vermədi.

Ermənistan işğalçı müharibə nəticəsində Azərbaycanın 360 km-lik sərhəddini pozmuş, Füzuli rayonundakı Horadiz qəsəbəsindən Zəngilanadək 198 kilometrlik Azərbaycan-İran sərhəddini nəzarət altına almışdır. Erməni işğalı nəticəsində Dağlıq Qarabağın 2 şəhər, 1 qəsəbə, 53 kəndində yaşayan 50 minədək Azərbaycan türkü öz yurdlarından qovulub çıxarılmışdır. Erməni işğalçıları Ermənistandan, Dağlıq Qarabağ və onun ətrafındakı rayonlardan 1 milyonadək Azərbaycan türkünü didərgin salmış, qaçqın və məcburi köçkünə çevirmişlər. İşğalçı Ermanistan müharibənin gedişində 890 şəhər, kənd və qəsəbəni, 102 min yaşayış evi, 7 min ictimai bina, 693 ümumtəhsil məktəbi, 695 səhiyyə ocağı, 800 km avtomobil yolları, 160 körpü, 23000 km su kəməri, 156 min ha əkin sahəsi, 464

tarixi abidə və muzeyləri zəbt etmiş, yandırmış, dağıtmışdır. Bundan başqa, Azərbaycanın civə, obsidan və perlit ehtiyatlarının hamısı, tikinti və üzlük materilallarının 35-60 faizi, meşə fondunun 23,8 faizi, su ehtiyatlarının 7,8 faizi və s. işğal olunmuş ərazilərdə qalmışdır. Orada həmçinin 2 qoruq, 3 yasaqlıq, 3 iri su anbarı da yerləşir. İlkin hesablamalara görə, müharibə nəticəsində Azərbaycana 60 milyard ABŞ dolları həcmində zərər dəyişmişdir.

### *Atəşkəs dövrü və danışıqların davam etdirilməsi*

Atəşkəs haqda saziş imzalandıqdan dərhal sonra beynəlxalq vasitəçilər xeyli fəallaşdılar. ATƏT-in Minsk qrupu və digər beynəlxalq qurumların fəaliyyəti ilk növbədə atəşkəs rejiminin saxlanılmasına, iri hərbi əmaliyyatlara yol verilməməsinə yönəlmişdi. Vasitəçilər ilk olaraq qoşunların cəbhə xəttindən çəkilməsi ilə bağlı təkliflər verdilər. Rusiyanın 1994-cü ilin yayında təklif etdiyi plana görə, 5-15 km-lik bufer zona yaradılması, regiona 1800 nəfərlik rus ayırıcı qüvvələrinin yeridilməsi, 49 müşahidə postunun yaradılması, idarəetmə məntəqəsinin Ağdamda yerləşdirilməsi nəzərdə tutulurdu. ATƏT uyğun olaraq 10-km-lik bufer zonası, Türkiyə, Rusiya, Avstriya, Macarıstan hərbçilərindən ibarət 1600-2000 nəfərlik ayırıcı qüvvə, çevik nəzarət qrupları ilə bağlı təkliflərlə çıxış etdi.

Bu plan həmçinin dayaq bazasının Türkiyənin Ərzurum şəhərində yaradılmasını nəzərdə tuturdu. Bu və sonralar irəli sürülən təkliflərin heç biri reallaşdırılmadı.

Atəşkəs rejiminin bərqərar olması daha çox beynəlxalq təşkilatların, ayrı-ayrı böyük dövlətlərin və Ermənistanın maraqlarına uyğun idi. Dünyanı bürümüş qanlı münaqişə ocaqlarının hər hansı birinin dayandırılması, ən azından dondurulması beynəlxalq təşkilatları təmin edir. Regionda böyük iqtisadi layihələri həyata keçirən Qərb dövlətləri və birinci növbədə ABŞ-a müharibənin alovlanması sərf etmir. Rusiya isə atəşkəs rejimi ilə dondurulmuş münaqişədən və münaqişənin dondurulmuş vəziyyətdə saxlanılmasından Azərbaycan və Ermənistanı təsir altında saxlamaq üçün istifadə edir. Atəşkəs dövründə vasitəçilik missiyasının fəallaşdırılması münaqişənin nizama salınmasına, ədalətli həll variantının tapılmasına deyil, böyük dövlətlərin regionda öz geostrateji maraqlarını reallaşdırmaq cəhdlərinə yönəlmişdir. Qarabağ münaqişəsi ABŞ, Rusiya və qismən də Avropa arasında qarşıdurma və maraqların mübarizəsi meydanına çevrilmişdir. Böyük dövlətlər öz maraqlarını Minsk qrupu həmsədrləri institutu və digər

beynəlxalq qurumlar, o cümlədən müxtəlif komitələr, missiyalar, məruzəçilər və s. vasitəsi ilə reallaşdırmağa çalışırlar.

ATƏM-in (ATƏT-in) 1994-cü ilin dekabrında Budapeştdə keçirilmiş sammitində Minsk qrupunun idarə olunması ilə bağlı dəyikşiklikər edildi, həmsədrlik institutu yaradıldı. Rusiya və İsveçin nümayəndələri həmsədr oldular (1995-ci ildə İsveçi Finlandiyanın nümayəndəsi əvəz etdi). Budapeşt sammiti tərəfindən Minsk qrupu qarşısında iki əsas vəzifə qoyuldu: atəşkəs rejiminin davam etdirilməsinə nail olmaq və "silahlı münaqişənin dayandırılmasına dair siyasi saziş"in imzalanması üçün danışıqlar aparmaq. İmzalanması nəzərdə tutulan sazişin konsepsiyası Minsk qrupu tərəfindən hazırlanmış bir sıra sənəd layihələrinə əsaslanırdı. Bu layihələr daha çox "BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə dair təxirəsalınmaz tədbirlər Qrafiki" adlanırdı. Hər hansı başqa məsələ, o cümlədən Dağlıq Qarabağın statusu ilə bağlı məsələ Minsk qrupunun mandatına daxil edilməmişdi. Statusun müzakirə edilməsi və qərar qəbul olunması Minsk konfransının səlahiyyətinə daxil idi. Budapeşt sammitində həmçinin münaqişənin nizamlanmasından sonra regiona ayırıcı qüvvələrin yerləşdirilməsi ilə bağlı təklif də müzakirə edildi. Bu təkliflə əlaqədar qərar layihəsinin hazırlanması, müəyyən hazırlıq işələrinin həyata keçirilməsi üçün Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) yaradıldı. YSPQ-nin mənzil-qərargahı Vyanada yerləşir.

ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon sammitində müəyyən konkret qərarlar qəbul etməyə cəhd göstərildi. Minsk qrupu münaqişənin nizama salınması üçün 3 əsas prinsipi təklif etdi: Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün tanınması; Azərbaycanın tərkibində yüksək idarəetmə dərəcəsi ilə Dağlıq Qarabağın hüquqi statusunun müəyyən edilməsi; Dağlıq Qarabağ və onun bütün əhalisi üçün təhlükəsizlik təminatının verilməsi. Bu prinsiplər 53 iştirakçı dövlət tərəfindən müdafiə olundu, yalnız Ermənistan qətnaməyə veto qoydu. Ona görə də sənəd ATƏT-in fəaliyyətdə olan sədrinin yalnız tövsiyyə xarakterli xüsusi bəyanatı kimi qəbul olundu. Bu sənədin elə bir ciddi əhəmiyyəti yox idi. Lissabon sammitinin sonunda Minsk qrupu həmsədrləri institutunun formatında dəyişikliklərlə bağlı razılıq əldə olundu. 1996-cı il dekabrın 30-da ATƏT-in fəailiyyətdə olan sədrinin qərarı ilə Fransa Finlandiyanın əvəzinə həmsədr təyin olundu. Azərbaycanın bu təyinata etirazlarından sonra ABŞ üçüncü həmsədr təyin edildi. Bununla üç həmsədrdən (ABŞ, Rusiya, Fransa) ibarət yeni struktur formalaşdı. Minsk qrupunun üç həmsədrlik institutunun formalaşdıgı dövrdə beynəlxalq təcrübə baxımından Azərbaycanın haqlı mövqeyini möhkəmləndirən iki hadisə baş verdi. Bu Şotlandiya və Kvebekin taleyi ilə bağlı məsələlər idi. 1998-cı ildə Şotlandiyada referendum keçirildi. Referenduma çıxarılan məsələ müstəqilliklə deyil, yüksək muxtariyyətlə bağlı idi. Həmin

dövrdə beynəlxalq təşkilatlar tərəfindən xüsusi olaraq vurğulandı ki, müstəqilliklə bağlı referendumların keçirilməsi üçün, ümumiyyətlə, hüquqi mexanizm yoxdur. Kvebeklə bağlı bir qədər əvvəl iki dəfə-1980 və 1995-ci illərdə referendum keçirilmişdi. Həmin referendumlarda da Kvebekin müstəqilliyi deyil, bu əyalətin Kanadanın tərkibində yeri haqda məsələ səsverməyə çıxarılmışdı. 1998-ci ildə isə Kanadanın Ali Məhkəməsi belə bir qərar qəbul etdi ki, "Kvebek əyalətinin əhalisi...onun təmsilçi qurumları...beynəlxalq qanunlara görə, birtərəfli qaydada Kanadanın təkibindən çıxmaq hüququna malik deyildirlər". Təəssüf ki, bu presedentlərin baş verdiyi dövrdə Minsk qrupu həmsədrləri Qarabağ münaqişəsi ilə bağlı ikili standartlar mövqeyindən çıxış edərək, fərqli təkliflər irəli sürdülər. Həmsədrlərin "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlandırdıqları birinci variant 1997-ci il iyul ayının 18-də tərəflərə təqdim olundu. Bu sənəd daha çox "paket həlli variantı" kimi tanınırdı. Məzmun etibarı ilə bu variant bir paketdə birləşdirilən iki anlaşmadan ibarət idi. Sənəd Dağlıq Qarabağın ətrafındakı rayonların azad edilməsi ilə bölgənin özünü idarəetmə statusunun eyni vaxtda müəyyənləşdirilməsini nəzərdə tuturdu. Azərbaycan tərəfi müəyyən şərtlərlə layihəni qəbul etdiyini bildirdi. Ermənistan isə Dağlıq Qarabağın müstəqilliyi üzərində israr edərək layihəni rədd etdi. Bundan sonra beynəlxalq təşkilatlar Ermənistana müəyyən təzyiqlər göstərdi. Təzyiqlərin nəticəsi olaraq Ermənistanın mövqeyi bir qədər yumşaldı. 1997-ci ilin oktyabrında Avropa Şurasının Strasburqda keçirilən sammitində Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanatla çıxış etdilər. Həmsədrlər bu bəyanatın əsasında yeni sənəd layihəsi üzərində işləməyə başladılar. Belə razılıq əldə olundu ki, əvvəlcə rayonların azad edilməsi, kommunikasiyaların açılması və s. məsələlər barədə sənəd hazırlansın, sonra bölgənin statusu ilə bağlı müzakirələrə başlanılsın. 1997-ci il dekabrın 2-də həmsədrlər "mərhələli həll" variantını tərəflərə təqdim etdilər. Lakin bu variantın müzakirəsinə imkan olmadı. 1998-ci il fevralın 3-də Ermənistanda dövlət çevrilişi baş verdi. R. Koçaryan L. Ter-Petrosyanı devirərək, hakimiyyəti ələ keçirdi və dərhal "mərhələli həll" planını rədd etdi. Bu plana görə, Dağlıq Qarabağın ətrafındakı rayonlar 5+1 prinsipi ilə (Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, sonra isə Kəlbəcər) azad edilməli idi. Laçının boşaldılması sonraya saxlanılırdı. Sənəddə həmçinin göstərilirdi ki, Ermənistanın silahlı qüvvələri münaqişə zonasını tərk etməli, Dağlıq Qarabağın qüvvələri isə bölgənin inzibati sərhədləri daxilinə çəkilməlidir. Azərbaycanın silahlı qüvvələrinin 5 km geri çəkilməsi və Dağlıq Qarabağın inzibati sərhədləri boyunca bufer zonanın yaradılması nəzərdə turulurdu. Buraya və Laçın dəhlizinə beynəlxalq sülhyaratma qüvvələri nəzarət etməli idilər. Laçın rayonunun hansı ərazilərinə dinc əhalinin qayıtması Dağlıq Qarabağın statusu ilə eyni vaxtda həll edilməli idi. Naxçıvanla dəhliz məsələsi sonraya saxlanılırdı. Dağlıq Qarabağın statusu de-fakto

müstəqilliyə bərabər idi. Sənədə görə, Dağlıq Qarabağ Azərbaycanın tərkibində "dövlət və ərazi qurumu" kimi mövcud olmalı idi. Dağlıq Qarabağdakı qondarma "qurum" üçün konstitutsiya, bayraq, gerb, polis, milli qvardiya, himn və s. atributlar nəzərdə tutulurdu. Şuşanın xüsusi statusu olmalı, bu status Şaumyan rayonunun statusu ilə uyğunlaşdırılmalı idi. Göründüyü kimi, Rusiyanın diqtəsi ilə ermənilərin imtina etdikləri "mərhələli həll" planı da Azərbaycanın maraqlarına uyğun deyildi. 1998-ci il noyabrın 7-də münaqişənin həllinə dair "ümumi dövlət" adı ilə tanınan 3-cü təklif irəli sürüldü. Bu variant mahiyyətcə Dağlıq Qarabağı müsəqil dövlətə çevirmək məqsədi güddüyünə görə Azərbaycan tərəfindən rədd edildi.

2001-ci ilin əvvəlində Qarabağ münaqişəsi ilə bağlı bir sıra yeni müzakirələr və danışıqlar aparıldı. Azərbaycan Respublikasının prezidenti H. Əliyevin təşəbbüsü və iştirakı ilə fevral ayının 23-24-də Milli Məclisdə gcniş müzakirələr keçirildi və 6 bənddən ibarət qərar qəbul olundu. Qərarda münaqişənin qarşılıqlı kompromislər yolu ilə nizama salınmasının zəruriliyi göstərildi. Mart ayında Parisdə H. Əliyev və R. Koçaryan arasında danışıqlar aparıldı. Müzakirə olunan məsələlər Ermənistanın maraqlarının kifayət qədər təmin edirdi. Dağlıq Qarabağdakı qondarma "qurum"a yüksək statusun verilməsi nəzərdə tutulur, onun Bakıdan asılılığı faktiki olaraq heçə endirilirdi. Bunun müqabilində erməni tərəfi Dağlıq Qarabağın ətrafındakı 6 rayonun azad edilməsinə və azərbaycanlıların Şuşaya qayıtmasına razılaşırdı. Razılığa görə, Laçın dəhlizi crmənilərə qalır, əvəzində isə Mehri vasitəsi ilə Naxçıvana yol açılırdı. Paris danışıqları 1 ay sonra ABŞ-ın Ki-Uest şəhərində davam etdirildi. Burada Azərbaycan prezidenti yeni təkliflərlə çıxış edərək, Kəlbəcər ərazisi ilə Qarabağ və Ermənistan arasmda dəhliz açılması müqabilində Laçının bütövlükdə Azərbaycana qaytarılması tələbini qoydu. Bundan əlavə, H.Əliyev azərbaycanlıların təkcə Şuşaya deyil, Dağlıq Qarabağın digər yaşayış məntəqələrinə də qaytarılmasının vacibliyini göstərdi. Şərtlərin ermənilər üçün sərfəli olmasına baxmayaraq, yenə də İrəvan Moskvanın təzyiqləri altında danışıqlardan geri çəkildi. Azərbaycanın bütün mümkün güzəştlərə hazır olmasına baxmayaraq, Minsk qrupunun vasitəçiliyi ilə aparılan bu danışıqlar birmənalı şəkildə Ermənistanın tələblərinin tam yerinə yetirilməsinə yönəlmişdi. Sonda H.Əliyev acı həqiqəti etiraf etməli oldu: "Aparılan bütün bu danışıqlardan, Minsk qrupunun verdiyi təkliflərdən mənə bir şey aydındır ki, bunlar Dağlıq Qarabağa müstəqilliyə yaxın bir status verməklə məsələni həll etmək, yaxud da tamam müstəqillik vermək istəyirlər".

2000-ci ilin əvvəllərindən başlayaraq Azərbaycanda ictimai fəallıq xeyli artdı. Həmi ilin yanvarında cəmiyyətin müxtəlif təbəqələrinin erməni işğalına qarşı fəallığının artırılması, ictimai müqavimətin gücləndirilməsi məqsədi ilə Qarabağ Azadlıq Təşkilatı yaradıldı (QAT). Tanınmış ziyalılar, sabiq hərbiçilər,

qaçqın və köçkünlərin nümayəndələri bu Təşkilatda birləşdilər, Akif Nağı qurumun sədri seçildi. QAT Qarabağ Əlillər Cəmiyyəti, Veteranlar Birliyi, "Azəri-Türk" Qadınlar Birliyi, Şəhid Ailələrinin Hüquqlarının Müdafiə Cəmiyyəti, Sülh və Demokratiya İnstitutu, həmçinin siyasi partiyalar və digər qurumlarla birlikdə cəmiyyətin fəallaşdırılması üçün bir sıra ciddi addımlar atdı, o cümlədən, 2001-ci ilin dekabrında, 2002-ci ilin yanvarında, 2003-cü ilin fevralında birgə Qarabağ mitinqləri keçirildi və erməni işğalının nəticələrinin hərbi yolla aradan qaldırılmasına dair tələblər irəli sürüldü. 2001-ci ildə 4 tanınmış ictimai və siyasi xadim-Eldar Namazov, Tofiq Zülfüqarov, Nazim İmanov və Sabit Bağırov "Qarabağ Xartiyası" deyilən sənədlə çıxış etdilər. Sənəddə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi üçün siyasi vasitələrlə yanaşı hərbi qüvvədən istifadənin mümkünlüyü, Dağlıq Qarabağ əhalisinə geniş muxtariyyətin verilməsi, münaqişənin mərhələli həll variantına üstünlük verilməsi kimi məsələlər əks olunurdu. Xartiya əksər siyasi və ictimai təşkilatlar tərəfindən müdafiə olundu.

2001-ci ildən başlayaraq erməni tərəfi "xalq diplomatiyası"ndan istifadə edərək Azərbaycanla münasibətləri normallaşdırmağa çalışırdı. Bu ənənəvi erməni siyasəti idi. 1905-1906-cı, 1918-1920-cı illərdə də ermənilər Azərbaycanın torpaqlarını zəbt etdikdən sonra barışıq elan edir, xoş münasbətlər yaradaraq işğal faktlarının unutdurulmasına nail olmuşdular. Bu dəfə ermənilərin cəhdləri Azərbaycan cəmiyyəti tərəfindən narazılıqla qarşılandı. 2001-ci il sentyabrın əvvəlində İrəvan və Xankəndindən nümayəndə heyəti Bakıya gəldi. Onlar rəsmi və qeyri-rəsmi səviyyələrdə bir sıra görüşlər planlaşdırmışdılar. Bu görüşlər zamanı işğal faktına toxunmadan cəmiyyətlərarası dialoqun təşkili, düşmənçilik əhval-ruhiyyəsinin aradan qaldırılması ilə bağlı müzakirələrin aparılması nəzərdə tutulurdu. Azərbaycan cəmiyyəti ermənilərin məkrli niyyətini başa düşərək kəskin etirazla çıxış etdi. Qarabağ Azadlıq Təşkilatı daha radikal mövqedə dayanaraq, etiraz aksiyaları keçirdi, erməni nümayəndə heyəti ilə görüşlərin keçirilməsinə imkan vermədi. Ermənilər səfərlərini yarımçıq kəsərək geri qayıtmalı oldular. Bu hadisədən sonra Azərbaycan cəmiyyətində erməni işğalına qarşı daha radikal və barışmaz əhval-ruhiyyə formalaşdı. 2003-cü ildə bir qrup gənc dəstə yaradaraq, düşmənə qarşı partizan müharibəsinə başlamaq üçün cəbhə xəttini keçməyə cəhd göstərdi. Rövşən Bədəlovun rəhbərlik etdiyi 23 nəfərlik qrup 2003-cü ilin avqust ayında Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən həbs edildi. Cəmiyyətdə Qarabağ partizanları adı ilə tanınan bu gənclərdən biri-Məmməd Məmmədov ömürlük, digərləri isə uzun müddətə azadlıqdan məhrum edildilər. Erməni işğalı, terrorçuluğu və vəhşiliklərinə etiraz olaraq növbəti radikal addım Azərbaycan Ordusunun baş leytenantı Ramil Səfərov tərəfindən atıldı. Ramil Səfərov Macarıstanın paytaxtı Budapeşt şəhərində NATO hərbi kurslarında olarkən iki erməni zabitinin təxribatlarına dözməyərək, 2004-cü ilin fevralında onlardan birini

soyuq silahla qətlə yetirdi. R.Səfərov uşaq yaşlarında ermənilərin işğal etdikləri Cəbrayıl rayonundan didərgin salınmış və müharibənin bütün acılarını yaşamışdı. Üstəlik 2 erməni zabitinin onu daim təxribatlara çəkmələri, Azərbaycanın dövlət atributlarını təhqir etmələri, xüsusilə də Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində həmin dəhşətli hadisələri ermənilərin "böyük qələbəsi" kimi təqdim etmək, dinc sakinlərə qarşı törədilmiş vəhşiliklərə bəraət qazandırmaq və öyünmək cəhdləri Azərbaycan zabitinin səbr kasasını doldurmuşdu. Təəssüf ki, R.Səfərovun hərəkətlərinin motivi, hadisənin törənmə şəraiti və səbəbləri Budapeşt şəhər məhkəməsi tərəfindən nəzərə alınmadı və o, 2006-cı ilin aprelində ömürlük həbs cəzasına məhkum edildi. Macarıstan məhkəməsi Ermənistan hakimiyyəti və erməni lobbisinin təzyiqləri altında hüquqi deyil, siyasi qərar qəbul etdi. R.Səfərova qarşı ədalətsiz məhkəmə hökmü Azərbaycanda ciddi etirazlarla qarşılandı, kütləvi etiraz aksiyaları keçirildi.

Ermənistan hakimiyyəti "xalq diplomatiyası"na yol açmaq üçün 2004-cü ildə NATO strukturlarından istifadə etməyə cəhd göstərdi. Həmin ilin sentyabrında Azərbaycanda NATO-nun təşkilatçılığı ilə hərbi təlimlərin keçirilməsi nəzərdə tutulurdu. Təlimlərə hazırlıq məqsədilə iyun ayında Bakıda NATO-ya üzv ölkələrin yüksək rütbəli zabitlərinin geniş konfransı keçirildi. Konfransda iştirak etmək üçün Ermənistan da öz hərbçilərini göndərmişdi. İşğalçı Ermənistan ordusunun tədbirdə iştirakı cəmiyyət tərəfindən qəzəblə qarşılandı. Qarabağ Azadlıq Təşkilatı konfransın keçirildiyi "Avropa" otelinin qarşısında etiraz aksiyasına başladı. İyunun 22-də bir qrup aksiya iştirakçısı polislərin müqavimətini yararaq otelə daxil oldu. Konfrans iştirakçıları öz işlərini dayandırıb Bakını tərk etməli oldular. Aksiya iştirakçılarından 6 nəfər həbs olundu və məhkəmənin hökmü ilə 3 ildən 5 ilədək azadlıqdan məhrum edildilər. Lakin bundan sonra da həm QAT-çıların həbsinə, həm də erməni zabitlərinin iştirakı ilə hərbi təlimlərin keçirilməsi planlarına qarşı etiraz aksiyaları davam etdirildi və genişləndi. Bir sıra millət vəkilləri, ictimai, siyasi xadimlər, ayrı-ayrı qurumlar həbs olunanların müdafiəsinə qalxdılar. Sentyabr ayında Azərbaycan Respublikasının Apellyasiya məhkəməsi QAT-çıların barəsində çıxarıtmış azadlıqdan məhrumetmə hökmlərini şərti cəzalarla əvəz etdi. NATO rəhbərliyi isə öz tarixində ilk dəfə olaraq təyin olunmuş hərbi təlimlərini ləğv etmək məcburiyyətində qaldı.

### *Danışıqların "Praqa prosesi" mərhələsi*

2004-cü ilin aprelində danışıqların "Praqa prosesi" deyilən mərhələsi başlandı. Bu prosesin fərqli cəhəti Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin mütəmadi, prezidentlərin isə vaxtaşırı birbaşa görüşlərinin keçirilməsi, paket və mərhələli həll variantlarının uzlaşdırılması və status məsələsi ilə bağlı mümkün kompromisin əldə olunması cəhdlərindən ibarət idi. "Praqa prosesi" nin başlıca qüsuru əsas məsələ kimi işğal faktının deyil, Dağlıq Qarabağın statusunun müzakirə olunması idi. Bu prosesin əvvəlində tərəflər həll variantının "paket yaxud mərhələli plan" adlandırılmaması ilə bağlı kompromis əldə etdilər: istənilən halda paket şəklində əldə olunacaq razılaşma mərhələlərlə həyata keçirilməlidir. Danışıqların danışıqlar xatirinə davam etdirliməsi üçün bu formula kifayət edir, lakin hər hansı bir nəticənin əldə olunması üçün ümid vermirdi. "Praqa prosesi" çərçivəsində 2005-ci ilin sonunadək prezidentlər 4 dəfə (Varşava-aprel, 2004-cü il; Astana-sentyabr, 2004-cü il; Kazan-avqust, 2005-ci il; Varşava-sentyabr, 2005-ci il), xarici işlər nazirləri isə 11 dəfə görüşdülər. Bu görüşləri təşkil edən Minsk qrupu həmsədrləri tərəflərə "keçid statusu" deyilən variantı müzakirə üçün təklif etdilər. Bu variantın mahiyyəti ondan ibarət idi ki, Dağlıq Qarabağdakı qondarma rejimin de-fakto vəziyyətinin təsdiqlənməsi əvəzində ətraf rayonların bir hissəsi azad oluna bilərdi. Konkret olaraq müzakirəyə çıxarılan məsələlər aşağıdakılardan ibarət idi: 1)"Ermənistan tərəfindən müdafiə edilən Dağlıq Qarabağ qüvvələrinin" bölgə ətrafındakı işğal olunmuş ərazilərin bir hissəsindən çıxarılması;2) Dağlıq Qarabağı geri qaytarmaq üçün Azərbaycanın güc tətbiqindən imtina etməsi; 3) Beynəlxalq sülhyaratma qüvvələrinin münaqişə zonasına yerləşdirilməsi; 4) Köçkünlərin öz yerlərinə qayıtması; 5) Ticarət münasibətlərinin bərpa edilməsi və yolların açılması; 6) Dağlıq Qarabağın son statusunun orada yaşayan erməni və azərbaycanlıların iştirakı ilə keçiriləcək referendumla müəyyən edilməsi. Referendum keçirilənə qədər Dağlıq Qarabağdakı qondarma rejimin "keçid statusu" ilə mövcudluğunu davam etdirməsi və bu statusa beynəlxalq təminatın verilməsi nəzərdə tutulurdu. Azərbaycan bu varianta konkret münasibət bildirməyərək, əks tərəfin mövqe bildirməsini gözlədi. Ermənistan isə Rusiyanın təzyiqləri altında növbəti dəfə kifayət qədər sərfəli variantdan imtina etdi. R. Koçaryan saziş layihəsində Dağlıq Qarabağın statusunun müstəqil dövlət kimi göstərilməsi tələbini irəli sürdü və bununla da danışıqlar prosesinin yenidən dalana dirənməsinə nail oldu.

Minsk qrupu həmsədrləri 2006-cı ildə nəticə əldə olunacağına böyük ümidlərlə yanaşır, optimist proqnozlar verirdilər. Lakin həmin il də uğursuzluqlarla başlandı. Fevral ayında Fransanın paytaxtı Paris yaxınlığındakı Rambuye

qəsrində prezidentlər arasında keçirilən görüş nəticəsiz başa çatdı. R. Koçaryan heç bir ciddi səbəb gətirmədən danışıqları yarımçıq tərk etdi. Onun bu addımı Rusiyanın diqtəsi ilə atdığı aydın oldu. Rambuyedə də Azərbaycanın maraqlarına uyğun olmayan sənəd müzakirə olunurdu. Ekspertlərin fikrinə görə, həmin sənəddə Laçın və Kəlbəcər istisna olmaqla Dağlıq Qarabağ ətrafındakı digər ərazilərin boşaldılması həmin ərazilərə sülhməramlı qüvvələrin yerləşdirilməsi, 15 ildən sonra statusla bağlı referendumun keçirilməsi, bu dövr ərzində isə Dağlıq Qarabağın mübahisəli ərazi olaraq qalması nəzərdə tutulurdu. Rusiya bir daha münaqişənin dondurulmuş vəziyyətdə saxlanılmasında maraqlı olduğunu nümayiş etdirərək Ermənistanın təklif olunan varianta razılaşmasına imkan vermədi.

ABŞ yaranmış böhran vəziyyətindən çıxmaq üçün ciddi addımlar atmağa başladı. Bu ölkənin yüksək səviyyəli rəsmilərinin bölgəyə dalbadal səfərləri təşkil edildi. İyun ayının ortalarında isə ABŞ administrasiyasına yaxınlığı ilə tanınan Metyu Brayza Minsk qrupuna yeni həmsədr təyin edildi. Bu dövrdə ABŞ-ın Qarabağ məsələsinin həlli ilə bağlı mövqeyinə kifayət qədər aydınlıq gətirildi. Rusiya münaqişənin dondurulmuş şəkildə saxlanılmasından bəhrələnməyə çalışdığı halda, ABŞ məsələnin Ermənistanın maraqlarına uyğun həll edilməsində maraqlı olduğunu nümayiş etdirdi. ABŞ administrasiyası bu yolla Ermənistanı Rusiyanın təsir dairəsindən çıxarmağa çalışırdı. Təsadüfi deyil ki, yenicə təyin olunmuş Amerikalı həmsədr M.Brayzanın fəal iştirakı ilə hazırlanan bəyanat iyunun 22-də qəbul edildi. Həmsədrlər bu sənədlə 2001-ci ildən sonra ilk dəfə birgə rəsmi açıqlama ilə çıxış edərək, müzakirəyə təklif etdikləri son variant haqda məlumat verdilər. Bu sənəddə göstərilirdi ki, Azərbaycan və Ermənistan prezidentlərinə "nizama salmanın təməl prinsipləri" təqdim olunmuşdur. Həmin prinsiplər "Laçın və Kəlbəcərin xüsusi rolu nəzərə alınmaqla Dağlıq Qarabağ ətrafındakı ərazilərdən erməni qoşunlarının çıxarılmasını Laçın və Kəlbəcərin boşaldılmasının sonraya saxlanılmasını", gələcəkdə Dağlıq Qarabağın hüququ statusu ilə bağlı referendumun və yaxud səsvermənin keçirilməsini münaqişə zonasına sülhməramlı qüvvələrin yerləşdirilməsini nəzərdə tuturdu. Ermənistan dərhal bu prinsiplər əsasında danışıqları davam etdirməyə hazır olduğunu bildirdi. Azərbaycan hakimiyyəti isə təklif olunan varianta konkret mövqe nümayiş etdirmədi. Bir sıra qeyri-hökümət təşkilatları və partiyalar bu variantın Azərbaycan cəmiyyətinə sırınması, rəğbətlə qarşılanması üçün geniş fəaliyyətə başladılar, lakin ciddi nəticəyə nail ola bilmədilər. Obyektivlikdən uzaq olan bu variant da işğalçı Ermənistanın maraqlarına xidmət edirdi.

Həmsədrlər 22 iyun bəyanatı ilə öz mövqelərini açıqladıqdan sonra Azərbaycan hakimiyyətinə təzyiqləri artırdılar. Bu təzyiqlər qarşısında Azərbaycanın güzəştə getmək istədiyi hiss olunurdu. Təsadüfi deyil ki, xarici işlər naziri E.Məmmədyarov 2006-cı ilin ikinci yarısında azərbaycanlılar Dağlıq

Qarabağa qayıtdıqdan sonra orada referendumun keçirilməsinin mümkünlüyü haqda bəyanatlarla çıxış etdi. O, hətta referendumun müddəti ilə bağlı fərqli fikirlərin olduğunu da dilə gətirdi: "ermənilər referendumun 5, biz isə 15 ildən sonra keçirilməsini istəyirik". Lakin az sonra Azərbaycan daha qətiyyətli mövqe nümayiş etdirə bildi.

Minsk qrupu həmsədrlərinin vasitəçiliyi ilə 2007-ci ilin yanvarında Moskvada, martında Cenevrədə, aprelində Belqradda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşləri keçirildi. Bu görüşlərin nəticələri və müzakirə olunan məsələlərlə bağlı həmsədrlərin ayrı-ayrılıqda açıqlamaları oldu. Cenevrədə təməl prinsiplərinin, o cümlədən, Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsi, Qarabağdakı qondarma rejim üçün aralıq statusu verilməsi ilə bağlı məsələlərin müzakirə olunduğu bildirildi. Belqrad danışıqlarından sonra amerikalı həmsədr M.Brayza tərəflərin ötən il verilən əsas prinsiplərin bazasında razılaşmaya yaxın olduqlarını bəyan etdi. O, bu prinsiplərin Dağlıq Qarabağ ətrafındakı beş rayonun azad edilməsi, iki rayonla (Laçın və Kəlbəcər) bağlı müzakirələrin davam etdirilməsi, Dağlıq Qarabağ və Ermənistan arasında dəhlizin təmin olunması, statusla bağlı referendum deyil, səsvermənin keçirilməsindən ibarət olduğu haqda məlumat verdi. Rusiyalı həmsədr Y.Merzlyakov isə "tərəflərin əsas prinsipləri razılaşdırmağa yaxın olduqlarını" təsdiq etdi. Y.Merzlyakovun az sonra verdiyi açıqlama həmsədrlərin bu nikbinliyinə və danışıqların hansı istiqamətdə getdiyinə aydınlıq gətirdi: "Rusiya Dağlıq Qarabağı müstəqil dövlət tayınır, lakin bu o demək deyil ki, Rusiya onu Azərbaycanın hissəsi hesab edir... Bizim ölkə Azərbaycanın ərazi bütölüyünü tanıyır. Lakin bu o demək deyil ki, biz Qarabağı Azərbaycanın hissəsi kimi tanıyırıq". Azərbaycan hakimiyyətinin danışıqların məzmunu ilə bağlı eyni vaxtda verdiyi açıqlamalar həmsədrlərin mövqeyi ilə ziddiyət təşkil edirdi. Prezident İ.Əliyev 2007-ci ilin may ayında Azərbaycanın konkret mövqeyi ilə bağlı ilk dəfə açıqlama verdi: "Əvvəlki danışıqlarda 5 rayonun boşaldılması məsələsi qoyulurdusa, son danışıqlarda 7 rayonun dərhal boşaldılması məsələsi müzakirə edilir... Laçın və Kəlbəcərin qaytarılması ilə bağlı heç bir şərt qoyula bilməz... Yalnız qaçqınlar öz torpaqlarına, o cümlədən Şuşa və digər yerlərə qayıtdıqdan sonra Qarabağın statusu məsələsi həll oluna bilər". Ermənistan rejimi də eyni vaxtda əks mövqedən çıxış edərək, danışıqlarda Dağlıq Qarabağ ermənilərinin "öz müqəddaratını təyinetmə hüququnun" əsas məsələ kimi müzakirə olunduğunu bildirdi. Tərəflərin tamamilə zidd mövqelərdən çıxış etdiyi bir şəraitdə həmsədrlər yenidən xarici işlər nazirlərini bir araya gətirdilər. Bu görüş 2007-ci il noyabrın sonu dekabrın əvvəlində Madriddə təşkil edildi. Həmsədrlər müzakirələrdən sonra tərəflərə yeni təməl prinsiplərini təqdim etdilər. Yeni təməl prinsiplərinə münasibəti

öyrənmək üçün həmsədrlərin 2008-ci ilin yanvarında Azərbaycan və Ermənistan prezidentləri ilə keçirdikləri görüşlər heç bir nəticə vermədi.

2008-ci il martın 14-də BMT Baş Assambleyasının 62-ci sessiyasında Qarabağ məsələsi müzakirə olundu və "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət haqqında" qətnamə qəbul edildi. Bu, BMT Təhlükəsizlik Şurasının 1993-cü il qətnamələrindən sonra beynəlxalq səviyyədə qəbul olunmuş ən ciddi sənəd idi. Qətnamədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətlə yanaşıldığı bir daha bildirilir, Ermənistanın işğalçı qüvvələrinin zəbt olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması tələb olunur, erməni işğalı nəticəsində yaranmış vəziyyətin, yəni işğalçı Ermənistanın zəbt olunmuş ərazilərdə yaratdığı qondarma qurumun heç bir dövlət tərəfindən tanınmamasının zəruriliyi vurğulanırdı. Sessiya iştirakçılardan 40 dövlət qətnamənin lehinə, 7 dövlət əleyhinə səs verdi, 100 dövlət bitərəf qaldı. Lehinə səs verənlərin böyük əksəriyyətini müsəlman dövlətləri təşkil edirdi. Minsk qrupuna həmsədrlik edən hər bir ölkə-ABŞ, Rusiya, Fransa qətnamənin əleyhinə səs verdilər. Səvermənin nəticələri Minsk qrupu çərçivəsində aparılan danışıqların Azərbaycan üçün təhlükəli perspektivlərinə bir daha aydınlıq gətirildi.

2008-ci il avqustun əvvəllərində Tiflisin Cənubu Osetiyada öz suveren hüquqlarını bərpa etmək cəhdi və buna cavab olaraq Rusiyanın Gürcüstana hərbi müdaxilə etməsi regionda hərbi-siyasi şəraiti dəyişdirdi. Gürcüstan danışıqların heç bir nəticə verməyəcəyini dərk edərək, ərazi bütövlüyünü hərbi yolla bərpa etməyə cəhd göstərdi, lakin Rusiya buna imkan vermədi. Kreml işğalçı və ilhaqçı mahiyyətini açıq-aydın nümayiş etdirdi. Gürcüstan regionda yaradılmış qondarma qurumların, onların "öz müqəddəratını təyin etmə və azadlıq hərəkatları”nın üzərindən pərdəni götürərək, bu hərəkatların xaricdən təşkil və idarə olunduğunu sübut etdi. Gürcüstan dünyanın rəğbətlə yanaşdığı "öz müqəddəratını təyinetmə hərəkatı" ilə deyil, birbaşa rus işğalı ilə üz-üzə qaldı. Bu vəziyyət Gürcüstana ciddi beynəlxalq dəstək üçün təminat verdi və Rusiyanın güc tətbiqi ilə işğal olunmuş ərazilərdən çıxarılması üçün əsas yaratdı. Yeni şəraitdə Qarabağ məsələsi ilə də bağlı fərqli yanaşmalar meydana çıxdı. Vasitəçilik etmək istəyən ölkələrin sayı artdı. İlk olaraq Türkiyə və İran vasitəçilik təşəbbüsləri ilə çıxış etdilər. Moskva və Vaşinqton da təşəbbüsü əldən verməmək üçün fəallaşdılar. 2008-ci il noyabrın 2-də Moskvanın təşəbbüsü ilə Rusiya, Azərbaycan və Ermənistan prezidentləri birgə Bəyannamə imzaladılar. Bəyannamədə danışıqların beynəlxalq hüquq normaları əsasında davam etdirilməsi, Minsk qrupu formatının saxlanılması, münaqişənin siyasi yolla nizama salınması, qarşılıqlı etmiadın gücləndirilməsi kimi məsələlər əks olundu. Lakin bu diplomatik fəallıq və təşəbbüslər heç bir nəticə vermədi.

Danışıqların gedişində bəzi məsələlərə xüsusi diqqət yetirilir. Məsələn, 1997-ci idən başlayaraq tərəflər Laçınla bağlı məsələyə ayrılıqda baxmaq haqda razılıq əldə etmişlər. Minsk qrupu həmsədrlərinin 18 iyul 1997-ci il tarixli layihəsində Laçın dəhlizinin ATƏT-ə müəyyən müddətə icarəyə verilməsi təklif olunurdu. Eyni zamanda Dağlıq Qarabağdakı qondarma rejimin ATƏT-lə müqavilə əsasında həmin dəhlizdən istifadə edəcəyi nəzərdə tutulurdu. 2 dekabr 1997-ci il tarixli layihədə isə işğalçı qoşunların yalnız rayondan çıxarılması təklif olunur, Laçın isə ermənilərin nəzarəti altında qalırdı. 7 noyabr 1998-ci il tarixli layihədə də göstərilirdi ki, nizamasalınma prosesinin birinci mərhələsində erməni silahlı qüvvələri Laçında saxlanılır. Azərbaycan tərəfinin etirazlarına baxmayaraq, həmsədrlər bu mövqelərində təkid edirlər. Erməni tərəfi hesab edir ki, Laçın dəhlizinin eni ən azından 60 km olmalıdır. Onların fikrinə görə, Azərbaycan Ordusunun arsenalında olan silahlarla 25-35 km-lik məsafədə hədəfi vurmaq mümkündür. Ona görə də hər iki tərəfdən 30 km-lik radiusu olan dəhliz tələb edirlər. Ermənistan strateji əhəmiyyətli Kəlbəcər rayonunu da əlində saxlamağa çalışır. Kəlbəcər şimaldan 50 km-lik məsafədə Murov dağı, qərbdən Göyçə (Sevan) dağ aşırımı ilə əhatələnir, şərqdə isə Dağlıq Qarabağın hüdudları ilə birləşir. İşğalçı qüvvələr Murov dağından yeganə keçidi-Ömər aşırımını nəzarətdə saxlayır. Ermənistanın Dağlıq Qarabağa Laçın ilə yanaşı ehtiyat yolu Kəlbəcərdən keçir. İşğalçı tərəf Kəlbəcərin geri qaytarılmasını Dağlıq Qarabağın statusuna dair referendumun keçirilməsi ilə şərtləndirir. Göründüyü kimi, Ermənistanın əsassız iddialarından geri çəkilmək fikri yoxdur. Beləliklə, danışıqlar heç bir nəticə vermir, Azərbaycanın torpaqları hələ də işğal altında saxlanılır və atəşkəs rejimi davam etdirilir. İrimiqyaslı hərbi əməliyyatlar keçirilmir, lakin vaxtaşırı lokal xarakterli döyüşlər və itgilər qeydə alınır. Erməni tərəfi itgiləri haqda məlumatları ciddi şəkildə gizlədir. Bir sıra yerli və xarici ekspertlərin rəyinə görə, Azərbaycan Ordusu atəşkəs dövründə 2500-3000 nəfər, Ermənistan isə 900 nəfərə yaxın hərbi qulluqçusunu itirmişdir. Ermənistanın işğalçı qüvvələri daim atəşkəsi pozur, təxribatlar törədirlər. Təkcə 2007-ci il ərzində atəşkəs rejimi 220 dəfə pozulmuş, Azərbaycan Ordusunun 46 nəfər hərbi qulluqçusu həlak olmuşdur.

Ermənistan atəşkəsdən istifadə edərək, Dağlıq Qarabağ və ətraf rayonlarda işğalçı rejimi gücləndirməyə çalışır, bölgənin sərvətlərini vəhşicəsinə talayır. Rəsmi statistikaya görə, 1989-cu ildə Dağlıq Qarabağda 189 min nəfər, o cümlədən, 145,5 min nəfər (76,9%) erməni, 40,6 min nəfər (21,5%) azərbaycanlı və digər millətlərin nümayəndələri yaşayırdı. 2007-ci ilin əvvəlinə olan rəsmi məlumatlara görə isə, orada 137 min nəfər əhali yaşayır. Ekspertlər bu rəqəmin xeyli şişirdildiyi, keçmiş vilayətin ərazisində 50-60 min nəfərdən artıq adamın yaşamadığı qənaətindədirlər. Dağlıq Qarabağın didərgin salınmş azərbaycanlı icmasının sayı isə bu gün 72 min nəfərə çatmışdır. Ekspertlərin hesablamalarına

görə, Xankəndində 23,5 min, Şuşada 5 min nəfərə qədər əhali yaşayır. Laçın şəhərinin adı dəyişdirilərək Berdzor, rayonun adı isə Kaşataq qoyulmuşdur. Laçında evlərin 85 faizi bərpa edilmişdir. Burada 10 min nəfərə yaxın erməni məskunlaşdırılmışdır. Kəlbəcər və Ağdam rayonlarına da əhali köçürülmüşdür. Kəlbəcər şəhərində evlərin yandan çoxu bərpa edilmiş, yeni binalar tikilmişdir. Kəndlərin də bəzilərində yaşayış vardır. Kəlbəcər şəhərində "Şaumyan rayonunun icra hakimiyyəti" deyilən qondarma qurum yaradılmışdır. Burada əsasən Şaumyan rayonundan olan ermənilər məskunlaşmışlar. Ağdam şəhəri yaxınlığındakı kəndlərdən birində 280-300 erməni yerləşdirilmişdir. Onlar buraya Marağa kəndindən gətirilimiş və məskunlaşdıqları məntəqənin adını dəyişərək Nor Marağa (Yeni Marağa) qoymuşlar. Dağlıq Qarabağdakı qondarma qurumun öz pasportları yoxdur. Xaricə getmək istəyənlər üçün Ermənistan pasportu verilir.

Dağlıq Qarabağda aeroportlar fəaliyyət göstərmir, Xocalıdakı kiçik aeroport isə yalnız vertolyotlar üçün istifadə olunur. "DQR"-in illik büdcəsi 50-60 milyon ABŞ dollan təşkil edir. Onun 25-30 milyon dollarını "dövlətlərarası kredit" formasında Ermənistandan alır. ABŞ Ermənistandan sonra ikinci ölkədir ki, Dağlıq Qarabağdakı qondarma rejimə dövlət səviyyəsində yardım (ildə 20-25 milyon dollar) göstərir.

1998-ci ildə ABŞ Konqresi ilk dəfə Dağlıq Qarabağa ayrıca humanitar yardım göstərilməsi haqda qərar qəbul etdi. Dağlıq Qarabağda istifadə olunan elektrik enerjisinin 70 faizi özündə istehsal olunur, qalamm isə Ermənistandan ahr. Dağlıq Qarabağda məskunlaşan gəlmə əhali torpağı yalnız 25 illiyə icarəyə götürə bilərlər. Bu məsələ ilə bağlı Laçın istisna təşkil edir, orada torpaq özəlləşdirilmiş və əbədi istifadəyə verilir. Xarici müşahidəçilər Dağlıq Qarabağ ətrafındakı rayonlardan evlərin sökülərək kütləvi surətdə daşınmasının, çoxlu sayda ağacların qırılaraq aparılmasının, yeraltı sərvətlərin çıxarılaraq mənimsənilməsinin dəfələrlə şahidi olmuşlar.

Bu gün Ermənistan ordusunda 45 min nəfərlik canlı qüvvə 5 korpusda cəmləşdirilimişdir. İşğalçı ölkənin silahlı qüvvələri 136 tank, 210 zirehli maşın, 57 tank əleyhinə qurğu, 186 artilleriya qurğusu, az sayda təyyarə və vertolyotlara malikdir. Rusiya tərəfindən Ermənistana 8 operativ taktiki R-17raket kompleksi, 27 "Kruq" zenit-raket kompleksi, 84 T-72 tankı, 18 "Qrad" qurğusu və digər silahlar verilmişdir. Bunlardan başqa Ermənistan işğal olunmuş ərazilərdə 3 korpusda cəmləşdirilimiş 18,5 min nəfərlik canlı qüvvə, 180 tank, 174 zirehli maşın, 72 tankəleyhinə qurğu, 163 artilleriya qurğusu saxlayır. Dağlıq Qarabağdakı işğalçı qüvvələrdən 8,5 min nəfəri yerli ermənilər, 7 min nəfəri Ermənistandan gətirilimiş çağırışçılar, 3 min nəfərini isə başqa ölkələrdən cəlb olunmuş muzdlular təşkil edir. Bu canlı qüvvənin 40 faizi müqavilə əsasında xidmət edir. Ermənistanın 2007-cı il üçün hərbi büdcəsi 280 milyon ABŞ dolları təşkil etmişdir.

İşğalçı ölkə silah arsenalını əsasən Rusiyanın hesabına təkmilləşdirir. Ermənistan və Rusiya həm ikitərəfli, həm də kollektiv müqavilələr əsasında müttəfiqlik edirlər. Rusiya, Belorus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanın daxil olduqları Kollektiv Təhlükəsizlik haqda Müqavilə Təşkilatı (KTMT) Rusiya tərəfindən quruma üzv olan ölkələrə silahların çox ucuz və simvolik qiymətə satılmasını nəzərdə tutur. Rusiya 2006-2007-cı illərdə Ermənistandakı hərbi bazasını modernləşdirmiş, eyni zamanda Ermənistanın özünün silahlı qüvvələrinin yenidən qurulmasına, yeni silah, sursat və texnika ilə təmin olunmasına yardım göstərmişdir. Hazırda Rusiya tərəfindən verilmiş S-300 raket qurğuları Ermənistanın hava hücumundan müdafiə sisteminin əsasını təşkil edir. Ermənistan 1999-cu ildə Çindən 4 ədəd MLRS "WM-80" tipli artilleriya atəşi sistemi, 2005-ci ildə isə Slovakiyadan 10 ədəd SU-25 təyyarəsi almışdır.

Azərbaycan Ordusunun 80 min nəfərlik şəxsi heyəti 5 korpusda birləşdirilmişdir. Qoşunların arsenalı 220 tank, 220 zirehli maşın, 285 artilleriya qurğusu, 100 döyüş təyyarəsi, 50 zərbə vertolyotu, 1 freqat, 3 patrul kateri, 5 mina əleyhinə tral gəmisindən ibarətdir. Azərbaycanın hərbi xərcləri 2004-2005-cı illərdə 51% , 2006-cı ildə 82% artmışdır. 2005-ci ilin dekabrında Müdafiə sənayesi nazirliyi yaradılmış və keyfiyyətli hərbi avadanlıq istehsalına başlanılmışdır. 2007-ci ildə Azərbaycanın hərbi büdcəsi 1,1 milyard dollara çatmışdır. Azərbaycan son illərdə çoxlu sayda güclü silahlar, o cümlədən 12 "Smerç" raket sistemi, 85 ədəd PM-38 artilleriya qurğusu, 72 ədəd MT-12 tank əleyhinə top, 105 T-72 tankı, 6 SU-25 qırıcı-bombardımançı təyyarə, 1 SU-25 UB qırıcısı, 14 MİQ-29 qırıcısı almışdır. Yeddi hərbi aerodrom modernləşdirilmişdir. Bütün bunların nəticəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın silahlı qüvvələri ilə müqayisədə ciddi üstünlüyə nail olmuşdur,

Azərbaycan iqtisadi göstəricilərinə görə Ermənistanı bir neçə dəfə üstələyir. Ümumi Daxili Məhsul 2006-cı ildə 34,5% artmışdır. Adambaşına düşən ümumi milli gəlir 1995-ci ildəki 470 ABŞ dollarından 2005-ci ildə 1240 dollara çatmışdır. Orta aylıq əmək haqqı 2007-ci ildə 25,6% artmışdır. 2008-ci il üçün dövlət büdcəsi 12 millyard dollar həcmində müəyyən edilmişdir. Azərbaycanın sübut olunmuş neft ehtiyatları 7 milyard barrel civarındadır. Bu göstəriciyə görə, Azərbaycan MDB məkanında Rusiya və Qazaxıstandan sonra üçüncü yerdədir. Azərbaycan həmçinin böyük qaz ehtiyatlarına malikdir. Müxtəlif məlumatlara görə, ölkənin 850 milyard-1,4 trilyon kubometr sübut olunmuş qaz ehtiyatları vardır. Ermənistanın isə iqtisadi inkişafı sabit deyildir. Bu, Ermənistanın xarici amillərdən, o cümlədən maliyyə yardımlarından asılı olması ilə bağlıdır. 1992-ci ildən sonra Ermənistana ABŞ tərəfindən ildə 75-100 milyon dollar, "Minilliyin çağırışı" ABŞ proqramı çərçivəsində 235 milyon dollar, ABŞ-da fəaliyyət göstərən "Linsi" fondu tərəfindən 285 milyon dollar, Dünya Bankı tərəfindən 40 proqram

çərçivəsində 935 milyon dollar yardım göstərilmişdir. Xırda həcmdə yardımlar digər qrumlar və dövlətlər tərəfindən də verilir. Bu yardımlar hələlik Ermənistanın ayaqüstə dayanmasına imkan verir. 2006-cı ildə Ermənistanın Ümumi Daxili Məhsulu 13,3% artmışdır. Bu ölkənin 2008-ci ilə dövlət büdcəsi 2,5 milyard dollar məbləğində müəyyən edilmişdir. Müasir müharibə həm də iqtisadi güclərin müharibəsidir. İqtisadi göstəricilər isə göz qabağındadır.

## NƏTİCƏ

***Bizim əsgərlərimiz labüd olaraq zəfər çalacaqlar! (Qurani Kərim, əs-Saffat surəsi, ayə 173)***

Erməniləri başa düşmək olar, Qafqaza gəlmədirlər və torpaqları yoxdur. Ona görə də qonşulardan torpaq almağa çalışırlar. Yüz ildir ki, ermənilərin apardıqları torpaq davasıdır. Bir dəfə, 1918-ci ildə indi Ermənistan adlandırılan əraziləri öz dövlətlərini yaratmaları üçün ermənilərə verdiyimiz kifayətdir. İndi onlara verməyə torpağımız daha yoxdur. Təssüf ki, həm ermənilər, həm də beynəlxalq təşkilatlar bunu başa düşmək istəmir və səbrlə Azərbaycanın güzəştə gedəcəyi günü gözləyirlər. Beynəlxalq təşkilatlar, böyük dövlətlər müharibənin yenidən alovlanmasını istəmirlərsə, əbəs yerə gözləməməli, münaqişənin nizama salınması üçün qətiyyətli addım atmalıdırlar. Qətiyyətli addım isə işğalçı tərəfin cəzalandırılması yönündə ola bilər. İşğalçı Ermənistan beynəlxalq hüquq normalarına uyğun olaraq bütün beynəlxalq təşkilatlardan xaric edilməli, uluslararası proseslərdən təcrid olunmalı və sanksiyalara məruz qalmalıdır. İraq, Liviya, Serbiya kimi dövlətlərə tətbiq olunan sanksiyalar Ermənistana da aid edilməlidir. İlk növbədə iqtisadi sanksiyalar tətbiq oluna bilər. Lakin beynəlxalq təşkilatlar, böyük dövlətlər bunu da etmək istəmir və, əksinə, işğalçı Ermənistana hərtərəfli yardım göstərməkdə davam edirlər. Bununla Ermənistanı şirnikləşdirir və işğalçı niyyətlərində israrlı olmağa həvəsləndirirlər. Amma ermənilər bu dəfə heç nəyə ümid etməməlidirlər. İşğalçı Ermənistan rejimi məkrli niyyətlərinə nail ola bilməyəcəkdir. Danışıqların davam etdirilməsi hələlik ermənilərə ümid verir. Azərbaycan silahı işə düşəndə ermənilər ümidlərində yanıldıqlarını başa düşəcəklər. Ermənilər başqa dili yox, yalnız silah dilini yaxşı başa düşürlər. Ermənilər Azərbaycan türkünün gücünü və silahını görəndə geri çəkiləcək və yerlərində oturacaqlar. Tarixdə həmişə belə olub. Erməniləri başa salmağın başqa yolu yoxdur.

1905-1906-cı illərdə erməni terror təşkilatları təpədən-dırnağadək silahlanaraq Azərbaycanın şəhər və kəndlərini dağıdır, dinc əhaliyə divan tutur, yerindən-yurdundan qovub çıxarırdılar. M.S.Ordubadi "Qanlı illər" kitabında yazırdı ki, ermənilər silahsız insanları məhv edir, var-dövlətlərini talan edirlər. Heç yerdə onlara müqavimət göstərilmirdi. Nəhayət, 1906-cı ilin yanvarında erməni quldurları Ağdamın Papravənd kəndində ilk ciddi müqavimətlə rastlaşdılar. Bir gün fasiləsiz davam edən döyüşdə ermənilər darmadağın edildilər. Bu döyüşdə ermənilərə qarşı nizami ordu deyil, Papravənd və yaxın kəndlərin əhalisindən tələm-tələsik toplanmış, az sayda silahı olan dəstələr vuruşurdu. M.S.Ordubadi yazırdı ki, "Papravənd müharibəsindən sonra ermənilər başa düşdülər ki, müsəlmanlarla döyüşmək olmaz, onlarla danışıqlara getmək lazımdır". Təsadüfi deyil ki, məhz bu döyüşdən sonra, 1906-cı ilin fevralında ermənilər Tiflisdə barışıq konfransının çağırılmasına razılaşdılar və murdar əməllərindən əl çəkdilər.

1918-ci ildə də ermənilər Azərbaycana qarşı iddialarını irəli sürəndə yalnız qoşunlarımızın zərbələrindən sonra geri çəkildilər. Qarabağın general-qubernatoru Xosrov bəy Sultanov həmin dövrdə Azərbaycan hökumətinə göndərdiyi müraciətdə bildirirdi ki, ingilis generalı Şatelvortun başçılıq etdiyi nümayəndə heyətinin vasitəçiliyindən imtina edilməlidir, "ingilislərin guya bizə münasibətdə qərəzsizlik və xeyirxahlıq göstərib Qarabağ məsləsində bitərəf mövqe tutmaları problemin həllini yubatmış və sayıqlığımızı azaltmışdır,... ermənilərin xeyrinə olmuşdur". Bu gün şatelvortlan brayzaların, merzlyakovların, fasyelərin əvəz etməsi ilə heç nə dəyişməmişdir, eyni ssenari eyni həvəslə həyata keçirilir. X.Sultanov daha sonra təklif edirdi:

1. Qarabağ-Zəngəzur məsələsinin həllində ingilislərin köməyindən imtina edilməlidir, çünki onlar bu işdə bizə yalnız maneçilik törədirlər;
2. Məcburedici tədbirlər görülməzsə, ermənilər Azərbaycan hökumətinin tabeçiliyinə razı olmayacaqlar;
3. Bu məsələni bir ay da həllsiz qoymaq bölgədən həmişəlik əlini üzmək deməkdir;
4. Dağlıq Qarabağ ermənilərinə Azərbaycan hakimiyyətini altı günə tanımaq barədə ultimatum verilməlidir;
5. Azərbaycan hökümətini tanımayacağı təqdirdə altıgünlük möhlət bitəndən sonra hərbi əməliyyatlara başlanılmalıdır.

X.Sultanov eyni zamanda xəbərdarlıq edirdi ki, təxirəsalınmadan hərbi əməliyyatlara başlamasaq, Qarabağın itiriləcəyi ehtimalı böyükdür. O, həmçinin bildirirdi ki, ingilis vasitəçiliyi nəticəsində Qarabağ məsələsinin həlli ləngidilmiş, Zəngəzur və Qarabağ ermənilərinin Azərbaycan hakimiyyətini dinc yolla tanımaları təmin olunmamışdır. Bu deyilənlər bu günün hadisələri, bu günkü vəziyyətlə tam şəkildə səsləşir.

Son yüz ildə, xüsusi ilə də çağdaş tariximizdə ermənilərin bizə qarşı törətdiyi vəhşiliklərdən, işğalçı və ilhaqçı siyasətdən dərs götürməli, nəticələr çıxarmalıyıq. **Birincisi,** erməni toplumu bizə qarşı törədilmiş cinayətlərə görə kollektiv məsuliyyət daşıyır. "Yaxşı erməni" axtarışının heç bir mənası yoxdur. Biz rasist deyilik, lakin ermənilərə etdiyimiz yaxşılıqların müqabilində həmişə pislik və xəyanət görmüşük. Ona görə də bundan sonra işimizi bilməliyik. Hər kəs bilməlidir ki, bizimlə yaxınlıq edən hər hansı erməni hansısa müvəqqəti maraqlarını güdür, sadəlövlüyümüzdən istifadə etməyə çalışır və hökmən müəyyən məqamda xəyanət edəcək, arxadan zərbə vuracaqdır. Bütün ermənilərin xisləti eynidir. Katolikosundan tutmuş fəhləsinə qədər bir erməni də bu günə qədər Azərbaycana qarşı Ermənistan rejimi tərəfindən törədilmiş işğal faktını, vəhşilikləri ittiham etməmişdir. Müqayisə üçün qeyd edilməlidir ki, Hitlerin yaratdığı dəhşətli faşist diktaturası şəraitində də yüzlərlə alman həyatı ilə risk edərək, təşkilatlar yaradır, antibəşəri rejimə qarşı etirazını bildirir, faşizmin qurbanlarını xilas etməyə çalışırdı. Ermənilərə isə bu hisslər yaddır, əksinə, işğalçı və terorçu rejimlərini dəstəkləməyə çalışırlar. Ona görədə törədilmiş cinayətlərin məsuliyyəti hər bir ermənінin üzərinə düşür və hər biri cavab verməlidir. **İkincisi,** heç bir azərbaycanlı ermənilərin qəsdini, törətdikləri vəhşilikləri unutmamalıdır. Unutqanlıq ermənilərin başımıza açdıqları faciələrin təkrar olunmasına gətirib çıxarır. Düşmənimizi tanımalı və düşmənlə düşmən kimi rəftar etməliyik. Ermənilərlə münasibətdə həmişə müəyyən məsafə saxlanılmalıdır. Ermənilərlə yaxınlıq edilməsi, xoş münasibətlərin bərpa edilməsi növbəti dəfə bədbəxtliklər gətirə bilər. Hər bir gənc erməni vəhşilikləri haqqında məlumatlandırılmalıdır. Erməni təhlükəsi haqda xəbərdarlıq nəsildən nəsilə ötürülməli, qan yaddaşımıza əbədi həkk olunmalıdır. Ermənilərin arxasında kimin durmasından, kimlərin onlardan istifadə etməsindən asılı olmayaraq zərbə bizə həmişə erməni əli ilə vurulmuşdur. Öndə olan, qılıncla, top-tüfənglə, tankla üstümüzə gələn erməni olmuşdur. Xəncəri kürəyimizə ermənilər sancmışlar. Bunu heç vaxt yadımızdan çıxarmamalıyıq. **Üçüncüsü,** ermənilərə heç vaxt aman və fürsət verilməməlidir. Onların hər hansı təşəbbüsü beşiyindəcə boğulmalıdır. Çox vaxt ilk baxışdan fikir vermədiyimiz erməni yalanı az sonra dəhşətli fəlakətə çevrilir, qarşısını almaq mümkün olmur. Erməni yalanlarına qarşı hər yerdə, hər an ağıllı mübarizə aparılmalıdır. Erməni təbliğatına qarşı biganəlik, laqeydlik, yalançı təvazökarlıq və etinasızlıq xəstəliyindən yaxamızı qurtarmalıyıq. Ermənilərin maskalarını yırtmalı, dünyaya həqiqi simalarını nümayiş etdirməliyik. Ermənilərin islah edilməsinin, sivil dəyərlərə riayət etmələrinin başqa yolu yoxdur. Qonşunun torpaqlarına göz tikən, yaxşılığa eybəcərliklə cavab verən, xeyirxahlarına qarşı gecə-gündüz dayanmadan məkrli planlar cızan, xeyirlə şər arasında fərqi itirən bir toplum, onun yaratdığı quldur dövlət üçün sivil dünya birliyində yer yoxdur.

**Dördüncüsü,** erməni işğalına qarşı mübarizədə yalnız öz gücümüzə arxalanmalıyıq. Ən yaxın dostun və müttəfiqin də öz maraqları var. Biz bunu təbii qarşılamalıyıq. Zəif və gücsüzlərə heç kəs yardım etməz. Çünki yardım edən də fikirləşir ki, verdiyi dəstək hədər getməsin. Zəifə verilən dəstək həmişə hədər gedir. Zəif özünda təpər tapıb dəstəyi nəticəyə, qələbəyə çevirə bilmir. Özümüzdə güc tapıb problemimizi həll etməyə qadir olduğumuzu nümayiş etdirməliyik. Onda bizə dəstək çıxanların sayı da çox olacaq. Yazıqdan, zar-zar ağlayanlardan Allah da bezər. Qaçqın komasında, yaxud varlı villasında əllərini qoynuna qoyub gözləyən millətə heç kəs kömək etməyəcəkdir. Səsimizi birlikdə çıxartmalıyıq ki, lal olmadığımızı bilsinlər. Səsimizi birlikdə çıxartmalıyıq ki, iradəmizi, torpaqlarımıza sahib olmaq əzmimizi görsünlər. Səsimizi bir yerdə çıxartmaq, vahid iradəmizi nümayiş etdirmək üçün isə təşkilatlanmalıyıq. Müasir dünyanın tələbi budur. Haqqımızı müdafiə etmək istəyiriksə, bu yolla getməliyik. Düşmənimizin yaratdığı yüzlərlə təşkilatın qarşısına heç olmasa, bir neçə təşkilatla çıxmalıyıq. Bu təşkilatlar qrand həvəsi üçün deyil, millət davası üçün yaradılmalıdır. Hələlik mətbəxlərdə üsyan edən, restoran, kafe və çayxanalarda od püskürən vətəndaşlara bu təşkilatlarda birləşməlidirlər. Sözdən əmələ keçid təşkilatlanma ilə başlayır. Nə qədər ki, torpaqlarımız işğal altındadır, axşam-səhər palçıqlı küçə ilə gedib-gələn, övladlarına bir tikə çörək qazanan fağırla limuzində gəzən özündənbəyin, yaxud xaricdə pul qıran, bərk gedən oğlanın arasında heç bir fərq yoxdur. Hər birinin alnına şərəfsiz və qeyrətsiz damğası vurulmuşdur. Bu damğanı silməyin ancaq bir yolu var, o da mübarizədir. Mübarizəni isə təşkilatlanaraq aparmaq olar. XX əsrin əvvələrində ermənilər İrəvanda, Zəngəzurda, Qarabağda qurultay çağrır, təşkilat yaradıb tələblər irəli sürəndə bizim fağırlar dükanda, bazarda alver edir, çöldə-bayırda əkin əkir, heyvan saxlayırdılar ki, vaxtımız yoxdur, bəylərimiz, ruhanilərimiz, ziyalılarımız isə ya çayxanalarda qəlyan çəkirdilər, ya da əziz canlarının, övladlarının "xoş" gələcəyinin hayında idilər ki, bunların bizə dəxli yoxdur. İrəvanı, yaxud Zəngəzuru ermənilərə verəndə beş nəfər irəvanlı, ya da zəngəzurlu bir yerə yığışıb tələb qoymadı ki, bu nə hoqqadı, çıxarırsınız!? Bu gün daxilini deyil, zahirini dəyişmiş, Avropa paltarları geyinmiş fağırlar da, bəylər də, ziyalılar da elə həmin vəziyyətdədirlər. Bu vəziyyət və münasibət dəyişməlidir. Düşünüb-daşınmalı və dəyişdirməliyik. **Beşincisi,** Qarabağ məsələsi ətrafında beynəlxalq təşkilatların vasitəçiliyi ilə aparılan danışıqlar heç bir nəticə vermədi. Bu danışıqlar status-kvonun saxlanılmasına, Ermənistanın iddialarının maksimum ödənilməsinə yönəlmişdir. Ermənistan beynəlxalq təşkilatların dəstəyi ilə ona nail olmuşdur ki, danışıqlarda əsas məsələ kimi işğal faktı deyil, Dağlıq Qarabağın statusu ilə bağlı məsələ müzakirə olunur. Bu yanaşma Ermənistanın işğalçı tərəf kimi məsuliyyətini heçə endirir. Ona görə də bu yanaşma ilə aparılan danışıqlardan hansısa nəticənin gözlənilməsi

mənasızdır. Azərbaycanın bu danışıqlarda iştirakı işğalçı Ermənistanın maraqlarına xidmət edir. Ermənistan danışıqlar yolu ilə Dağlıq Qarabağı ilhaq etmək şansını və manevrlər imkanını saxlayır. Vasitəçilər yaxşı bilirlər ki, bu danışıqlar işğal olunmuş ərazilərin həmişəlik Ermənistana təhvil verilməsinə doğru aparır. Ona görə də Azərbaycanın danışıqlardan çıxmaq cəhdlərinin qarşısını bütün vasitələrlə alırlar. Azərbaycan on altı il ərzində səbrlə danışıqları davam etdirməklə beynəlxalq təşkilatlar qarşısında bütün öhdəliklərini yerinə yetirmiş, beynəlxalq hüquq normalarına hörmətlə yanaşdığını nümayiş etdirmişdir. Danışıqların heç bir nəticə verməməsinin məsuliyyəti vasitəçilərin üzərinə düşür. Ermənistanın əsassız iddialarının qarşısında əlacsız qalan, ədalətli və prinsipial mövqe tuta bilməyən vasitəçilərin "xidmətlər"indən birmənalı şəkildə imtina olunmalıdır. Azərbaycan öz mövqeyini beynəlxalq təşkilatlar qarşısında əsaslandırmalı və danışıqları birtərəfli qaydada dayandırmalıdır. **Altıncısı,** torpaqlarımız yalnız hərb yolu ilə işğaldan azad oluna bilər. Beynəlxalq təşkilatların ədalətli mövqe tutmaq istəməməsi, Ermənistanın işğalçı və ilhaqçı iddialarından geri çəkilməməsi bu yolu labüd edir. Məsələnin digər tərəfi mənəvi amillərlə bağlıdır. Ermənilərin silahla zəbt etdiyi ərazilər silahla da geri alınmalıdır. Bu, millətin və dövlətin əxlaq, ləyaqət və qürur məsələsidir. Azərbaycanın milli qürurunun özünə qaytarılması üçün qalibiyyətli müharibə hava və su kimi vacibdir. Qüruru öldürülmüş millət və dövlət labüd məhvə məhkumdur. Tarix bunun nümunələrini dəfələrlə göstərmişdir. Azərbaycan işğalçı Ermənistana qarşı uğurlu hərbi əməliyyatlar aparmaq üçün bütün imkanlara malikdir. Bu müharibə Azərbaycan tərəfi üçün işğala qarşı yönəlmiş ədalətli müharibədir. Beynəlxalq hüquq normaları Azərbaycanın müharibəni başlamasına imkan verir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsində işğala məruz qalmış ölkə və xalqın işğalçıya qarşı bütün vasitələrlə, o cümlədən hərbi yolla mübarizə aparmaq hüququ aydın şəkildə göstərilir. Beynəlxalq təşkilatların işğala qarşı müharibə aparan ölkəyə hər hansı sanksiya tətbiq etmək hüququ yoxdur. Azərbaycanın müharibə aparmaq üçün maliyyə, maddi və insan resursları kifayət qədərdir. Bu resurslar Ermənistanın az vaxt ərzində darmadağın edilməsi üçün kifayətdir. Ciddi resursları olmayan Ermənistanın xarici donorlara bəslədiyi ümidlər əbəsdir. Xarici donorların Ermənistana davamlı və kifayət qədər yardım edəcəkləri real deyildir. Mənəvi-psixoloji üstünlük də Azərbaycanın tərəfindədir. Azərbaycan Ordusu öz torpaqları uğrunda qisas və intiqam hissi ilə vuruşacaqdır. Ermənilərin isə özgə torpağında ruh yüksəkliyi ilə döyüşəcəyi mümkün deyildir. Azərbaycan potensial hərbi müttəfiqlər baxımından da üstündür. Bir sıra dövlətlərin Azərbaycanı dəstəkləyəcəyi, on azından bitərəf qalacağı şəksizdir. Hər hansı xarici dövlətin Ermənistanı ciddi şəkildə dəstəkləyəcəyi ilə bağlı ehtimallar isə həddindən artıq şişirdilmişdir. Bu baxımdan ehtimal olunan ölkələrin daxili problemləri və

Azərbaycanla bağlı maraqları nəzərə alınmalıdır. Əlbəttə, müharibə böyük risq və təhlükələrlə bağlıdır. Ona görə də müharibəyə hər tərəfli hazırlıq işləri aparılmalı, bütün amillər nəzərə alınmalı, əlverişli şərait və vaxt seçilməlidir. Lakin istənilən halda müharibə qaçılmazdır. Azərbaycan hətta uzunmüddətli və fasiləsiz müharibəyə də hazır olmalıdır. Bu ölüm-dirim, millətin və dövlətin varlığı-yoxluğu məsələsidir. Burda tərəddüdlərə, şübhələrə, qeyri-müəyyənliyə artıq yer yoxdur. Bu müharibəni biz başlamamışıq, amma biz başa çatdırmalıyıq. Vaxt da gözləmir, ildırım sürəti ilə bizim əleyhimizə işləyir.

Beləliklə, Beynəlxalq təşkilatlar, böyük dövlətlər Qarabağ məsələsinin ədalətli prinsiplər əsasında nizama salınmasını, işğala məruz qalmış Azərbaycanın haqlı mövqeyini müdafiə etmək istəmirlər. Onlar bölgədə sabitliyin qorunub saxlanılmasında maraqlıdırlar.Lakin ötəri və müvəqqəti tədbirlərlə sabitliyi saxlamaq mümkün deyildir. Davamlı sabitlik yalnız ədalətli yanaşma ilə əldə oluna bilər. Ermənistan Rusiyanın dəstəyi ilə əldə etdiyi qələbə eyforiyasından tədricən uzaqlaşır və bu "qələbə"nin onun üçün hansı fəlakətləri hazırladığını anlamağa başlayır. Müharibənin və atəşkəs dövrünün acı həqiqətlərindən dərs götürmüş Azərbaycan isə məğlubiyyəti qələbəyə çevirmək əzmindədir. Qüdrətli və ləyaqətli millətə, dövlətə doğru aparan yol Qarabağdan keçir. Başqa yol yoxdur!

## *Xronologiya*

**Eradan əvvəl IV əsr.** Arsax-Qarabağ vilayətinin də daxil olduğu Azərbaycan Albaniya dövləti yaradılır.
**VII əsr.** Qarabağ Ərəb xilafəti dövlətinin tərkibinə daxil edilir. Vilayətin əhalisinin böyük əksəriyyəti islam dinini qəbul edir.
**IX əsr.** Qarabağ Sacilər dövlətinin təkibində.
**XII əsr.** Qarabağ Atabəylər dövlətinin təkibində.
**XIV-XV əsrlər.** Qarabağ Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində.
**XVI-XVIII əsrlər.** Qarabağ Səfəvilər dövlətinin təkibində.
**1750-ci il.** Qarabağ xanlığı yaradılır.
**14 may 1805-ci il.** Qarabağ xanlığı Rusiya dövlətinin himayəsini qəbul edir.
**1823-cü il.** İlk rəsmi siyahıyaalmaya görə, indiki Dağlıq Qarabağ ərazisində yaşayan 18563 ailədən yalnız 1559-u və ya 8,4%-i erməni ailələridir.

**1827-ci il.** Qafqaz Arxeoqrafiq Komissiyasının aktına əsasən Qarabağın Dağlıq hissəsində 12 min ailə yaşayırdı ki, bunlardan da yalnız 2,5 mini qeyri-müsəlmanlar idi.

**1828-1830-cu illər.** Türkmənçay müqaviləsinə əsasən İrandan 40 min, Türkiyədən 84 min nəfər erməni köçürülərək, İrəvan və Yelizavetpol (indiki Gəncə) qəzalarında yerləşdirilir. Gəncə qəzasına göndərilənlərin çoxu indiki Ağdərə rayonu ərazisinə yerləşdirilir.

**1832-ci il.** Dağlıq Qarabağ ərasisində köçürmələr nəticəsində ermənilərin sayı 34,8%-ə çatdırılır.

**1878-ci il.** İngiltərə və Rusiya Berlin konqresinin gedişində ilk dəfə "erməni məsələsi"ni gündəmə gətirirlər.

**1886-cı il.** "Qafqaz təqvimi" məcmuəsində göstərilir ki, Zəngəzur mahalında Azərbaycanlılar 45,7%, ermənilər 24,8%, digər millətlər isə 29,5% təşkil edir.

**Fevral 1905-ci il.** Erməni terror təşkilatları Bakı, İrəvan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər yerlərdə azərbaycanlılara qarşı kütləvi qırğınlara başlayırlar, 50 min nəfərdən artıq azərbaycanlı qətlə yetirilir.

**Avqust 1905-ci il.** Erməni dəstələri Şuşanın azərbaycanlılar yaşayan məhəllərinə hücuma keçirlər, 100-ə qədər azərbaycanlı ödürülür, 20-ə qədər ev yandırılır.

**Dekabr 1905-ci il.** Əhməd bəy Ağaoğlunun başçılığı altında "Difai" (Müdafiə) təşkilatı yaradılır.

**26 dekabr 1905-ci il.** Ağdərə rayonunun 500 nəfərlik Umudlu kənd sakinləri Ağdama pənah apararkən yolda Avram hampanın dəstəsi tərəfindən qətlə yetirilirlər.

**İyul 1906-cı il.** Erməni silahlıları ikinci dəfə Şuşaya hücum edirlər.

**1918-ci il.** İrəvan quberniyasının 4 mahalında 199 Azərbaycan kəndi dağıdılır, 135 min nəfər azərbaycanlı didərgin salınır.

**17 mart 1918-ci il.** Urmiya şəhərində erməni terrorçuları 10 min nəfərdən artıq azərbaycanlını qətlə yetirirlər. Həmin tarixdən başlayaraq bir ay ərzində Urmiya, Salmas, Xoy, Maku, Şərəfxan və digər yerlərdə 100 mindən artıq adam öldürülür.

**18 mart 1918-ci il.** Şamaxı qəzasının 53 kəndində ermənilər 8 min 27 nəfəri, o cümlədən 4190 kişi, 2560 qadın, 1277 uşağı qətlə yetirmişlər. Həmin ayın sonuna qədər öldürülənlərin sayı 12 min nəfərə çatdırılır.

**19-31 mart 1918-ci il.** Bakı şəhərində ermənilər tərəfindən 18 min Azərbaycanlı qətlə yetirilir.

**1-9 may 1918-ci il.** Quba qəzasında 122 kənd dağıdılır, 2800 nəfər azərbaycanlı öldürülür.

**29 may 1918-ci il.** Azərbaycan parlamenti (Milli Şura) Antanta dövlətlərinin davamlı təzyiqlərindən sonra Azərbaycan şəhəri İrəvanın Ermənistana verilməsi haqda qərar qəbul edir.

**1918 ci ilin yay və payız ayları.** Zəngəzur qəzasında 115 azərbaycanlı kəndi ermənilər tərəfindən dağıdılır, 7729 azərbaycanlı öldürülür. 400-ə qədər azərbaycanlının qapıları bağlayaraq, diri-diri məsciddə yandırırlar.
**29 yanvar 1919-cu il.** Qarabağ general-qubernatorluğu yaradılır.
**01 dekabr 1920-ci il.** Azərbaycanın Zəngəzur mahalının böyük hissəsi Moskva rəhbərliyinin qərarı ilə Ermənistana verilir.
**07 iyul 1923-cü il.** Moskva rəhbərliyinin qərarı ilə Dağlıq Qarabağa muxtar vilayət statusu verilir.
**18 sentyabr 1923 cü il -** Xankəndinin adı "Stepanakert" adlandırılır.
**18 fevral 1929-cu il.** Moskva rəhbərliyinin qərarı ilə Naxçıvan Muxtar Respublikasına məxsus olan 657 kv.km ərazi-Qurdbulaq, Hörədiz, Oğbun, Almalı, İtqıran, Sultanbəy, Qarsevən, Kilid və digər kəndlər, həmçinin Zəngilan rayonunun Nüvədi kəndi, Qazax rayonunun 4400 hektarlıq meşə sahəsi Ermənistana verilir.
**1930-cu il.** Moskva rəhbərliyinin qərarı ilə Naxçıvanın Əldərə, Lehvaz, Astazur və digər yaşayış məntəqələri Ermənistana verilir və bu ərazilər üzrə Mehri rayonu yaradılır.
**1938-ci il.** Moskva rəhbərliyinin qərarı ilə Naxçıvanın Sədərək və Kərki kəndlərinin bir hissəsi Ermənistana verilir.
**28 noyabr 1945-ci il.** Ermənistan rəhbəri H.Arutinov Stalinə müraciət edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini xahiş edir.
**1947-1953-cü illər.** Ermənistanda toplum şəkildə yaşayan 150 min nəfərdən artıq azərbaycanlı SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycana köçürülür.
**1965-ci il.** Xankəndində yaşayan M.Hovenesyan 13 nəfər erməninin imzası ilə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi xahişi ilə məktubu SSRİ Ali Sovetinə göndərir.
**İyun-avqust 1967-ci il.** Dağlıq Qarabağın Xocavənd rayonunun Kuropatkin kəndində erməni Benikin uşağı yoxa çıxır, sonra isə onun meyidi Ələmşah Mustafayevin briqadasına məxsus olan sahədən tapılır. Bu hadisəyə görə briqadir Ələmşah, direktor Ərşad, kənd sakini Zöhrab həbs olunurlar. Bu şəxslərin günahı sübut olunmadığına görə məhkəmə işi yenidən istintaqa qaytarılır. Lakin ermənilər yolda həbsxana maşınını saxladır, onu çevirir, hər üç nəfəri öldürür, sonra da yandırırlar. Az sonra sübut olunur ki, uşağı öz dayısı öldürüb.
**1969-cu il.** Xankəndində "Qarabağ" mehmanxanasının eyvanından qumbara atılır, üç azərbaycanlı yaralanır.
**1969-cu il.** Laçın rayonunun Qaragöl ərazisinin, Qubadlı rayonunun Çayzəmi ərazilərinin, Qazax rayonunun Kəmərli kənd ərazilərinin, Kəlbəcər rayonunun Zod qızıl yatağı ərazilərinin bir hissəsi Moskva rəhbərliyinin qərarı ilə Ermənistana verilir.

**1982-ci il.** Moskva rəhbərliyinin qərarı ilə Qazax rayonunun İncədərə yaylağı, Kəmərli, Aslanbəyli, Qayınaqlı kəndləri ərazilərinin bir hissəsi Ermənistana verilir.
**Dekabr 1985-ci il.** "Daşnaksütyun" partiyasının Afinada keçirilən XXII qurultayı "Böyük Ermənistan" uğrunda mübarizəni genişləndirmək qərarını qəbul edir.
**1986-cı il.** Moskva rəhbərliyinin qərarı ilə Qazax rayonunun 2500 hektarlıq ərazisi Ermənistana verilir.
**1987-ci il.** Akademik A.Aqambekyanın təkidi ilə Parisdə keçirilən erməni ümummilli konqresi SSRİ-də yaranmaqda olan dəyişiklikərdən istifadə edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul edir.
**İyun-iyul 1987-ci il.** Ermənilər Xankəndinin küçələrində vərəqələr yayır, Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün təbliğata başlayırlar.
**Oktyabr 1987-ci il.** İrəvanda "Qarabağ komitəsi" ilk açıq mitinq keçirir. Komitəyə İqor Muradyan və Levon Ter-Petrosyan başçılıq edirlər.
**16 noyabr 1987-ci il.** M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə qəzetlərə müsahibə verərək, Dağlıq Qarabağın Ermənistana verilməsi ilə əlaqədar M.Qorbaçovu razı saldığını bildirir.
**13 fevral 1988-ci il.** Ermənilər Xankəndində Vilayət partiya komitəsinin binası qarşısında ilk mitinqi keçirirlər. 400-ə qədər adamın iştirak etdiyi mitinqə "Krunk" terrorçu təşkilatının sədri Arkadi Manuçarov rəhbərlik edir.
**19 fevral 1988-ci il.** İrəvanda antitürk mövqeli mitinq keçirilir. Mitinqdə "Ermənistanı türklərdən təmizləməli","Ermənistanda ancaq ermənilər yaşamalıdır" tələbləri irəli sürülür.
**19 fevral 1988-ci** il. Bakıda "Qarabağ bizimdir!" şüarları ilə ilk yürüş keçirilir.
**20 fevral 1988-ci il.** Ermənilər Xankəndində Vilayət partiya komitəsinin binası qarşısında 3 min nəfərin iştirak etdiyi növbəti mitinqlərini keçirirlər. Dağlıq Qarabağın Vilayət Soveti Ermənistana birləşmək haqda qərar çıxarır və SSRİ Ali Sovetinə göndərir.
**22 fevral 1988-ci il.** Əsgəran qəsəbəsində azərbaycanlıların dinc yürüşü erməni silahlıları tərəfindən güllə-boran edilir. 2 nəfər yeniyetmə Əli Hacıyev və Bəxtiyar Quliyev öldürülür, 19 nəfər yaralanır.
**23 fevral 1988-ci il.** Vilayət partiya komitəsinin birinci katibi B.Gevorkov vəzifəsindən azad edilir, onun yerinə Q.Poqosyan təyin olunur.
**28-29 fevral 1988-ci il.** Sumqayıtda ermənilər tərəfindən təxribat xarakterli qırğınlar törədilir, 26 erməni, 6 azərbaycanlı öldürülür.
**14 may 1988-ci il.** Şuşada azərbaycanlılar 5 min nəfərin iştirak etdiyi mitinq keçirir. Mitinqdə erməni silahlılarının hücumlarına son qoyulması tələb edilir.
**16 may 1988-ci il.** Xankəndində bir qrup azərbaycanlını döyərək maşına yığır və Şuşaya göndərirlər.

**16 may 1988-ci il.** Bakıda Dağlıq Qarabağ ermənilərinin separatçı hərəkətlərinə, Ermənistandan gələn emisarların oradakı fəaliyyətinə son qoyulması tələbləri ilə mitinq keçirilir.
**15 iyun 1988-ci il.** Ermənistan Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə qərar qəbul edir.
**24 iyun 1988-ci il.** Arkadi Volski Moskvanın xüsusi nümayəndəsi kimi Dağlıq Qarabağa göndərilir.
**18-21 sentyabr 1988-ci il.** Xankəndində azərbaycanlılar yaşayan evlər yandırılır, adamlar döyülür və Şuşaya göndərilir.
**21 sentyabr 1988-ci il.** Dağlıq Qarabağ və Ağdam ərazilərində xüsusi vəziyyət elan ounur.
**22 sentyabr 1988-ci il.** İrəvan, Leninakan, Abovyan, Eçmiədzin və digər şəhərlərdə Qarabağın Ermənistana birləşdirilməsi, azərbaycanlıların Ermənistandan çıxarılması tələbləri ilə kütləvi tətillər, mitinqlər keçirilir.
**04 oktyabr 1988-ci il.** Dağlıq Qarabağın Xankəndi və Xocalı şəhərlərində azərbaycanlılara basqınlar edilir, onlar döyülür və köçüb getmələri tələb olunur.
**18 noyabr-5 dekabr 1988-ci il.** Bakıda "Azadlıq" meydanında fasiləsiz izdihamlı mitinqlər keçirilir. Mitinq iştirakçıları ermənilərin Dağlıq Qarabağdakı vəhşiliklərinə, Ermənistanın Dağlıq Qarabağa müdaxilələrinə son qoyulmasını tələb edirlər.
**21 noyabr 1988-ci il.** Bakıda və Gəncədə ixtişaşlar baş verir, 3 hərbçi öldürülür, xeyli adam yaralanır. Bakı, Naxçıvan və Gəncədə xüsusi vəziyyət elan olunur.
**24 noyabr 1988-ci il.** Ermənistanın ərazisindən Azərbaycanın Qubadlı rayonunun Eyvazlı, Qədirli, Davudlu kəndlərinə basqınlar edilir, Eyvazlı kəndi tamamilə yandırılır.
**Noyabr 1988-ci il.** Ermənistanın şimal-şərq hissəsindəki Vartan kəndində 12 azərbaycanlı diri-diri yandırılır.
**Noyabrın sonu 1988-ci il.** Ermənistanın Quqark rayonunda 70 nəfər azərbaycanlı qətlə yetirilir. Onlardan Gözəldərə kəndində 21 nəfər, o cümlədən 6 qadın, 3 körpə uşaq öldürülür.
**08 dekabr 1988-ci il.** Ermənistanda zəlzələdən zərər çəkənlərə yardım məqsədilə Azərbaycandan 80 peşəkar xilasedici, mexanikləşdirilmiş dəstə Spitaka yola düşür. Onlar bir neçə gün ərzində 63 nəfəri xilas edirlər.
**10 dekabr 1988-ci il.** Zəlzələ ilə əlaqədar olaraq Yuqoslaviyadan döndərilən təyyarə Belqrad-Ankara-İrəvan marşurutu ilə Ermənistana uçur. Ankaradan uçduğu üçün ermənilər onu türk təyyarəsi hesab edərək qəzaya uğradırlar. Təyyarənin 6 nəfərlik şəxsi heyəti həlak olur.
**11 dekabr 1988-ci il.** Zəlzələ ilə əlaqədar olaraq Azərbaycanın xilasedici dəstəsi Ermənistanın Leninakan şəhərinə uçur. Ermənilər yanlış koordinat verərək

təyyarəni qəzaya uğradırlar. 69 nəfər xilasedici və 4 nəfər ekipaj üzvü həlak olur. Yalnız bir nəfər xilasedici salamat qalır. Onu xəstəxanaya yerləşdirirlər, lakin az sonra ermənilər mitinq edərək onun xəstəxanadan çıxarılmasına nail olurlar.
**15 dekabr 1988-ci il.** SSRİ rəhbərliyi Azərbaycan və Ermənistan rəhbərlərinə bir sıra qanunsuz hərəkətlərə görə öz respublikalarında vəzifəli şəxslərin cəzalandırılması tapşırığını verir. Bir ay ərzində Azərbaycanda erməniləri guya sıxışdırdıqlarına görə 2532 nəfər məsuliyyətə cəlb olunur, 222 nəfər işdən çıxarılır, 65 nəfər partiya və komsomoldan çıxarılır. Bu tədbirlərdən sonra 19 min nəfərdən çox erməni Azərbaycana qayıdır. Ermənistanda isə həmin vaxt ərzində 13 nəfər partiyadan xaric edilir, 24 nəfər vəzifəsindən çıxarılır, 69 nəfərə partiya cəzası verilir. Ermənistana bir nəfər də olsun azərbaycanlı qaytarılmır.
**25 dekabr 1988-ci il.** Ermənistandan 250 mindən çox azərbaycanlının deportasiya edilməsi əsasən başa çatdırılır.
**12 yanvar 1989-cu il.** SSRİ Ali Soveti tərəfindən Dağlıq Qarabağ ərazisində Xüsusi İdarə Komitəsi yaradılır. Komitəyə Moskvanın nümayəndəsi Arkadi Volcki rəhbər təyin edilir. Komitənin təkibinə 5 rus, 2 erməni və 1 azərbaycanlı təyin edilir.
**6 may 1989-cu il.** SSRİ Xalq deputatlarının 1 qurultayı Moskvada öz işinə başlayır. Qurultay ermənilərin maraqlarına uyğun qərarlar qəbul edir.
**6 iyul 1989-cu il.** Xankəndi yaxınlığındakı azərbaycanlılar yaşayan Kərkicahan qəsəbəsi yandırılır.
**08 iyul 1989-cu il.** Ermənilər Xankəndində "Miatsum" hərəkatının təsis yığıncağını keçirir və Robert Koçaryanı hərəkata sədr seçirlər.
**16 iyul 1989-cu il.** Azərbaycan Xalq Cəbhəsi yaradılır və Əbülfəz Elçibəy sədr seçilir.
**29 iyul 1989-cu il.** Ermənilərin davamlı hücumlarının nəticəsi olaraq Azərbaycanın mərkəzindən Naxçıvana gedən qatarların hərəkəti tamamilə dayandırılır. Naxçıvan Muxtar Respublikası blokada vəziyyətinə düşür.
**16 avqust 1989-cu il.** Xankəndində ermənilər "Dağlıq Qarabağ əhalisinin qurultayı"nı keçirir, Milli Şura və Rəyasət heyəti yaradırlar. Qurultay Dağlıq Qarabağı "müstəqil ittifaq ərazisi" elan edir.
**15 sentyabr 1989-cu il.** Azərbaycan Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağdakı Xüsusi İdarə Komitəsi ləğv olunur.
**16 sentyabr 1989-cu il.** Ermənilər Tiflis-Bakı avtobusunu partladırlar, 5 nəfər ölür, 25 nəfər yaralanır.
**21 sentyabr 1989-cu il.** Xankəndində yaşayan azərbaycanlılar döyülərək şəhərdən qovulurlar.
**07 oktyabr 1989-cu il.** Erməni terrorçusu A.Abramyan tərəfindən Şuşanın Xəlfəliçay körpüsü partladılır.

**01 dekabr 1989-cu il.** Ermənistanın Ali Soveti Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqda qərar qəbul edir.
**06 dekabr 1989-cu il.** Azərbaycanın Ali Soveti tərəfindən Dağlıq Qarabağ üzrə Respublika Təşkilat Komitəsi yaradılır, Komitəyə Azərbaycan partiya təşkilatının rəhbərlərindən V.Polyaniçko sədr təyin edilir.
**31 dekabr 1989-cu il.** Araz çayı boyunca 137 km-lik sərhəddə sərhəd qurğuları dağıdılır.
**04 yanvar 1990-cı il.** Erməni terrorçusu Q.Sarkisyan Əsgəran-Ağdam körpüsünü partladır.
**12 yanvar 1990-cı il.** Ermənistandan 500 nəfərlik silahlı dəstə vertolyotlarla Azərbaycanın Xanlar rayonunun Quşçu kəndinə gələrək, kəndi dağıdır, onlarla dinc sakini öldürürlər.
**15 yanvar 1990-cı il.** SSRİ Ali Soveti Dağlıq Qarabağ və ətraf rayonlarda fövqəladə vəziyyət elan edir.
**18 yanvar 1990-cı il.** Ermənistanın silahlı birləşmələri tərəfindən Naxçıvan Muxtar Respublikasının Kərki kəndi işğal edilir.
**20 yanvar 1990-cı il.** Sovet qoşunları Bakıya daxil olaraq qırğın törədirlər. Rəsmi məlumatlara görə 131 nəfər həlak olur, 800-dən artıq adam yaralanır.
**18 fevral 1990-cı il.** Ermənilər Şuşa-Bakı avtobusunu partladırlar, 13 nəfər yaralanır.
**11 iyul 1990-cı il.** Tərtərdən Kəlbəcərə gedən maşın karvanına ermənilər silahlı hücum edirlər. 14 nəfər həlak olur, 35 nəfər yaralanır.
**10 avqust 1990-cı il.** Tiflis-Ağdam avtobusu erməni terrorçuları A.Avanesyan və M.Tatevosyan tərəfindən partladılır. 20 nəfər ölür, 30 nəfər yaralanır.
**10 avqust 1990-cı il.** Ermənistan terrorçuları tərəfindən Şəmkir-Gəncə avtomobil yolunda avtobus partladılır. 17 nəfər həlak olur, 26 nəfər yaralanır.
**20 avqust 1990-cı il.** Ermənistan silahlı qüvvələri Qazax rayonun Bağanis Ayrım kəndini işğal edirlər. 5 nəfər kənd sakini öz evlərində diri-diri yandırılır.
**30 noyabr 1990-cı il.** Ermənistan terrorçuları tərəfindən Xankəndi yaxınlığında sərnişin avtobusu partladılır. 2 nəfər həlak olur, 11 nəfər yaralanır.
**15 dekabr 1990-cı il.** S.Babayanın terror qrupu Əsgəranda 3 nəfər azərbaycanlını qətlə yetirir.
**09 yanvar 1991-ci il.** Laçın-Şuşa yolunda 5 nəfərlik erməni terror qrupu "Molodyoj Azərbaycana" qəzetinin müxbiri Salatın Əsgərovanı və 2 nəfər hərbçini qətlə yetirir.
**14 yanvar 1991-ci il.** Azərbaycan Ali Soveti Şaumyan (kənd) rayonunun ləğvi haqqında qərar qəbul edir.
**18 aprel 1991-ci il.** Erməni terrorçusu Q.Sarkisyan Xocavənd rayonunda 3 azərbaycanlı milis işçisini öldürür.

**30 may 1991-ci il.** Erməni terrorçuları Moskva-Bakı qatarını partladırlar. 11 nəfər ölür, 22 nəfər yaralanır.
**19 iyun 1991-ci il.** Erməni terrorçuları Yevlax-Laçın yolunda avtomaşını partladırlar. 11 nəfər həlak olur, 3 nəfər yaralanır.
**27 iyun 1991-ci il.** "Qarabağ" adlı erməni terror təşkilatı Dağlıq Qarabağın Qaradağlı kəndinə hücum edir, 6 nəfər azərbaycanlı öldürülür.
**31 iyul 1991-ci il.** Erməni terrorçuları tərəfindən Moskva-Bakı sərnişin qatarı partladılır, 16 nəfər ölür, 20 nəfər yaralanır.
**02 avqust 1991-ci il.** Dağlıq Qarabağın Hadrut rayonunun Dolanlar kəndində ermənilər tərəfindən avtomaşın partladılır, 4 nəfər həlak olur, 8 nəfər yaralanır.
**08 avqust 1991-ci il.** Ermənistan hakimiyyəti tərəfindən orada azərbaycanlıların yaşadıqları sonuncu Nüvədi kəndi boşaldılır, əhalisi döyülərək Ermənistandan qovulur.
**21 avqust 1991-ci il.** Dağlıq Qarabağın Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında avtobus partladılır, 2 nəfər həlak olur, 10 nəfər yaralanır.
**23 avqust 1991-ci il.** Şuşa-Cəmilli yolunda avtobus erməni terrorçuları tərəfindən atəşə tutulur, 4 nəfər həlak olur, 13 nəfər yaralanır.
**30 avqust 1991-ci il.** Azərbaycan müstəqilliyinin bərpa olunması haqda Bəyannamə ilə çıxış edir.
**02 sentyabr 1991-ci il.** Ermənilər "Dağlıq Qarabağ respublikası" adında qondarma qurumun yarandığını elan edirlər.
**05 sentyabr 1991-ci il.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi yaradılır, general Valeh Bərşadlı nazir təyin edilir.
**08 sentyabr 1991-ci il.** Erməni terrorçuları tərəfindən Ağdam-Xocavənd avtobusu atəşə tutulur, 5 nəfər həlak olur, 34 nəfər yaralanır.
**08 sentyabr 1991-ci il.** Erməni terrorçuları tərəfindən Ağdam-Qaradağlı avtobusu atəşə tutulur, 8 nəfər həlak olur, 42 nəfər yaralanır.
**23 sentyabr 1991-ci il.** Şimali Qafqazda Jeleznovodsk şəhərində Azərbaycan, Ermənistan, Rusiya və Qazaxıstan prezidentləri görüşürlər, vəziyyəti nizama salmaq məqsədi ilə "müvəqqəti işçi qrupu yaradılır".
**26 sentyabr 1991-ci il.** Erməni terrorçuları tərəfindən Yevlax-Laçın yolunda avtomaşın partladılır, 2 nəfər həlak olur, 14 nəfər yaralanır.
**18 oktyabr 1991-ci il.** Azərbaycan "Dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" qəbul edir.
**19 oktyabr 1991-ci il.** Dağlıq Qarabağın Ağdərə rayonu Sırxavənd kəndi yaxınlığında ermənilər tərəfindən avtomaşın partladılır, 3 nəfər həlak olur, 2 nəfər yaralanır.
**20 noyabr 1991-ci il.** Erməni terrorçuları tərəfindən Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" vertolyotu vurulur. Vertolyotda olan bütün

şəxslər: Azərbaycan Respublikasının Dövlət Katibi T.İsmayılov, Baş nazirin müavini Z.Hacıyev, Prezidentin müşaviri M.Əsədov, Baş Prokuror İ.Qayıbov, deputatlar: V.Cəfərov, V.Məmmədov, Prezident aparatının şöbə müdiri O.Mirzəyev, Meliorasiya və su təsərrüfatı nazirinin 1-ci müavini Q.Namazəliyev, Dağlıq Qarabağın prokuroru, İ.Plavski, Milli Təhlükəsizlik Nazirliyinin şöbə müdiri S.İvanov, Dağlıq Qarabağın milis rəisi, general-mayor V.Kovalyov, komendant N.Jinkin, Dövlət katibinin köməkçisi R.Məmmədov, Azərbaycan televiziya və radiosunun əməkdaşları: A.Mustafayev, A.Hüseynzadə, F.Şahbazov, müşahidəçilər: general-mayor M.Lukaşov və podpolkovnik V.Koçarov, Qazaxstan Daxili İşlər nazirinin 1-ci müavini S.Serikov və ekipaj bu terror aktı nəticəsində həlak olurlar.

**26 noyabr 1991-ci il.** Azərbaycan parlamenti Dağlıq Qarabağ Muxtar Vilayətinin ləğv olunması haqda qanun qəbul edir.

**27 noyabr 1991-ci il.** SSRİ Dövlət Şurası DQMV-nin ləğvi ilə bağlı qərarın dəyişdirilməsini Azərbaycan rəhbərliyindən tələb edir.

**08 dekabr 1991-ci il.** Belorusun Brest şəhəri yaxınlığında Belovejsk deyilən yerdə Rusiya, Ukrayna və Belorus respublikaları saziş imzalayaraq Müstəqil Dövlətlər Birliyi yaratdıqlarını edirlər.

**10 dekabr 1991-ci il.** Dağlıq Qarabağ ermənilər referendum keçirir, "müstəqilliyə" səs verirlər.

**23 dekabr 1991-ci il.** Ermənilərin "Qarabağ" adlı terror təşkilatı Dağlıq Qarabağın Əsgəran rayonu Meşəli kəndinə hücum edir, 6 nəfər öldürülür, 15 nəfər yaralanır.

**26 dekabr 1991-ci il.** Şuşa şəhər sakini Süleyman Abbasov, onun hamilə həyat yoldaşı, yaşyarımında olan oğlu, qaynanası və onların getdikləri maşının sürücüsü Ağdam-Şuşa yolunda erməni terrorçuları tərəfindən qətlə yetirilirlər.

**27 dekabr 1991-ci il.** Ermənilər ağır texnikanın müşayəti ilə Xankəndi yaxınlığındakı Kərkicahan qəsəbəsinə hücum edirlər. Mehman Hüseynovun başçılığı altında kəndin 22 nəfərdən ibarət müdafiə dəstəsi qeyri-bərabər döyüşə girirlər. Səkkiz saat davam edən döyüşdə 70-dən çox erməni quldduru məhv edilir.

**08 yanvar 1992-ci il.** Erməni terrorçuları Krasnovodskdan Bakıya üzən sərnişin bərəsini partladırlar. 25 nəfər ölür, 88 nəfər yaralanır.

**10 yanvar 1992-ci il.** Respublika Təşkilat komitəsi Xankəndini tərk edir.

**15 yanvar 1992-ci il.** Kərkicahan qəsəbəsi işğal edilir.

**26 yanvar 1992-ci il.** Şuşa yaxınlığındakı Daşaltı kəndində Azərbaycan əsgərləri ermənilərin pusqusuna düşürlər, qeyri-bərabər döyüşdə 33 nəfər həlak olur, 36 nəfər yaralanır, 34 nəfər itgin düşür.

**28 yanvar 1992-ci il.** Ağdam-Şuşa marşurutu ilə uçan mülki vertolyot erməni terrorçuları tərəfindən vurulur. Əsasən qadın və uşaqlardan ibarət olan 41 nəfər sərnişin və 3 nəfər ekipaj üzvü həlak olur.

**30 yanvar 1992-ci il.** Azərbaycan və Ermənistan eyni vaxtda ATƏM (ATƏT) üzvlüyünə qəbul edilirlər.
**10 fevral 1992-ci il.** Quşçular və Malıbəyli kəndləri işğal edilir.
**13-17 fevral 1992-ci il.** Dağlıq Qarabağın Xocavənd rayonu Qaradağlı kəndi əldən-ələ keçir, kəndin 92 nəfər müdafiəçisi və 54 nəfər sakini öldürülür. Ermənilər 117 nəfər kənd sakinini girov götürür, onlardan 77 nəfərini qətlə yetirirlər. Ermənilər kəndin yaxınlığındakı fermada 6 nəfəri diri-diri yandırırlar.
**25-26 fevral 1992-ci il.** Erməni quldur dəstələri Rusiyanın 366-cı polku ilə birlikdə Xocalı şəhərini darmadağın edir, dəhşətli soyqırım törədirlər. Soyqırım nəticəsində 613 nəfər, o cümlədən 63 nəfər uşaq, 106 nəfər qadın, 70 nəfər qoca öldürülür. 487 nəfər, o cümlədən, 76 uşaq şikəst edilir. 1275 nəfər girov götürülür, 150 nəfər itkin düşür. Xocalıya hücuma erməni mayoru S.Ohanyan və 366-cı polkun 3-cü batalyonunun komandiri Y.Nabokixin bilavasitə rəhbərlik etmişlər.
**02 mart 1992-ci** il. Azərbaycan BMT-yə üzv qəbul edilir.
**08 mart 1992-ci il.** Qazax rayonunun Xeyrimli kəndi işğal edilir.
**12 mart 1992-ci il.** Qazax rayonunun Aşağı Əskipara kəndi işğal edilir.
**12 mart 1992-ci il.** Dağlıq Qarabağın Sırxavənd, Qaraşlar, Bəşirlər, Baş Güneypəyə, Orta Güneypəyə, Xatınbəyli, Manikli kəndləri işğal edilir.
**22 mart 1992-ci il.** Erməni terrorçuları tərəfindən Qazax rayonu ərazisində avtomaşın partladılır, 3 nəfər həlak olur, 2 nəfər yaralanır.
**24 mart 1992-ci il.** ATƏM (ATƏT) təkibində 11 ölkənin nümayəndələrinin daxil olduğu Minsk qrupu yaradılır. Qrupa Azərbaycan, Ermənistan, Belorus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Türkiyə, Fransa, İsveç, Çexoslovakiyanın (sonralar onun əvəzinə Avstriya, Finlandiya, Norveç daxil edilir) nümayəndələri daxil olurlar.
**07 aprel 1992-ci il.** Kəlbəcər rayonunun Ağdaban kəndi zəbt edilir və yandırılır. Kəndin 67 nəfər dinc sakini qətlə yetirilir, o cümlədən 8 qoca, 2 uşaq, 7 qadın diri-diri yandırılır.
**12 aprel 1992-ci il.** Ermənilər Şuşa şəhərinin müdafiəçilərinə qarşı kimyəvi silahdan istifadə edirlər.
**27 aprel 1992-ci il.** Qazax rayonunun Sofulu kəndi işğal edilir.
**08 may 1992-ci il.** Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilir.
**11 may 1992-ci il.** Qazax rayonunun Qızıl Hacılı kəndi işğal edilir.
**15 may 1992-ci il.** "SSRİ-nin hərbi əmlakının bölüşdürülməsi haqqında" Daşkənddə imzalanmış müqavilə əsasında IV ordunun silahlarını Azərbaycana təhvil verməyə başlayırlar.
**18 may 1992-ci il.** Ermənistan silahlı qüvvələri tərəfindən Laçın işğal edilir.
**20 may 1992-ci il.** Zəngilan rayonunun Qazançı kəndi yaxınlığında erməni terrorçuları tərəfindən avtomaşın partladılır, 2 nəfər həlak olur, 2 nəfər yaralanır.
**08 iyun 1992-ci il.** Qazax rayonunun Yuxarı Əskipara kəndi işğal edilir.

**12 iyun 1992-ci il.** Azərbaycan Ordusu geniş miqyaslı hərbi əməliyyatlara başlayır. 83 gün davam edən hücum əməliyyatı nəticəsində Dağlıq Qarabağın yarısı düşməndən azad edilir.
**08 avqust 1992-ci U.** Gədəbəy rayonunun Başkənd qəsəbəsi azad edilir.
**24 oktyabr 1992-ci il.** ABŞ konqresi "907-ci akta düzəliş" qəbul edir. Bu düzəliş Azərbaycana ABŞ hökuməti tərəfindən yardımı qadağan edir.
**10-12 dekabr 1992-ci ü.** Ermənistanın işğalçı qoşunları Qubadlı və Zəngilan rayonlarının Şayıflı, Seyidlər, Ərkənd, Bərəli, Qazançı, Günqışlaq, Pirveyisli, Canbar, Yuxarı Qayalı kəndlərini zəbt edirlər.
**28 fevral 1993-cü il.** Kislovodsk-Bakı sərnişin qatarı erməni terrorçuları tərəfindən partladılır, 11 nəfər həlak olur, 18 nəfər yaralanır.
**27-28 mart 1993-cü il.** Kəlbəcər rayonunun Ağqaya, Mərcimək, Təzəkənd, Ağcakənd, Narışlar kəndləri işğal edilir.
**02 aprel 1993-cü il.** Ermənistan silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonu işğal edilir.
**30 aprel 1993-cü il.** BMT Təhlükəsizlik Şurası 822 saylı qətnaməsini qəbul edir.
**20 may 1993-cü il.** Rus qoşunları Azərbaycanın ərazilərini tərk etməyə başlayırlar.
**02 iyun 1993 cü il.** Bakı dəmir yol vağzalında sərnişin qatarı Ermənistan xüsusi xidmət orqanlarının göndərdiyi terrorçu qrup tərəfindən partladılır, təsadüf nəticəsində ölən və yaralananlar olmur.
**12-15 iyun 1993-cü il.** Ağdam rayonunun Əliağalı, Əlimədədli, Qalayçılar kəndləri işğal edilir.
**25 iyun 1993-cü il.** Ağdam rayonunun Boyəhmədli, Papravənd kəndləri işğal edilir.
**26 iyun 1993-cü il.** Ermənilər Ağdərə şəhərini işğal edirlər.
**4 iyul 1993-cü il.** Füzuli rayonunun Arış, Qoçəhmədli, Qaracalı, Xatınbulaq, Gorazilli kəndləri işğal edilir.
**5 yul 1993-cü il.** Ağdam rayonunun Şelli kəndi işğal edilir.
**21 iyul 1993-cu il.** Ağdam rayonunun Muğanlı və Şıxbabalı kəndləri işğal edilir.
**22 iyul 1993-cü il.** Ağdam rayonunun Mərzili, Novruzlu, Yusifcanlı, Qiyaslı, Xıdırlı, Sancalı, Muradbəyli kəndləri işğal edilir.
**22 iyul 1993-cü il.** Tərtər rayonu ərazisində erməni terrorçuları tərəfindən partlayış törədilir, 5 nəfər həlak olur, 18 nəfər yaralanır.
**22 iyul 1993-cü il.** Qazax rayonu ərazisində erməni terrorçuları tərəfindən partlayış törədilir, 6 nəfər həlak olur, 10 nəfər yaralanır.
**23 iyul 1993-cü il.** Ermənistan silahlı qüvvələri Ağdamı işğal edirlər.
**24 iyul 1993-cü il.** Füzuli rayonunun Cuvarlı kəndi işğal edilir.
**29 iyul 1993-cü il.** BMT Təhlükəsizlik Şurası 853 saylı qətnaməsini qəbul edir.

**15 avqust 1993-cü il.** Füzuli rayonunun Aşağı Veysəlli, Yuxarı Yağlıvənd kəndləri, Cəbrayıl rayonunun Sur, Banazur, Quşçular, Qışlaq kəndləri işğal edilir.
**23 avqust 1993-cü il.** Ermənistan silahlı qüvvələri Füzulini işğal edirlər.
**23 avqust 1993-cü il.** Ermənistan silahlı qüvvələri Cəbrayılı işğal edirlər.
**27 avqust 1993-cü il.** Qarabağ Azadlıq Hərəkatı yaradılır. Xəqani Hüseynov sədr seçilir.
**30 avqust 1993-cü il.** Hadrut rayonu ərazisində erməni terrorçuları tərəfindən avtomaşın partladılır, 2 nəfər həlak olur.
**31 avqust 1993 cü il.** Ermənistan silahlı qüvvələri Qubadlını işğal edirlər.
**02 sentyabr 1993-cü il.** Hadrut rayonunun çıxacağında erməni terrorçuları tərəfindən sərnişin avtobusu partladılır, 4 nəfər həlak olur, 8 nəfər yaralanır.
**24 sentyabr 1993-cü il.** Azərbaycan Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olur.
**14 oktyabr 1993-cü il.** BMT Təhlükəsizlik Şurası 874 saylı qətnaməsini qəbul edir.
**23 oktyabr 1993-cü il.** Füzuli rayonunun Horadiz qəsəbəsi işğal edilir.
**28 oktyabr 1993-cü il.** Zəngilan rayonunun Mincivan qəsəbəsi işğal edilir.
**29 oktyabr 1993-cü il.** Ermənistan silahlı qüvvələri Zəngilanı işğal edirlər.
**12 noyabr 1993-cü il.** BMT Təhlükəsizlik Şurası 884 saylı qətnaməsini qəbul edir.
**21-22 dekabr 1993-cü il.** MDB parlament Assambleyası Dağlıq Qarabağ məsələsini "Aland modeli" üzrə həll etməyi təklif edir.
**08 yanvar 1994-cü il.** Füzuli rayonunun Horadiz qəsəbəsi erməni işğalından azad edilir. Hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu düşməni geri oturdur və 30 km irəliləyir.
**01 fevral 1994-cü İl.** Kislovodsk-Bakı sərnişin qatarı erməni terrorçuları tərəfindən partladılır, 3 nəfər ölür, 20 nəfərdən çox adam yaralanır.
**18 mart 1994-cü il.** Erməni terrorçuları Xankəndi üzərində İran diplomatlarını və onların ailə üzvlərini daşıyan təyyarəni vururlar, 34 nəfər həlak olur.
**19 mart 1994-cü il.** Erməni terrorçuları Bakıda "20 yanvar" metro stansiyasında partlayış törədirlər, 14 nəfər həlak olur, 49 nəfər yaralanır.
**13 aprel 1994-cü il.** Moskva-Bakı sərnişin qatarı erməni terrorçuları tərəfindən partladılır, 6 nəfər həlak olur, 3 nəfər yaralanır.
**12 may 1994-cii il.** Azərbaycanla Ermənistan arasında müvəqqəti atəşkəs elan olunur.
**03 iyul 1994-cü il.** Bakıda metro qatarı erməni terrorçuları tərəfindən partladılır, 13 nəfər həlak olur, 42 nəfər yaralanır.
**10 noyabr 1994-cü il.** Avropa Şurası parlament Assambleyası Qarabağ münaqişəsinə dair 1047 saylı qətnaməsini qəbul edir və tərəfləri atəşkəsi poza biləcək hərbi hərəkətlərdən çəkinməyə çağırır.

**05-06 dekabr 1994-cü il.** ATƏT-in Budapeşt sammiti keçirilir. İlk dəfə olaraq Dağlıq Qarabağ məsələsi xüsusi problem kimi müzakirə olunur, mərhələli nizamlama variantının ilkin prinsipləri müəyyən edilir.
**13 dekabr 1994-cü il.** İslam Konfransı Təşkilatının Kasablankada keçirilən zirvə toplantısında qəbul edilən qətnamə Ermənistan təcavüzkar dövlət kimi tanınır.
**29 noyabr 1995-ci il.** Bakı metropolitenində erməni terrorçuları tərəfindən partlayış törədilir, 286 nəfər həlak olur, 269 nəfər yaralanır.
**03 dekabr 1996-cv il.** ATƏT-in Lissabon sammiti keçirilir. Sammitdə daha çox Ermənistanın iddiaları nəzərə alınır, Qarabağ münaqişəsi ilə bağlı yekdil sənəd qəbul olunmur.
**Fevral 1997-ci** il. Minsk qrupunun 3 həmsədrlik institutu yaradılır.
**18 iyul 1997-ci il.** ATƏT-in Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üçün "Paket variantı"nı təklif edir.
**29 avqust 1997-ci il.** Rusiya və Ermənistan arasında "Dostluq və əməkdaşlıq haqda" hərbi ittifaq müqaviləsi imzalanır.
**02 dekabr 1997-ci il.** ATƏT-in Minsk qrupu Dağlıq Qarabağ məsələsinin mərhələli həll variantını təklif edir.
**28 iyun 1998-ci il.** İctimai və siyasi qurumların Qarabağ üzrə Koordinasiya Şurası yaradılır.
**07 noyabr 1998-ci il.** ATƏT-in Minsk qrupu həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin həllinə dair "Ümumi dövlət" konsepsiyasını təklif edirlər.
**29 iyul 1999-cu il.** Bakıda Azərbaycan və Türkiyə arasında hərbi yardıma dair müqavilə imzalanır.
**1-30 avqust 1999-cu il.** Qarabağ üzrə Kordinasiya Şurası aclıq aksiyası keçirir, beynəlxalq təşkilatlar qarşısında Ermənistanın təcavüzkar tərəf kimi tanınması, ona qarşı sanksiyaların tətbiq olunması tələbləri qoyulur.
**27 oktyabr 1999-cu il.** Erməni terrorçuları Ermənistan parlamentinə soxularaq parlamentin sədrini, baş naziri və bir neçə deputatı öldürürlər.
**19 noyabr 1999-cı il.** ATƏT-in İstanbul sammiti keçirilir. Qarabağ münaqişəsi ilə bağlı müzakirələr aparılır, lakin konkret sənəd qəbul olunmur.
**28 yanvar 2000-ci il.** Qarabağ Azadlıq Təşkilatı yaradılır. Akif Nağı sədr seçilir.
**25 yanvar 2001-ci il.** Azərbaycan və Ermənistan eyni vaxtda Avropa Şurasına üzv qəbul edilirlər.
**23-24 fevral 2001-ci il.** Azərbaycan parlamentində ictimai, siyasi qurumların nümayəndələrinin iştirakı ilə Qarabağ məsələsinə dair müzakirələr keçirilir.
**22 dekabr 2001-cİ il.** Qarabağ Azadlıq Təşkilatının təşəbbüsü ilə Qarabağ mitinqi keçirilir, işğal altında olan ərazilərin hərbi yolla azad edilməsi tələbləri qoyulur.

**18 yanvar 2002-ci il.** Qarabağ Azadlıq Təşkilatının təşəbbüsü ilə Qarabağ mitinqi keçirilir, yenə də torpaqların yalnız hərbi yolla azad edilə biləcəyi ilə bağlı tələblər qoyulur.
**22 fevral 2003-cü il.** Qarabağ Azadhq Təşkilatının təşəbbüsü ilə Xocalı soyqırımın ildönümünə həsr edilmiş mitinq keçirilir.
**13 avqust 2003-cü il.** Qarabağda partizan hərəkatını başlamaq üçün dəstə yaratmış bir qrup gənc həbs edilir.
**Aprel 2004-cü il.** Qarabağ danışıqlarının "Praqa prosesi" başlanır.
**08 may 2004-cü il.** Qarabağ Azadlıq Təşkilatı Qarabağa dinc yürüş həyata keçirir, yürüş iştirakçıları Azərbaycan əsgərlərinin səngərlərinə qədər çatır və orada mitinq keçirirlər.
**22 iyun 2004-cü il.** Qarabağ Azadlıq Təşkilatı erməni zabitlərinin Bakıda keçirilən NATO konfransına dəvət olunmasına etiraz olaraq, həmin konfransın keçirildiyi "Avropa" otelinin qarşısında etiraz mitinqi keçirir, mitinq iştirakçılarından bir qrup otelə daxil olur, konfransın işi dayandırılır. QAT üzvlərindən 6 nəfər həbs olunur. NATO rəhbərliyi Bakıda Ermənistan hərbçilərinin iştirakı ilə keçirilməsi nəzərdə tutulan hərbi təlimləri ləğv etmək məcburiyyətində qalır.
**25 yanvar 2005-ci il.** Avropa Şurası Parlament Assambleyası qətnamə qəbul edir, Azərbaycanın ərazilərinin Ermənistan tərəfindən işğal olunduğunu təsdiq edir.
**08 may 2005-ci il.** Qarabağ Azadlıq Təşkilatı Şuşanın işğalının ildönümü ilə əlaqədar Bakının bir neçə yerində dinc yürüşlər keçirir.
**Sentyabr 2005-ci il.** Minsk qrupu həmsədrləri tərəflərə "keçid statusu" deyilən variantı təklif edirlər.
**30 noyabr 2005-ci** il. Qarabağ Azadlıq Təşkilatı Rusiya, ABŞ və Fransanın Azərbaycandakı səfirlikləri qarşısında etiraz aksiyaları keçirir, Minsk qrupunun fəaliyyətinə son qoyulmasını tələb edir.
**16 dekabr 2005-ci il.** Qarabağ Azadlıq Təşkilatı Minsk qrupu həmsədrlərinin Bakıya səfərinə etiraz olaraq hava limanında, Xarici İşlər Nazirliyinin qarşısında, həmsədrlərin mətbuat konfransı keçirdikləri "Hiyat park" otelinin qarşısında etiraz aksiyaları keçirir, QAT fəalları mətbuat, konfransı keçirilən zala daxil olaraq mətbuat konfransını dayandırır və həmsədrlərin ölkəni tərk etmələrini tələb edirlər.
**13-17 aprel 2006-cı il.** Qarabağ Azadlıq Təşkilatı Azərbaycan Ordusunun zabiti Ramil Səfərov haqda Budapeşt şəhər məhkəməsinin ədalətsiz qərarına etiraz olaraq Bakı, Şəki, Mingəçevir, Ağsu, Lənkəran, Bərdə və digər şəhərlərdə, həmçinin çadır düşərgələrində yürüş-mitinqlər keçirir.
**22 iyun 2006-cı ü.** Minsk qrupu həmsədrləri birgə bəyanatla çıxış edərək "nizamasalmanın təməl prinsipləri"ni açıqlayırlar.
**13-19 oktyabr 2006-cı il.** Qarabağ Azadlıq Təşkilatı Fransa parlamentinin saxta "erməni soyqırımı"ını tanımamağa görə cəza haqqında qəbul etdiyi qanuna etiraz

olaraq həmin ölkənin Azərbaycandakı səfirliyinin qarşısında silsilə aksiyalar keçirir.
**29 dekabr 2006-c il.** Minsk qrupu həmsədrləri 2006-cı ildə heç nəyə nail ola bilmədiklərini etiraf edirlər.
**29 noyabr-01 dekabr 2007-ci il.** Minsk qrupu həmsədrləri Madriddə tərəflərə "yeni təməl prinsipləri"ni təqdim edirlər.
**14 mart 2008-ci il.** BMT Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət haqqında" qətnamə qəbul olunur.
**08 avqust 2008-ci il.** Rusiya Gürcüstana hərbi müdaxilə edir, regionda hərbi-siyasi vəziyyət dəyişir.
**Avqust-sentyabr 2008-ci il.** Türkiyə və İran Qarabağ məsələsi ilə bağlı yeni vasitəçilik təşəbbüsü ilə çıxış edirlər. Rusiya və ABŞ-ın diplomatik fəallığı artır.
**02 noyabr 2008-ci il.** Azərbaycan, Rusiya və Ermənistan prezidentləri Moskvada birgə Bəyannamə imzalayıblar.

# Tarixi arayışlar

### *Xocalı*

Xocalı şəhəri 1992-ci il fevralın 26-da işğal edilmiş, şəhər xarabılığa çevrilmişdir. İşğalçılar şəhərin yaxınlığındakı aeroportu bərpa etmişlər, vertolyotların enməsi üçün istifadə edirlər. İşğala qədər şəhərdə 7 min nəfər əhali yaşayırdı. İşğal zamanı 613 nəfər, o cümlədən, 106 qadın, 63 uşaq, 70 qoca qətlə yetirilmiş, 487 nəfər, o cümlədən 76 uşaq yaralanmış, 1275 nəfər əsir götürülmüşdür, onlardan 150 nəfərin taleyi haqda heç bir məlumat yoxdur. 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideyinlərindən birini itirmişdir.

Xocalı soyqırımın çox vaxt Xatın, Sonqmi faciələri ilə müqayisə edirlər. Hətta bu dəhşətli hadisələr də Xocalı ilə müqayisəyə gəlmir, Alman faşistləri 1943-cü il martın 22-də Belorusun Xatın kəndində əhalini bir binaya yığaraq yandırdılar. Nəticədə 149 nəfər, o cümlədən, 76 uşaq məhv edildi, yalnız bir nəfər sağ qalmışdı. Digər faciə 1968-ci il martın 16-da ABŞ əsgərləri tərəfindən Vyetnamın Sonqmi kəndində törədildi. Burada dinc əhali qətlə yetirildi. Kənddə qoyulmuş abidənin üzərində 504 nəfərin (1 yaşından 82 yaşa qədər) adları çəkilir.

### *Şuşa*

Şuşa şəhəri 1992-ci il mayın 8-də işğal olunmuşdur. Müharibənin gedişində 196 şuşalı həlak olmuşdur. Şuşa rayonunun ərazisi 290 $km^2$, əhalisi 24,9 min nəfər olmuşdur. Şuşanın 104 mədəniyyət və tarix abidəsi, 20 kitabxanası, 12 klubu, 6 mədəniyyət evi, 22 məktəbi, 7 uşaq baxçası işğal altında qalmışdır. Mədəniyyət və tarixi abidələrindən Qala divarları, Gəncə qapısı, Pənahxan qəsri, Pənahxan kitabxanası, Gövhər ağa məscidi, Saatlı məscidi, Ağabəyim ağanın qəsri, Karvansara, Xan evi və digərləri qeyd olunur.

### *Laçın*

1992-ci il mayın 18-də işğal olunmuşdur. Müharibənin gedişində 262 nəfər Laçınlı həlak olmuşdur. İşğala qədər Laçın rayonunun ərazisi 1835 $km^2$, əhalisi 64 min nəfər olmuşdur. İşğalçılar Laçının adını dəyişərək Kaşataq qoymuş, xeyli hissəsini bərpa etmiş və kənardan gələn 10 min nəfərə qədər erməni buraya köçürmüşlər. Laçın rayonu 120 kənd, 1 qəsəbə, 1 şəhərdən ibarət olmuşdur. Rayonun 217 mədəniyyət müəssisəsi, 133 iri və orta təsərrüfat obyekti, 20 tiləb ocağı işğal altında qalmışdır. Tarix və mədəniyyət abidələrinə Ağoğlan məbədi (IX əsr), Məlik Əjdər türbəsi (XV əsr), Minkənd körpüsü (XV əsr), Uşaq qalası (XV əsr), Qoç abidələri (XVI əsr), Həmzə Soltan sarayı (XVIII əsr) və digərləri aid edilir.

### *Kəlbəcər*

1993-cü il aprelin 2-də işğal olunmuşdur. Müharibənin gedişində 511 nəfər kəlbəcərli həlak olmuşdur. İşğala qədər Kəlbəcər rayonunda 58 min nəfər əhali yaşamış, ərazisi 1936 $km^2$, 119 kənd, 1 şəhər, 1 qəsəbə olmuşdur. Rayonun işğal altında 13 min yaşayış evi, 500 ictimai bina, 96 məktəb, 76 səhiyyə ocağı, 37852 ha meşə sahəsi, 172 mədəniyyət müəssisəsi qalmışdır. Kəlbəcər rayonu ərazisində 7 arxeoloji, 36 memarlıq, 87 tarix abidələri, o cümlədən, Xudəvənd məbədi (XIII əsr), Gəncəsar məbədi (XIII əsr) olmuşdur. Tarix muzeyindən 13 min qiymətli eksponat işğalçılar tərəfindən talan edilmişdir.

### *Ağdam*

1993-cü il iyulun 23-də işğal edilmişdir. Müharibənin gedişində 5823 nəfər ağdamlı həlak olmuşdur. İşğala qədər Ağdam rayonunda 160 min nəfər yaşamış, ərazisi 1094 kv.km, 1 şəhər, 121 kənd olmuşdur. 44 kəndi-Qaradağlı,

Rzalar, Evoğlu, Mahrızlı, Zəngişalı, Əhmədağalı, Quzanlı, Eyvazlı, Çullu, İmamqulubəyli, Sarıcalı, Əfətli, Hacıməmmədli, Hacıturalı, İsalar, Qəhrəmanbəyli, Küdürlü, Məmmədbağırlı, Üçoğlan, Ağalarbəyli, Alıbəyli, Orta Qışlaq, Yusifli, Kiriklu, Böyük Bəyli, Baharlı, Ballar, Xındırıstan, Sarıçoban, Bəybabalar, Kəlbəhüseynli, Dadaşlı, Paşabəyli, Birinci Yüzbaşlı, İkinci Yüzbaşlı, Baharlı (İtbaharlı), Çəmənli, Sarıcalı, Şüküraəğalı, Çıraqlı kəndləri işğal altında deyil. Ağdamın 27 tarixi, 40 memarlıq, 103 arxeoloji abidəsi işğal altında qalmışdır. Bu abidələrdən Qutlu Musa türbəsi (XIV əsr), Kəngərli kəndindəki Məqbərə (XIV əsr), Şahbulaq qalası, Pənah xanın İmarəti, Şəhər Məscidi (XIX əsr), Papravənd kəndindəki Başıkəsik məscid, bir çox kəndlərdəki türbələr xüsusi əhəmiyyət kəsb edirlər.

### *Füzuli*

1993-cü il avqustun 23-də işğal edilmişdir. Müharibənin gedişində rayonun 873 sakini həlak olmuşdur. İşğala qədər Füzuli rayonunda 139 min nəfər əhali yaşamış, ərazisi 1386 kv.km, 1 şəhər, 1 qəsəbə, 70 kənd olmuşdur. 72 məktəb, 26 uşaq baxçası, 69 kitabxana, 45 klub, 1 tarix-diyarşünaslıq muzeyi, 9 musiqi məktəbi, 7 xəstəxana işğal altında qalmışdır. 1994-cü ildə rayonun 23 yaşayış məntəqəsi işğaldan azad edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə 54 min nəfər əhali yaşayır. Bu ərazilərdə köçkünlər üçün 13 qəsəbə salınmışdır. Rayonun Mirzənağılı, Mollaməhərrəmli, Əhmədallar, Böyük Bəhmənli, Bala Bəhmənli, Araz Dilağarda, Kürdmahmudlu, Arayatlı, Əhmədbəyli, Kərimbəyli, Alxanlı kəndləri, Horadiz qəsəbəsi və daha 11 yaşayış məntəqəsi işğal altında deyil. Füzulinin 87 memarlıq və arxeoloji, 15 tarixi abidəsi, o cümlədən Azıx mağarası, Mirzəli türbəsi, Hacı Qiyasəddin məscidi (XVII əsr), Hacı Ələkbər məscidi (XIX) işğal altında qalmışdır.

### *Cəbrayıl*

1993-cü il avqustun 23-də işğal edilmişdir. Müharibənin gedişində 351 cəbrayıllı həlak olmuşdur. İşğala qədər bu rayonda 61 min nəfər əhali yaşamış, ərazisi 1050 kv.km, 1 şəhər, 76 kənd olmuşdur. Hazırda yalnız bir kəndi-Cocuq Mərcanlı işğal altında deyil. Rayonun 73 məktəbi, 132 tarixi abidəsi, 2 muzeyi, 149 mədəniyyət ocağı, 8 xəstəxanası işğal altında qalmışdır. Xüsusi əhəmiyyətli tarix və mədəniyyət abidələrindən Xudafərin körpüsü (XII), Qız qalası, Hacı Qaraman, Cəbrayıl ata, Mazannənə ziyarətgahları qeyd olunur.

## *Qubadlı*

1993-cü il avqustun 31-də işğal olunmuşdur. Müharibənin gedişində 238 nəfər Qubadlı sakini həlak olmuşdur. İşğala qədər Qubadlı rayonunda 34 min nəfər əhali yaşamış, ərazisi 826 kv.km, 1 şəhər, 93 kənd və qəsəbə olmuşdur. Rayonun 61 məktəbi, 60 kitabxanası, 10 mədəniyyət evi, 28 klubu, 205 mədəni-məişət müəssisəsi, 12 tarix, 5 memarlıq, 11 arxeoloji abidəsi işğal altında qalmışdır. Tarix-diyarşünaslıq muzeyinin 5 mindən çox qiymətli eksponatı işğalçılar tərəfindən talan edilmişdir. Gavur dərəsi ibadətgahı (IV əsr), Qalalı abidəsi (V əsr), Dəmirçilər türbəsi (XIV əsr), Hacı Bədəl körpüsü kimi tarix və mədəniyyət abidələri düşmən tapdağında qalmışdır.

## Zəngilan

1993-cü il oktyabrın 29-da işğal edilmişdir. Müharibənin gedişində 188 nəfər zəngilanlı həlak olmuşdur. İşğala qədər Zəngilan rayonunda 35 min nəfər əhali yaşamış, 707 kv.km-lik ərazidə, 1 şəhər, 1qəsəbə, 83 kənd olmuşdur. Rayonun 3 sənaye, 12 tikinti, 142 ictimai-iaşə, 38 məişət müəssisəsi, 255 sosial bina, 24 məktəb, 35 kitabxana, 8 mədəniyyət evi, 23 klub, 11 memarlıq, 13 tarix, 7 arxeoloji abidəsi işğal altında qalmışdır. Rayonun ərazisində XIII-XIV əsrlərə aid türbə və sərdabələr, tarixi abidələri olmuşdur. Dünyada analoqu olmayan 100 hektarlıq Çinar meşələri işğalçılar tərəfindən məhv edilmişdir.

## İrəvan

İrəvan qalası XVI əsrin əvvəlində Şah İsmayıl Səfəvinin sərkərdəsi Rəvanqulu xan tərəfindən salınmışdır. Bir müddət sonra qala böyüyərək iri yaşayış məntəqəsinə, şəhərə çevrilmişdir. Şəhər Rəvanqulu xanın adı ilə "Rəvan" adlandırılmış, sonralar isə danışıq ənənəsinə uyğun olaraq, "İrəvan" formasını almışdır. Şəhər müxtəlif dövrlərdə İrəvan mahalının, İrəvan xanlığının, 1827-ci ildə rus imperiyası tərəfindən işğal olunduqdan sonra isə İrəvan quberniyasının mərkəzi olmuşdur. Şəhər və quberniya əhalisinin böyük əksəriyyətini həmişə Azərbaycan türkləri təşkil etmişlər. Çünki bu ərazilər Azərbaycan türklərinin qədim torpaqları olmuşdur. Böyük dövlətlərin təzyiqləri qarşısında Azərbaycan parlamenti 29 may 1918-ci il tarixli qərarı ilə İrəvanı

Ermənistana verməyə məcbur olmuşdur. 1932-ci ildə Ermənistanda çap olunmuş "Sovet Ermənistanının əhalisi. 1831-1931" statistik məlumatlar kitabında erməni müəlliflər özləri göstərirlər ki, XIX əsrin əvvəllərində indi Ermənistan adlandırılan ərazilərdəki 2310 kənddən 2 mindən çoxunda azərbaycanlılar yaşayırdı. Yenə həmin kitabda bildirilir ki, həmin vaxt İrəvan şəhərində yaşayan 10 min nəfərdən 7 min nəfəri azərbaycanlı idi. Tanınmış tarixçi M. Neymanın yazdığına görə, 1828-1896-cı illər ərzində ruslar tərəfindən Qafqaza, 1,2 milyon nəfər erməni köçürülmüş, onlardan 985460 nəfəri indi Ermənistan deyilən ərazilərə, qalanları isə Qarabağ və Gəncə ərazilərinə yerləşdirilmişlər. Ermənistan Mərkəzi Statistika İdarəsinin 1962-ci ildə çap etdiyi "Statistik toplu"da isə göstərilir ki, 1831-ci ildə İrəvan şəhərində yaşayan 18766 nəfər əhalinin 15992 nəfəri, 1866-cı ildəki 27246 nəfərin isə 23627 nəfəri azərbaycanlı olmuşdur. Azərbaycan Demokratik Respublikasının Baş naziri Fətəlixan Xoylunun 1919-cu ilin avqustunda Paris Sülh Konfransına göndərdiyi məktubda göstərilirdi ki, həmin vaxt üçün Naxçıvanda azərbaycanlılar 62,5 %, ermənilər 36,7%, Şərur-Dərələyəzdə müvafiq olaraq 72,3 və 27,3%, Sürməlidə 66 və 31,4%, İravanda isə 60,2 və 37,4% təşkil edirdilər.

## *Erməni vəhşilikləri*

Qarabağ müharibəsinin gedişində ermənilər çoxlu sayda vəhşiliklər törətmişlər. Onları sadalayıb qurtarmaq mümkün deyil. Bir neçə konkret faktı diqqətə çatdırırıq. Şuşanın işğalı zamanı Nübar Zeynalovanın gözləri qarşısında oğlu Niyaz və bacısı Səriyyə diri-diri yandırılmışlar. Yeganə Mədətova da Şuşanın işğalı zamanı diri-diri yandırılmışdır. Xocalının işğalı zamanı Sərvinaz Əhmədova oğlu Məhəmmədlə birlikdə girov götürülmüş, əsirlikdə məruz qaldığı işgəncələrin nəticəsi olaraq 70 yaşlı bu qadın azad edildikdən bir ay sonra ölmüşdür. 60 yaşlı Şərqiyyə Şirinova Ağdam işğal edilərkən girov götürülmüş, əsirlikdə rezin və ağac dəyənəklərlə döyülmüş, 8 qızıl dişi kəlbətinlə çıxarılmışdır. Girov kimi Xankəndi uşaq bağçasında saxlanılan 25 qadın və qız uşaqları zorlanmışlar. Qadınlardan biri qızının zorlanmasına dözməyərək özünü öldürmüşdür. 10 yaşlı Xəzəngül Əmirovanın gözləri qarşısında atasını diri-diri yandırmışlar. Səmayə Kərimova 2 yaşlı qızı Nurlanə ilə birlikdə Füzulinin işğalı zamanı əsir götürülmüş, özünün və qızının başına gətirilən müsibətlərə dözməyərək, intihar etmişdir, qızı isə başına vurulan zərbələrdən kor olmuşdur. Xocalıda əsir düşmüş Qənahət Hacıyevin dediyinə görə, Xankəndi polis şöbəsində bir oğlanın əvvəlcə qollarını kəsmiş, sonra öldürmüşlər, bir qadının qarnını yararaq oraya pişik qoymuş və yaram

bağlamışlar. Kətik meşəsində əsir düşmüş Kübra Paşayeva bildirir ki, Əsgəran polis şöbəsinin qarşısında 30-dan artıq kəsilmiş baş payalara keçirilmişdi. Başqa bir dəhşətli edam hadisəsi xeyli sonra baş vermişdir. 1999-cu il noyabrın 21-də Eçmiədzində Ermənilər azərbaycanlı qadını Roza Bəktaşini və 2 qızını orta əsr vəhşiliklərinə uyğun edam etmişlər. Onların hər üçünü çoxlu sayda ilanların olduğu xəndəyə atmış və xəndəyin kənarlarında dayanaraq onların ilanlar tərəfindən hansı dəhşətlərlə öldürülməsini müşahidə etmişlər.

### *Erməni terroru*

Ermənistan Azərbaycanın torpaqlarını işğal edərkən terror aktlarından geniş şəkildə istifadə etmişdir. 1988-1994-cü illər ərzində Ermənistan Xüsusi Xidmət orqanları və terror təşkilatları tərəfindən Azərbaycan ərazisində 32 terror aktı törədilmiş, o cümlədən, 1 təyyarə, 5 şəhərlərarası qatar, 3 metro qatarı, 1 gəmi-bərə, 6 avtobus, 3 vertolyot partladılmışdır. Bu terror aktları nəticəsində 2 min nəfərdən artıq dinc əhali, o cümlədən, qadınlar və uşaqlar öldürülmüşdür. Azərbaycan hüquq-mühafizə orqanları 100-dən artıq erməni terrorçusunu zərərsizləşdirib və cinayət məsuliyyətinə cəlb edib. Ermənistan bu hərəkətləri törətməklə Beynəlxalq müdafiə hüququndan istifadə edən şəxslərə, həmçinin diplomatik agentlərə qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında BMT-nin 14 dekabr 1973-cü il tarixli Konvensiyası, Mülki aviasiyanın təhlükəsizliyinə qarşı qeyri-qanuni aktlarla mübarizə haqqında BMT-nin 23 sentyabr 1973-cü il tarixli Konvensiyası, 12 dekabr 1949-cu il tarixli Cenevrə Konvensiyasına 8 iyun 1977-ci il tarixli Əlavə Protokolu, Beynəlxalq terrorizmin ləğv edilməsinə dair tədbirlər haqqında BMT-nin 9 dekabr 1994-cü il tarixli Bəyannaməsini və digər normativ aktları kobud şəkildə pozmuşdur.

# Kitabdakılar

**Ön söz..............................................................................................3**

**Ermənilərin ilk ərazi iddiaları ...............................................................13**

**Erməni iddialarının "Sovet dövrü" ......................................................20**

**Qarabağ müharibəsinin başlanması.......................................................28**

**Sovet imperiyasının süqutu və işğalın yeni mərhələsi..........................40**

**İşğalçı Ermənistanın irimiqyaslı hərbi yürüşləri .................................52**

**Atəşkəs dövrü və danışıqların davam etdirilməsi ................................63**

**Danışıqların "Praqa prosesi" mərhələsi...............................................70**

**Nəticə ....................................................................................................80**

**Xronologiya...........................................................................................87**

**Tarixi arayışlar**..........................................................................**105**

**AKİF NAĞI**

# QARABAĞ MÜHARİBƏSİ

**(Qısa tarix)**

Naşir: Rafİq Xan-Sayad oğlu
Texniki redaktor: Namiq Həbibov
Dizaynerlər:
İradə Əhmədova, Ceyhun Əliyev
Kompüterdə yığdı: Gülnar Məmmədli

Yığılmağa verilmişdir: 28.11.2008
Çapa imzalanmışdır: 05.01.2009
Tiraj 500; Sifariş № 188
Şərti çap vərəqi 7
«MBM-R» mətbəəsində
çap olunmuşdur